RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 278 (9445) 20 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qədim "qara qızıl" diyarı müasir "yaşıl enerji" ölkəsinə çevrilir

## Azərbaycan bu sahədə də önə çıxır

Bu il noyabrın 21-də isə Macarıstanın paytaxtı Budapeşt şəhərində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin beşinci iclası keçirilib. Tədbirdə Azərbaycan energetika naziri Pərviz Şahbazov, Macarıstan xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstan Baş nazirin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniya energetika naziri Sebastian Burduja tərəfindən təmsil olunub. Görüşdə eləcə də Bolqarıstanın, Avropa Komissiyasının, 4 ölkənin ötürücü sistem operatorlarının və "CESI" şirkətinin nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycanda bərpaolunan enerji potensialının reallaşdırılması və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin inkişafının cari vəziyyətindən geniş bəhs olunub. Bir neçə ölkəni, iki dənizi birləşdirən marşrutlarla Xəzərin "yaşıl enerji" potensialını Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən bu strateji layihənin icrasını sürətləndirməyin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, təxminən bir il əvvəl sözügedən ölkələr vahid mövqedən çıxış edərək "yaşıl enerji" dəhlizi təşəbbüsü üzrə sıx əməkdaşlığa hazır olduqlarını Avropa İttifaqının şahidliyi ilə ali səviyyədə təsdiqləyiblər.

→ 10



◆ Milli Məclisin iclasında

## YAP-ın qərarı xalqın arzu və istəyinin ifadəsidir

**Dekabrın 19-da Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib.**

İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, dekabrın 15-də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin genişləndirilmiş iclasında ölkəmizin ictimai-siyasi həyatı üçün son dərəcə böyük əhəmiyyətə malik olan qərar qəbul edilib. Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyev gələn il fevralın 7-nə təyin edilmiş Prezident seçkilərində partiyadan namizəd göstərilib.

→ 3




## Mərkəzi Seçki Komissiyasının növbəti iclası olub

Dekabrın 19-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Yeni Azərbaycan Partiyası tərəfindən Azərbaycan Respublikası Prezidentliyinə namizədliyi irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin təsdiq olunması məsələsinə baxılıb.

Bildirilib ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülüb. Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 16-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən MSK-ya təqdim olunub. Bununla əlaqədar Seçki Məcəlləsində nəzərdə tutulan müddətdə və qaydada müvafiq araşdırma aparılıb, irəli sürülmüş namizədliyin təsdiqlənməsi üçün əsasların olduğu müəyyən edilib.

Komissiya 2024-cü il fevralın 7-nə təyin olunmuş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsini təsdiq edib.

Sonra sözügedən seçkilərdə Yeni Azərbaycan Partiyası tərəfindən təqdim olunmuş səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qeydə alınıb.

Media nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

## Davamlı inkişaf ölkəmizin gücünü artırır

Sosial rifahın ana xətti sabitlikdir. Azərbaycanda isə sabitliyin təminatçısı iqtidar-xalq birliyidir. "Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda dinlərarası münasibətlər də bizim gücümüzü artırır" söyləyən Prezident İlham Əliyev qətiyyətli dövlət başçısı kimi verdiyi vədlərə sadiq, siyasi iradəyə malik lider olduğunu təsdiqləmişdir.

Bütün bunları Sosial Tədqiqatlar Mərkəzinin "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğusunun nəticələrindən də aydın görmək olur. Dövlət başçısının müxtəlif istiqamətlərdəki fəaliyyəti respondentlər tərəfindən yüksək qiymətləndirilir. Sorğuya görə, Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə ölkəmizin siyasi-iqtisadi gücünün 70 faizə yaxın artacağı və regionda mövqeyinin 50 faizdən çox güclənəcəyi mümkündür. Əhalinin 82 faizdən çoxu postmüharibə dövrü üçün Böyük qayıdış planlarını və verilən qərarları müsbət qiymətləndirir.

Prezident İlham Əliyevin bu il dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda demişdir: "Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar..." Cari ildə doğma ata-baba yurdlarına qayıdan Füzulidən, Zəngilanın Ağalı, Tərtərin Talış kəndlərindən, Laçın şəhərindən və rayonun Zabux kəndindən olan məcburi köçkünlər deyilənlərdən də yaxşı şəraitlə təmin olunduqlarını söyləyirlər. Elə ay, elə həftə olmur ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakı şəhərinin Qaradağ rayonundan yola salınan, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış insanların doğma yurd, el-oba həsrətinə son qoyulmasın.

→ 6

## Azərbaycana olan etimadın təzahürü

Təşkilata üzv olan ölkələr COP29-un gələn il Azərbaycanda keçirilməsinə namizədliyimizi dəstəkləmiş və konfransın Azərbaycanda keçirilməsi qərara alınmışdır. Konfransın keçirilməsi üçün Azərbaycanın namizədliyinin dəstəklənməsi həm də ölkəmizin dünyada artan nüfuzunun əyani təzahürüdür.

3 il bundan əvvəl Azərbaycan tarixi torpaqlarını düşmən işğalından azad etməklə, 3 ay əvvəl isə ərazi bütövlüyünü və suverenliyini tam bərqərar etməklə ölkəmiz qüdrətini dünyaya göstərmişdir. Bu gün isə belə bir tədbirə ölkəmizin evsahibliyi etməsi həm də Azərbaycanın qazandığı qələbənin beynəlxalq aləm tərəfindən bir daha tanınması deməkdir.

Xüsusilə bir məqamı xatırlamaq yerinə düşər ki, Azərbaycanın COP29-a namizədliyi irəli sürülərkən Ermənistan ölkəmizin namizədliyi ilə barışmış, etiraz etməmişdir.

Ermənistanın bütün sahələrdə Azərbaycanın qələbəsi ilə barışması, regionda sülh müzakirələrinin gündəmdə olması təbii ki, bəzi Qərb dairələrini narahat edir. Belə ki, məhz Fransa hər vəchlə sülhə əngəl olmağa, əsassız bəyanatlarla sülh prosesinin qarşısını almağa çalışır.

Bu gün Ermənistanla ölkəmiz arasında sülh müqaviləsinin imzalanmasına yaxın olsaq da, Fransa kimi dövlətlərin məqsədi buna mane olmaqdır. Təbii ki, məsələnin əsas mahiyyəti Ermənistanın müqaviləni imzalaması deyil, çünki onlar üçün nə Ermənistan, nə də erməni xalqı maraqlıdır. Onların qısqanclığı özlərinə hər zaman Cənubi Qafqazda ehtiyacın olmasını hiss etdirməklə bağlıdır. Təbii ki, onların qərəzli mövqelərini beynəlxalq ictimaiyyət görür və baş verənlər hər kəsdə təəssüf hissi doğurur.

→ 5

## Ermənistanın regionun lider dövləti ilə razılaşmaqdan savayı yolu yoxdur

### Bunu dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri deyirlər

Azərbaycan Ordusu möhtəşəm döyüşlə bütün erməni əfsanələrini sabun köpüyü kimi partlatdı, onların bütün təbliğatının romantik şişirtmələrdən artıq bir şey olmadığını üzə çıxardı. O da birmənalı şəkildə təsdiq olundu ki, Qarabağ və Zəngəzur ərazilərinin bir qarışının belə erməni işğalçılarına dəxli yoxdur. Bunu özləri də bilirdilər, yoxsa vuruşardılar və 10 mindən çox fərari ilə dabanlarına tüpürüb qaçmazdılar.

Məlum olduğu kimi, bu yaxınlarda ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" adı altında forum keçirilmişdir. Tədbirdə Prezident İlham Əliyevə verilən suallarda da son illər dövlət başçısının və ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması aydın müşahidə olundu. Onlar mühüm əhəmiyyət kəsb edir, ölkəmizin beynəlxalq aləmdə yüksəldiyi yeni mövqelərə işıq salırdı.

→ 9

## YAP-ın qərarını cəmiyyətin müxtəlif təbəqələri dəstəkləyir

→ 4

## "İlham Əliyev ölkəmizin qalib rəhbəri kimi alternativsiz liderdir"

→ 4

## Paris riyakarlığından əl çəkmir

2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığı həzm edə bilməyən Paris Ermənistana 24 ədəd "Bastion" zirehli avtomobil verərək Yerevanla olan dostluğunu isbatlamağa çalışıb. Daha 26 "Bastion"un da veriləcəyini vəd edən Paris 3 ədəd "GM200" radarı satmasına və "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu da imzalayıb. Fransa, əslində, bu hərəkətləri ilə Ermənistana pislik edib. 30 illik münaqişə dövründə təpədən-dırnağa qədər silahlanan Ermənistan ordusu cəmi 44 günə darmadağın olunubsa, bundan sonra Ermənistanın silah gücünə, müharibə yolu ilə nəyə isə nail ola biləcəyini düşünmək ağılsızlıqdan başqa bir şey deyildir. Nə yazıq ki, Fransada bu cür mərəzə tutulanlar heç də az deyil. Onlardan biri də 62 yaşlı Paris meri Ann İdalqodur. 2024-cü ildə BMT-nin İqlim sammitinin (COP29) Azərbaycanda keçirilməsi üçün öz namizədliyini ölkəmizin xeyrinə geri götürən Ermənistandan fərqli olaraq, Paris merinin Azərbaycan əleyhinə kampaniya aparanlar sırasında yer alması heç də təəccüblü görünmür. Fransada seçkilər yaxınlaşanda erməni lobbisindən maliyyə dəstəyi və səs almaq istəyən siyasilərin erməni sevgisi "fontan" vurmağa başlayır.

→ 9

## Sorosçular Rusiyapərəstləri hədəfə alıb

### Paşinyandan bəzi nazirlərin istefası tələb edilir

Təsadüfi deyildir ki, onun hakimiyyətə gəlişindən sonra Soros bu ölkəyə daha çox vəsait ayırmağa başlayıb. Təhlillər göstərir ki, fond bir çox postsovet ölkəsində "məxməri inqilab" etmək üçün səy göstərib, amma onun ən uğurlu olduğu ölkə Hayastandır. Görünən həm də odur ki, Sorosun idarəsində olan Paşinyan və komandası artıq demokratiya adı altında ölkədə avtoritar rejim yaradıb.

Hayastanda baş nazir Nikol Paşinyanın parlamentdə təmsil olunan tərəfdarlarının arasında uzun illərboyu birbaşa Soros Fondunun maliyyəsi ilə yaşayan, fəaliyyət göstərən deputatlar var. Fondla dolayısı ilə əlaqəsi olan deputatların sayı 50-yə yaxındır. Soros Fondu tərəfindən Hayastanda fəaliyyət göstərən 200-dən çox təşkilata 1997-ci ildən 2018-ci il inqilabına qədər 48 milyon dollardan artıq vəsait ayrılıb. Fondun maliyyələşdirdiyi təşkilatların çoxsaylı nümayəndələri hazırda Hayastanda yüksək dövlət vəzifələrində təmsil olunurlar.

→ 9

# "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 4; 2001, № 3, maddə 141; 2007, № 12, maddə 1212; 2008, № 11, maddə 960; 2014, № 4, maddə 331; 2015, № 4, maddə 352; 2016, № 3, maddə 419; 2018, № 4, maddə 651; 2019, № 1, maddələr 36, 47, № 12, maddə 1904; 2020, № 3, maddə 227, № 5, maddə 521, № 12 (I kitab), maddə 1426; 2021, № 7, maddələr 697, 711; 2022, № 3, maddə 193, № 12, maddə 1393; 2023, № 1, maddə 10, № 2, maddə 216, № 8 (I kitab), maddə 1102) 16-4.4-1-ci və 16-4.5-ci maddələrində "2024-cü" sözləri "2025-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 46; 2018, № 7 (I kitab), maddə 1492; 2019, № 3, maddə 414, № 7, maddə 1247, № 10, maddələr 1580, 1592; 2020, № 2, maddə 109, № 5, maddə 556, № 6, maddə 700; 2021, № 3, maddə 229; 2022, № 1, maddə 24, № 3, maddə 223, № 10, maddə 1145, № 12, maddə 1416; 2023, № 7, maddə 948) dəyişikliklər təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2023-cü il*

# Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Sabunçu rayonunun Zabrat, Sabunçu və Ramana qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 450,0 (dörd yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2023-cü il*

# Astara rayonunun Düriyyə-Şümrüd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bir min nəfər əhalinin yaşadığı 2 yaşayış məntəqəsini birləşdirən Düriyyə-Şümrüd avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 800,0 (səkkiz yüz) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2023-cü il*

# Baş nazir Əli Əsədov Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 19-da Beynəlxalq Maliyyə Korporasiyasının Avropa, Latın Amerikası və Karib hövzəsi ölkələri üzrə regional vitse-prezidenti Alfonso Qarsia Moranın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanın Dünya Bankı və Dünya Bankı Qrupuna daxil olan qurumlarla əməkdaşlığa böyük önəm verdiyi, bu baxımdan Beynəlxalq Maliyyə Korporasiyası ilə uzunmüddətli səmərəli tərəfdaşlığın önəmi vurğulanıb. Qeyd edilib ki, ötən müddət ərzində Beynəlxalq Maliyyə Korporasiyası Azərbaycanda müxtəlif sahələrdə layihələrin həyata keçirilməsinə dəstək verib.

Hazırda Azərbaycan hökuməti üçün prioritet hesab olunan sahələrdə Dünya Bankı, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası ilə potensial layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə edilib. Diqqətə çatdırılıb ki, bu layihələr işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış, məşğulluğun artırılması, "yaşıl" şəhərlərin yaradılması, "Cənub qaz dəhlizi" layihəsinin və Bakı Gəmiqayırma Zavodunun fəaliyyətinin genişləndirilməsi, külək enerjisi infrastrukturunun tikintisi, digər istiqamətləri əhatə edə bilər.

Görüşdə Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verilib.

Ötən illər ərzində Azərbaycanın aşağı gəlirli ölkədən yüksək gəlirli donor ölkəyə çevrildiyi bildirilib. Vurğulanıb ki, 2021-ci ildən ölkəmiz Dünya Bankının donoru qismində iştirak edir.

Qeyd edilib ki, ölkədə işgüzar mühitin yaxşılaşdırılması, haqsız rəqabətin qarşısının alınması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması üçün məqsədyönlü tədbirlər görülür. Eyni zamanda qeyri-neft iqtisadiyyatının inkişafının əsas prioritetlərdən biri olduğu vurğulanıb. Bildirilib ki, aqrar sektorda müxtəlif növ güzəşt və kredit mexanizmləri tətbiq edilir.

Dövlət-özəl tərəfdaşlığı mexanizmləri vasitəsilə özəl sektorun iqtisadi inkişafda rolunun artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, rəqabətqabiliyyətli iqtisadiyyatın və kənd təsərrüfatının inkişafı, həmçinin dövlət-özəl sektor tərəfdaşlığı layihələrinin təşviqi və dəstəklənməsi Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan üzrə əsas fəaliyyət istiqamətlərini təşkil edir və ölkəmiz müvafiq sahələrdə əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

Eyni zamanda Azərbaycanın iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəklədiyi və enerji səmərəliliyi istiqamətində ardıcıl fəaliyyət göstərdiyi diqqətə çatdırılıb. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa işləri, o cümlədən "yaşıl enerji" zonasının, ekoloji təmiz nəqliyyatın, "ağıllı" şəhər və kəndlərin yaradılması ilə bağlı layihələr bunun bariz təzahürüdür.

Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Bildirilib ki, bərpaolunan enerji mənbələrinə investisiyaların cəlb edilməsi, "təmiz enerji"yə keçidin təmin edilməsi Azərbaycanın enerji siyasətinin əsas prioritetləri sırasındadır və bu istiqamətlərdə də səmərəli tərəfdaşlıq üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə Dünya Bankı, o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası ilə qarşılıqlı maraq doğuran bir sıra sahələrdə potensial əməkdaşlıq layihələri nəzərdən keçirilib.

# MSK-nın sədri ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələrini qəbul edib



Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov dekabrın 19-da ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri ilə görüşüb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, MSK-nın sədri missiya nümayəndələri Martina Barker-Çiqanikova və Qoran Petrovu salamlayaraq görüşdən məmnunluğunu bildirib.

M.Pənahov MSK-nın nüfuzlu beynəlxalq təşkilatlar və onların müxtəlif qurumları ilə əlaqələrə xüsusi əhəmiyyət verdiyini, əməkdaşlığa daim açıq olduğunu vurğulayıb və qeyd edib ki, beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycanda seçki praktikasının daha da təkmilləşdirilərək hazırkı səviyyəyə yüksəlməsinə mühüm töhfələr verib.

Səmimi görüşə görə minnətdarlıqlarını ifadə edən ATƏT/DTİHB-nin Ehtiyacların Dəyərləndirilməsi Missiyasının nümayəndələri ölkəmizin seçki sistemi və seçki komissiyalarının fəaliyyət prinsipləri, seçici siyahılarının dəqiqləşdirilməsi ilə bağlı görülən işlər, habelə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə hazırlıqların gedişi ilə maraqlanıblar.

Qonaqların suallarını cavablandıran sədr M.Pənahov qarşıdan gələn seçkilərin yüksək səviyyədə hazırlanıb azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlardan danışıb, nəzərdə tutulan genişmiqyaslı layihələri nümayəndə heyətinin diqqətinə çatdırıb, eləcə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində seçki məntəqələrinin yaradılması və səsvermənin təşkili barədə onları məlumatlandırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

### QƏRAR № 9/23

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin namizədliyi irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 16-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*19.12.2023*

### QƏRAR № 9/24

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Yeni Azərbaycan Partiyası İdarə Heyətinin 2023-cü il 15 dekabr tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Yeni Azərbaycan Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Tahir Yaqub oğlu Budaqov - Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Mərkəzi Aparatının rəhbəri;
Əli Cavad oğlu Əhmədov - Yeni Azərbaycan Partiyası Sədrinin müavini.

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə**

Əhliman Safalan oğlu Tağıyev - Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı rəhbərinin müavini.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*19.12.2023*

### QƏRAR № 9/25

## Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Aşur Natiq oğlu Bədəlov 22 saylı Nəsimi - Yasamal, Tamerlan Nazim oğlu Qurbanov 55 saylı Siyəzən - Quba - Xızı, Qoşqar Qəzənfər oğlu Məmmədov 110 saylı Balakən, Ramiz Əhmədiyyə oğlu Əsədov 116 saylı Qəbələ seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Nizami Fərman oğlu Novruzov 9 saylı Binəqədi ikinci, Anar Nüsrət oğlu Ələsgərov 22 saylı Nəsimi - Yasamal, Əsmər Abuzər qızı Ağayeva 55 saylı Siyəzən - Quba - Xızı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*19.12.2023*

## Milli Məclisin iclasında

# YAP-ın qərarı xalqın arzu və istəyinin ifadəsidir

*Əvvəli 1-ci səh.*

"Əlbəttə, bu qərar bütün Azərbaycan xalqının arzu və istəyini ifadə edir. Dünyamiqyaslı siyasi və dövlət xadimi olan möhtərəm cənab İlham Əliyev ölkəmizə heyrətamiz uğurlar gətirən fəaliyyəti ilə xalqımızın dərin hörmət və məhəbbətini qazanıb. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi daxili və xarici siyasət konsepsiyası yeni tarixi şəraitdə yaradıcı surətdə davam etdirilib və daha da zənginləşdirilib. Azərbaycan dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxıb, geniş bir bölgədə söz sahibinə çevrilib", - deyə Milli Məclisin Sədri bildirib.

Spiker diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Azərbaycanın müzəffər sərkərdəsi kimi adını tarixə həkk etmişdir. Onun siyasi-diplomatik və hərbi-strateji məharəti sayəsində 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri Qarabağın və Şərqi Zəngəzurun işğalına son qoyulması ilə nəticələnib. Dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin və tarixi ədalətin bərpa olunması xalqımızın milli qürurunu özünə qaytarıb.

Azərbaycanın müasir tarixinin son iyirmi ilinin cəmiyyət və dövlət həyatının bütün sahələrində davamlı yeniləşmə, sürətli sosial-iqtisadi inkişaf, möhkəm ictimai-siyasi sabitlik və tərəqqi, milli qürur, həmrəylik və birlik, gələcəyə sonsuz inam anlayışları ilə bağlı olduğunu bildirən Milli Məclisin Sədri Sahibə Qafarova deyib: "Əminliklə söyləmək olar ki, möhtərəm cənab İlham Əliyevə xas olan siyasi bəsirət və səriştə, dövlətçilik təfəkkürü və idarəçilik məharəti dövlətimizin müstəqil inkişaf yolu ilə bundan sonra da inamla irəliləməsini təmin edəcək. Azərbaycan qarşıdakı illərdə daha böyük uğurlara imza atacaq və yeni zirvələri fəth edəcəkdir".

Sonra iclasda gündəmdə olan məsələlərlə əlaqədar müzakirələr keçirilib. Deputatlar Bəhruz Məhərrəmov, Musa Qasımlı, Kamilə Əliyeva, Vüqar Bayramov, Hikmət Məmmədov, Jalə Əliyeva, Məlahət İbrahimqızı, Etibar Əliyev, Anar İsgəndərov, Şahin İsmayılov çıxış edərək bildiriblər ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkiləri sağlam siyasi rəqabət şəraitində yeni reallığa keçidi təmin edən demokratik imkandır. Qeyd olunub ki, Azərbaycan xalqı hərbi-siyasi qələbələrdən irəli gələn yeni reallıqlarda yalnız cənab İlham Əliyevlə birlikdə olmağı arzulayır və bu mənada Yeni Azərbaycan Partiyasının növbədənkənar prezident seçkilərində İlham Əliyevin namizədliyini irəli sürməsi xalqın istəyini yerinə yetirmək kimi qəbul olunur. Azərbaycanın gələcəyi məhz İlham Əliyevlə bağlıdır.

Qeyd edilib ki, siyasi partiyalar üçün hakimiyyətə gəlməyin yolu - seçkilərdir və bu prosesdə hər bir kəsə cəmiyyətin və dövlətin siyasi həyatında iştirak etmək hüququnu reallaşdırmaq üçün ölkəmizdə sağlam şərait, bərabər imkanlar yaradılıb.

Deputatlar böyük siyasi əhəmiyyətə malik COP29 sessiyasının 2024-cü ildə Azərbaycanda keçirilməsinə dair qərarın qəbul edilməsini dövlətimizə olan etimadın göstəricisi kimi dəyərləndiriblər. Qeyd edilib ki, bu qərarın verilməsinə ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artması, mötəbər beynəlxalq tədbirlərə ölkəmizin müvəffəqiyyətlə evsahibliyi etməsi səbəb olub. Bildirilib ki, Azərbaycan beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq lokal antiterror tədbirləri keçirərək öz suverenliyini bərpa edib və separatizmə son qoyub. Bu gün beynəlxalq təşkilatlar, dünya dövlətləri Azərbaycanın qələbəsini qəbul edir və ölkəmizin haqlı mövqeyini dəstəkləyirlər.

Sonra iclasda gündəlikdəki məsələlər müzakirə olunub. İlk olaraq Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı dinlənilib. Məlumatı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova təqdim edib. Diqqətə çatdırılıb ki, sənəddə əlilliyi olan şəxslərin gender təhlili, bank sektorunda çalışan işçilər, bank məhsullarından istifadə edən şəxslərin gender bölgüsü, banklar tərəfindən gender bərabərliyinin təminatı istiqamətində həyata keçirilmiş tədbirlər, daşınmaz əmlak sahibi olan şəxslərin gender bölgüsü ilə bağlı məlumatlar yer alıb. Məlumatda həmçinin "Məişət zorakılığından zərər çəkmiş şəxslərin müdafiəsi sahəsində məhkəmə təcrübəsinin təhlili", "Medianın intiharlara təsiri", "Azərbaycanda seksual qısnama: qanunvericilik və onun tətbiqi praktikası", "Uşaq nikahlarının aradan qaldırılması: qanunvericilik və onun tətbiqi praktikası", Azərbaycanda selektiv abort problemi, "Təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyinə dair" araşdırmalar öz əksini tapıb.

Gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərindən və dövlətin vəzifələrindən bəhs edən Bahar Muradova diqqətə çatdırıb ki, ötən ildə də atalar üçün ödənişsiz məzuniyyət hüququnun müəyyən edilməsi, qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin sayının azaldılması, kişi və qadınların orta aylıq əməkhaqqı fərqliliyinin aradan qaldırılması istiqamətində məqsədyönlü islahatlar gündəmdə olub.



Komitə sədri bildirib ki, institusional mexanizmlərin gücləndirilməsi istiqamətində 2022-ci ildə də fəaliyyət davam etdirilib. Belə ki, Uşaq və Ailələrə Dəstək, Qadın Resurs Mərkəzləri tərəfindən çox sayda tədbirlər və təlimlər keçirilib, "genderazerbaijan.com" portalı istifadəyə verilib, gender məsələləri üzrə məsul şəxslərin və bələdiyyələrdə yaradılmış Gender komissiyalarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təlim və seminarlar təşkil olunub, gender bərabərliyi mədəniyyətinin təbliği sahəsində çoxsaylı layihələr icra edilib, maarifləndirmə işləri aparılıb.

Bildirilib ki, uşaqların doğulanadək cins seçiminə məruz qalmasına dair vəziyyət problemli olaraq qalır. Bu sahədə dövlət orqanları və vətəndaş cəmiyyəti qurumları tərəfindən aparılan məqsədyönlü işlər cəmiyyətdə bununla bağlı müəyyən dəyişiklik yaradıb. Diqqətə çatdırılıb ki, dövlətin idarə olunması və qərarların qəbulu səviyyəsində əvvəlki illərə nisbətən 2022-ci ildə bərabərliyə doğru tendensiya artmaqda davam edib. Hüquq-mühafizə, diplomatik xidmət orqanlarında çalışan əməkdaşlar arasında 2022-ci il ərzində qadınların sayında müsbət dinamika müşayiət olunub. Səhiyyə və əhalinin sosial müdafiəsi sahəsində 2022-ci ildə stabil tendensiya davam edib, bu sahədə qadınların üstünlüyü dəyişməz olaraq qalıb.

Nəzərə çatdırılıb ki, BMT-nin Gender Bərabərsizliyi İndeksinin təhlillərinə əsasən Azərbaycan dünya üzrə bərabər təhsil sahəsində 2017-ci illə müqayisədə 2022-ci ildə 91-ci yerdən 55-ci yerə yüksəlib. Ölkənin ümumtəhsil məktəblərində təhsil alan şagirdlər arasında oğlanlar qızlara nisbətən çoxdur. 2022-2023-cü tədris ili üzrə təhsil alan şagirdlərin cins bölgüsü arasındakı fərq azalıb. Orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələr arasında qadınlar daha çox orta ixtisas təhsilinə, kişilər isə peşəyönümlü təhsilə üstünlük verirlər. 2022-2023-cü tədris ili üzrə keçirilmiş qəbul imtahanlarında yüksək bal intervalında nəticə göstərən abituriyentlər arasında qızlar üstünlük təşkil edib. Bakalavr dərəcəsində qızlar, magistr dərəcəsində isə oğlanlar nisbi üstünlük təşkil edirlər. Həmçinin ali təhsil müəssisələrinin professor-müəllim heyətinin gender göstəriciləri də qadınların xeyrinədir. Qeyd olunub ki, komitə tərəfindən bu sahədə problemlərin hərtərəfli araşdırılması üçün "Təhsil müəssisələrində rəhbər vəzifələrdə gender bərabərsizliyinə dair" analitik hesabat hazırlanıb, yekun tövsiyələr məlumatda göstərilib.

Daha sonra Bahar Muradova 2022-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsi sahəsində əldə edilmiş nəticələr, qarşıya qoyulan vəzifələr və tövsiyələrdən bəhs edib.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova qeyd edib ki, 2022-ci ildə ölkədə gender bərabərliyinin təmini sahəsində müsbət dinamika qorunub saxlanıb. Bir çox sahələrdə qadınların iştirakçılığının artması müşahidə olunur. Əmək bazarında, sahibkarlıq fəaliyyətində qadınların rolu getdikcə artır, həmçinin onların təhsil səviyyəsi, müxtəlif peşələrə yiyələnməsi ildən-ilə yüksəlir. Hicran Hüseynova qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının tarixində ilk dəfə olaraq "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda konfrans keçirilib. O, BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının qadın platformasının yaradılmasını Azərbaycanın beynəlxalq qadın hərəkatına ən mühüm töhfəsi kimi dəyərləndirib.

Parlamentin komitə sədri Azərbaycanda qadın və kişilərin bərabər iştirakçılığı üçün şəraitin yaradılması, gender əsaslı zorakılığın, məişət zorakılığının qarşısının alınması istiqamətində həyata keçirilən layihələri, tədbirləri müsbət qiymətləndirib. O, müzakirəyə təqdim olunan məlumatı müsbət qiymətləndirərək sənəddə məişət zorakılığı cinayətlərinə, onun ağır fəsadlarına xüsusi həssaslıqla yanaşıldığını diqqətə çatdırıb.

Sənədin müzakirəsi zamanı deputatlar məlumatda əks olunan ayrı-ayrı məsələlərlə bağlı fikirlərini açıqlayıblar, bəzi qeydlərini səsləndiriblər. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova qaldırılan məsələlərə aydınlıq gətirib, verilən sualları cavablandırıb.

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının 2022-ci ildə fəaliyyəti haqqında məlumatı səsə qoyularaq nəzərə alınıb.

Sonra iclasda "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında diplomatik nümayəndəlik və ya konsulluq əməkdaşlarının ailə üzvlərinin əmək fəaliyyətinə cəlb edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi təsdiq olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət ehtiyatları haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri ikinci oxunuş zamanı deputatların təklifləri əsasında müvafiq dəyişikliklərin layihədə öz əksini tapdığını söyləyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Tahir Mirkişili "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini də (üçüncü oxunuş) təqdim edib və ikinci oxunuşdan sonra layihə ilə bağlı hər hansı təklif olmadığını deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlament sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) layihəni diqqətə çatdırıb. Bildirilib ki, layihədə adları çəkilən qanunların icrası ilə bağlı bir sıra qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, birinci oxunuşdan sonra layihə ilə bağlı heç bir təklifin daxil olmadığını deyib. Sənəddə Cinayət-Prosessual Məcəlləsinə "Prosessual sənədlərin rəsmi qaydada verilməsi" və "Cinayət təqibi üzrə qiyabi icraat" adlanan iki yeni fəslin əlavə edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini təqdim edib. Deputat məsələyə dair heç bir əlavə təklifin olmadığını söyləyib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. O, birinci oxunuşdan sonra əlavə təklifin daxil olmadığını və layihənin mətnində heç bir dəyişikliyin edilmədiyini bildirib.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti iki məsələsi ölkə Prezidentinin bir məktubu ilə parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta haqqında" qanunda dəyişikliklə bağlı məlumat verib. Bildirilib ki, təqdim olunan layihədə işsizlikdən sığorta ödənişi almaq hüququ olan şəxslərin dairəsinin genişləndirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini təqdim edib. Layihədə sığortaedən tərəfindən işçilərin işsizlikdən sığorta etdirilməməsi və işçinin peşəsi, ixtisası və əməkhaqqı barədə sığortaçıya rəsmi məlumat verilməməsinə görə inzibati xətalar haqqında işlərə müəyyən edilən qaydalar çərçivəsində baxılması təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin spikeri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 7 məsələsi Prezidentin bir məktubu ilə parlamentə daxil olub, məzmun və mahiyyət baxımından bir-birinə yaxındır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Anar Məmmədov Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. Deputat bildirib ki, təklif olunan dəyişikliklər dəniz nəqliyyatı sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə əlaqədar hazırlanıb və bu sahədə fəaliyyətin səmərəliliyinin artırılmasını təmin edəcək.

Parlamentin Sədri Sahibə Qafarova gündəliyin digər 3 məsələsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxıldığını bildirib.

Komitənin üzvü Kamal Cəfərov 3 məsələni - Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələrini təqdim edib. O, layihələrlə bağlı hər hansı təklifin olmadığını deyib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, dəyişikliyin redaktə xarakteri daşıdığını söyləyib və layihənin səsə qoyulmasını xahiş edib.

7 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Məşhur Məmmədov "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Qanun layihəsi maliyyə hesabatları və mühasibat uçotu sənədləri təqdim edilərkən dövlət və ya kommersiya sirri hesab edilən məlumatların qorunmasının tənzimlənməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, qanun layihəsində hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmətkeçmə müddətləri ilə bağlı dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib.

Arzu Nağıyev müvafiq platformalarda hərtərəfli müzakirələrdən keçən layihəni dövlətçilik, ordu quruculuğu, müdafiə qabiliyyətinin artırılması, hərbçilərin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması baxımından mütərəqqi sənəd kimi xarakterizə edərək həmkarlarını onu ikinci oxunuşda da dəstəkləməyə çağırıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qanun layihəsinə dair rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb.

Deputat Vüqar Bayramov məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrini də təqdim edib. O, Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinin "Arbitraj haqqında" qanun layihəsi ilə bağlı olduğunu, mahiyyətcə uyğunlaşdırma xarakteri daşıdığını və bir sıra substantiv və terminoloji məsələləri əhatə etdiyini bildirib.

Sonra Nizami Səfərov "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. Layihədə təklif edilən dəyişikliklər kommersiya mübahisələrinin "Arbitraj haqqında" qanun layihəsində əks olunan mübahisələrin alternativ həlli vasitələrindən hesab olunan arbitraj institutu vasitəsilə həlli mexanizminin inkişaf etdirilməsi və genişləndirilməsindən irəli gəlir. Sənəddə məhkəmədən əvvəl kommersiya mübahisələri üzrə ilkin mediasiya sessiyasında iştirak tələbinin aradan qaldırılması təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Bildirilib ki, layihə prokurorluq işçiləri ilə yanaşı, prokurorluq orqanlarının digər əməkdaşlarının da sosial müdafiəsini gücləndirmək məqsədilə hazırlanıb.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Bildirilib ki, ölkə Prezidenti tərəfindən təqdim olunmuş sənəddə həmin qanunun 2.2-ci maddəsində nəzərdə tutulmuş müddətin uzadılması təklif olunur. Belə ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 11.1-ci maddəsinə əsasən tikinti layihələri şəhərsalma sənədlərinin, o cümlədən müfəssəl planın müəyyənləşdirdiyi tələblərə uyğun olmalıdır. Lakin hal-hazıradək bütün yaşayış məntəqələrinin və onların ərazisinin müəyyən hissələrinin müfəssəl planlarının hazırlanması və təsdiqi işi başa çatmadığı üçün müfəssəl planların məcburi tətbiqi müddətinin uzadılmasına zərurət yaranıb. Təklif edilən dəyişiklikdə müddətin 11 ildən 14 ilədək uzadılması nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Nəzərə çatdırılıb ki, layihə fiziki şəxslərin mülki işlər üzrə ümumi məhkəmələrə müraciəti zamanı "Elektron məhkəmə" informasiya sistemindən istifadəsini stimullaşdırmaq məqsədilə hazırlanıb. Belə ki, mövcud qanunvericilik fiziki şəxslərə mülki işlər üzrə məhkəmələrə həm şəxsən, həm də elektron məhkəmə sistemi vasitəsilə müraciət etmək imkanı verir. Təklif olunan dəyişiklikdə bu sistem vasitəsilə mülki iş üzrə ilk dəfə məhkəməyə müraciət edən fiziki şəxslər müəyyən edilmiş dövlət rüsumunun 10 faizini ödəməkdən azad olunurlar.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirib ki, layihədə Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, hazırlama, əldə etmə, saxlama, daşıma və ya gəzdirmə kimi qanunazidd əməllərə görə cinayət məsuliyyəti müəyyən edilir.

Həmçinin Silahlı Qüvvələrinin şəxsi heyətinin, silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların müharibə vaxtı və ya döyüş şəraitində yayılmasına görə (dövlətə xəyanət, casusluq və ya dövlət sirrini yayma növündə cinayətlərin əlamətləri olmadan) cinayət məsuliyyəti müəyyən edilir. Müvafiq məlumatlar qadağan edilmiş informasiyalar hesab edilir. Bu cür məlumatlar hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılarsa, inzibati həbs nəzərdə tutulub. Burada mühüm istisna ondan ibarətdir ki, bu cür məlumatlar hərbçiyə etibar edilmişsə, yaxud onun xidməti vəzifəsinə görə dövlət sirridirsə, eyni zamanda bu cür məlumatlar müharibə və ya döyüş şəraitində istənilən şəxs tərəfindən yayılarsa, cinayət məsuliyyətinə səbəb olur.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc rəhbərlik etdikləri komitələrin qanun layihəsi ilə bağlı rəylərini diqqətə çatdırıblar.

Layihə səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Komitə sədri bildirib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş bu qanun layihəsi zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilə bilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb. Belə ki, "Hərbi xidmət və hərbi vəzifə haqqında" qanunun 36.1.3-cü maddəsinə əsasən həqiqi hərbi xidmətə qəbul üçün müəyyən edilmiş tələblərə cavab verən ən azı tam orta təhsilli şəxslərin gizirlərin və miçmanların həqiqi hərbi xidmətinə könüllü daxil ola bilməsi müəyyən edilsə də, qanunvericilikdə tam orta təhsilli gizir və miçmanlara kiçik leytenant hərbi rütbəsinin verilə bilməsi nəzərdə tutulmamışdır.

Təklif edilən dəyişikliklə, gizir və miçman vəzifələrində beş il və daha çox xidmət etmiş, zabit vəzifəsinə təyin edilmiş tam orta təhsilli gizir və miçmanlara hərbi hazırlıq keçdikdən və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılmış olacaqdır.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## 7 FEVRAL AZƏRBAYCANDA NÖVBƏDƏNKƏNAR PREZİDENT SEÇKİLƏRİ GÜNÜDÜR



# YAP-ın qərarını cəmiyyətin müxtəlif təbəqələri dəstəkləyir

### Prezident seçkiləri İlham Əliyevin yürütdüyü siyasi kursa etimad referendumudur



Müstəqil Azərbaycan tarixində ilk dəfə olaraq bütün ölkə ərazisində keçiriləcək növbədənkənar prezident seçkilərinə iki aydan az vaxt qalır. Artıq Yeni Azərbaycan Partiyasından İlham Əliyevin prezidentliyə namizədliyi irəli sürülüb.

2024-cü ildə keçiriləcək seçkilər Zəfər seçkisi adlandırılır. Təbii ki, bu da təsadüfi deyil. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qətiyyəti, iradəsi, uğurlu siyasəti nəticəsində 2020-ci ildə torpaqlarını işğaldan azad edib. Bu ilin sentyabrında isə antiterror tədbirləri nəticəsində separatçı rejimin mövcudluğuna son qoyulub, ərazi bütövlüyümüz, suverenliyimiz tam bərpa olunub. Xalqımız qalib xalqa, Azərbaycan qalib ölkəyə çevrilib. Xalq ona qələbəni yaşadan müzəffər sərkərdəsinə inanır. Bu seçkilər də İlham Əliyevin xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisi olacaq.

Milli Məclisin deputatı Aydın Mirzəzadə "Azərbaycan" qəzetinə açıqlamasında qeyd edib ki, Yeni Azərbaycan Partiyası qarşıdan gələn prezident seçkilərinə ən layiqli namizədi irəli sürüb: "YAP-çılar hesab edirlər ki, cənab İlham Əliyev indiyə qədər Prezident vəzifəsinə çox böyük etimadla yanaşıb, cəmiyyətin problemlərinin həllində böyük işlər görüb. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edilib. Azərbaycan torpaqlarında separatçı rejimin mövcudluğuna son qoyulub. Cənab Prezidentin uğurlu xarici siyasəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artıb".

A.Mirzəzadə vurğulayıb ki, prezidentliyə namizəd YAP Sədri İlham Əliyev xalqa yaxındır, hər bir vətəndaşın probleminin həllini ümumdövlət səviyyəsində daim diqqətdə saxlayır. Qarşıdan gələn demokratik, şəffaf, rəqabətli seçkilərdə namizədlər ədalətli mübarizə aparacaqlar: "Cənab İlham Əliyevin prezidentliyə namizəd göstərilməsi isə təkcə Yeni Azərbaycan Partiyasının üzvləri tərəfindən deyil, eyni zamanda cəmiyyətin müxtəlif təbəqələri tərəfindən maraqla qarşılandı və dəstəkləndi. Hesab edirəm ki, bu seçkilər Azərbaycanın 2024-cü ildən sonra gedəcək yolun seçim seçkisi, Prezident İlham Əliyevin yürütdüyü siyasi kursa etimad referendumudur. Bu seçkilər Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində, demokratiyanın dərinləşməsində böyük rol oynayacaq".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Tarix yazan sərkərdə

"Ulu Öndər Heydər Əliyevin yaratdığı və ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyası növbədənkənar prezident seçkilərinə müzəffər Ali Baş Komandan İlham Əliyevlə qatılır. Elə bir liderlə ki, tarixi zəfəri ilə öz adını təkcə ölkəmizin zəngin döyüş tarixinə deyil, dünyanın hərb tarixinə əbədi həkk etdirib. Bu baxımdan Prezident İlham Əliyev tarix yazan və tarixə yazılan sərkərdədir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat qeyd edib ki, Prezident İlham Əliyev Konstitusiyanın 101-ci maddəsinin birinci hissəsini rəhbər tutaraq, habelə Seçki Məcəlləsinin 179-cu maddəsinə uyğun olaraq, dekabrın 7-də imzaladığı sərəncamla 2024-cü il 7 fevral tarixdə Azərbaycan Respublikasında növbədənkənar prezident seçkilərinin keçirilməsini təyin edib. Bu reallıq fonunda siyasi camiədə bir sıra məsələlər xüsusi müzakirə predmetinə çevrilib. Birincisi, növbədənkənar prezident seçkilərinin keçirilməsi ilə bağlı sərəncam hüquqi baxımdan tam legitimdir. Qanunvericilik dövlət başçısına növbədənkənar prezident seçkiləri təyin etmək səlahiyyəti verir.

Deputatın sözlərinə görə, bu qərar siyasi baxımdan da tam yetərlidir. Növbədənkənar prezident və parlament seçkiləri keçirmək praktikasına dünyanın əksər ölkələrində rast gəlinir. ATƏT-ə üzv olan 56 dövlətin 33-də ümumi, birbaşa, o cümlədən növbədənkənar prezident seçkilərinin keçirilməsinə icazə verən Konstitusiya və digər qanunvericilik aktları mövcuddur. Təkcə son 5 il ərzində dünyanın bir çox ölkəsində növbədənkənar parlament və prezident seçkiləri keçirilib. Belə ki, 2019-cu ildə Belarusda, 2021-ci ildə Moldovada, 2022-ci ildə Portuqaliyada, 2023-cü ildə İspaniyada, Niderlandda və eyni ilin 17 dekabrında Serbiyada növbədənkənar parlament, Mərkəzi Asiyanın 4 dövlətində - Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Özbəkistanda 2021-ci, 2022-ci və 2023-cü illərdə növbədənkənar prezident seçkiləri baş tutub. 2024-cü il martın 17-də Rusiyada da növbədənkənar prezident seçkiləri keçiriləcək.

Elman Nəsirov onu da bildirib ki, bu seçkilərin növbədənkənar keçirilməsini şərtləndirən ciddi səbəblər və əsaslar mövcuddur: "Müstəqillik dövründə ölkəmizdə keçirilən həm prezident, həm parlament, həm də bələdiyyə seçkiləri heç bir zaman bütün ölkə ərazisini əhatə etməyib. Seçkilər həmişə ölkəmizin ərazisinin 80 faizində keçirilib, erməni işğalı altında olan ərazilərimiz bu prosesdən kənarda qalıb. 2020-ci ilin sentyabr-noyabr aylarında aparılan Vətən müharibəsində müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz ordumuz tarixi zəfərə imza atıb, ərazi bütövlüyümüz bərpa edilib. Cari ilin 19-20 sentyabrında isə lokal antiterror tədbirləri ilə Qarabağ iqtisadi rayonu üzərində suverenliyimizi tam və əbədi təmin etdikdən sonra yeni tarixi reallıq yaranıb. Bu reallığın, yəni ərazi bütövlüyümüz və suverenliyimizin 100 faiz təmin edilməsinin beynəlxalq birlik və ictimaiyyət tərəfindən vaxtında qəbul edilməsi növbəti strateji vəzifəyə çevrilib. Bu vəzifənin uğurlu icrası bütün Azərbaycan ərazisində 2025-ci ili gözləmədən növbədənkənar prezident seçkilərinin keçirilməsini zəruri edən həlledici amildir. Beləliklə, növbədənkənar prezident seçkiləri ilk dəfə bütün Azərbaycan ərazisini əhatə edəcək", - deyə E.Nəsirov söyləyib.

Deputat vurğulayıb ki, artıq MSK öz üzərinə düşən vəzifənin icrası istiqamətində konkret addımlar atmağa başlayıb. Dekabrın 8-də MSK "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı"nı təsdiq edib. Plana əsasən, prezidentliyə namizədlərin irəli sürülməsi prosesinə başlanılıb. Bu məqsədlə ilk addım olaraq Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin dekabrın 15-də genişləndirilmiş iclası keçirilib. Müzakirələrin sonunda İlham Əliyevin 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasından namizəd irəli sürülməsi haqqında yekdilliklə qərar qəbul olunub.

Elman Nəsirov yekunda qeyd edib ki, xalqın gözü tərəzidir. Müdrik xalqımızın yenidən düzgün seçim edərək qalibiyyətlər tariximizin davamına - onu yazan liderimiz İlham Əliyevə səs verəcəyinə tam əminlik var.

***Nəzrin QAFARZADƏ, "Azərbaycan"***

# "İlham Əliyev ölkəmizin qalib rəhbəri kimi alternativsiz liderdir"

Prezident seçkiləri hər bir ölkənin ictimai-siyasi həyatında son dərəcə əlamətdar hadisədir. Tarixi seçim qarşısında qalan, taleyüklü bir məsələnin iştirakçısı olan vətəndaş istər-istəməz dönüb keçilən yola baxır, qazanılan uğurları, buraxılan səhvləri, qaçırılan fürsətləri götür-qoy edir, qəbul edəcəyi qərarı, atacağı addımı müəyyən edir.

Yaşadığımız ömrün son 20 ili İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Bu 20 ildə biz azad bir xalq, müstəqil bir dövlət olaraq nələrə nail olduq, nə qazandıq, nə itirdik. Bu ritorik sualı bütün detalları ilə incələsək, heç şübhəsiz, qalın bir kitab alınar, gerçək bir uğur salnaməsi yaranar. Qısa və konkret cavabı isə belədir: bu gün Azərbaycan dünya miqyasında söz sahibidir, aparıcı dövlətlər, güc mərkəzləri ölkəmizlə hesablaşmaq zorundadırlar. Bu gün regionda, bütov Qafqazda Azərbaycanın iştirak etmədiyi, qol qoymadığı heç bir qlobal layihə reallaşmır.

Son ilin uğur salnaməsində qürurverici hadisələrin sayı-hesabı yoxdur. Tarixə qızıl hərflərlə yazılan xilaskarlıq missiyası - Azərbaycanın ərazi bütövlüyünün təminatı qəhrəman əsgərlərimizin hünəri, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin iradəsi, "dəmir yumruğ"u ilə gerçəkləşdi. İndi Qarabağ dağlarının qartalların qanad çaldığı zirvələrində qürur simvolumuz olan üçrəngli müqəddəs bayrağımız dalğalanır. Erməni faşistlərinin odlara qalayıb viran qoyduqları Qarabağın, Şərqi Zəngəzurun xarabalıqları üzərində yüksək zövqlə "ağıllı şəhərlər, kəndlər" salınır, yollar çəkilir, sosial infrastruktur yaradılır.

Son 20 ildə haradan hara gəldik. 2003-cü ildə prezidentliyə namizəd kimi Bərdədəki Türk "Qızıl Ay" çadır şəhərciyində öz seçiciləri ilə görüşdə İlham Əliyev əminliklə demişdi ki, Azərbaycanda bir çadır şəhərciyi də qalmayacaq, siz doğma yurdlarınıza dönüb orada yaşayacaqsınız. 20 il əvvəl verilən bu vədin reallaşdığı göz önündədir. İndi Qarabağ incisi Şuşa yenidən beynəlxalq tədbirlərin, festivalların keçirildiyi ünvana çevrilir. Laçın sürətlə dirçəlir, Kəlbəcərə keçilməz dağlardan yol çəkilir, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı büsbütün yenidən qurulur. Beləcə, Qarabağın, Şərqi Zəngəzurun böyük inşaat meydanına çevrilməsi hər könüldə təbii məmnunluq hissi doğurur.

Bu gün ölkəmizin bütün bölgələrində yüksək əhvali-ruhiyyə, xoş ovqat yaşanır. Tərtərlilərin məmnunluğuna, fərəh hissi keçirmələrinə bu gün daha çox haqları var desək, yəqin yanlış olmaz. 44 günlük savaşda tərtərlilər sözün həqiqi mənasında güllə, mərmi, raket yağışına məruz qaldılar. Amma bir nəfər də doğma evini tərk etmədi. 44 gün ərzində düşmən rayon mərkəzinə, digər yaşayış məntəqələrinə 16,2 mindən çox mərmi, qadağan edilmiş "Smerç" raketləri atdı, evləri, məntəqələri, xəstəxanaları, uşaq bağçalarını dağıtdı. O ağır günlər Prezident İlham Əliyevi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanı yanlarında görən, dövlət başçısının hərarətli əlini kürəklərində hiss edən tərtərlilər əsl qəhrəmanlıq nümunəsi göstərdilər, çətinliklərə mətanətlə sinə gərdilər. Övladları qəhrəmanlıqla şəhid olan analar göz yaşlarını silib, "Təki vətən yaşasın" deyib döyüşən orduya arxa-dayaq oldular.

Tərtərdə hamının adını böyük hörmət və ehtiramla çəkdiyi bir ana yaşayır. Şəhid Nicat İskəndərovun anası Maya xanım. Övlad itkisi saçlarına dən salsa da, nurlu çöhrəsində qırışlar açsa da, həmişə başını dik tutur, azad Qarabağın qeyrətli anası kimi...

Ölkəmizin növbədənkənar prezident seçkilərinə getdiyi bu tarixi günlərdə Maya xanım düşüncələrini bizimlə bölüşdü:

- İlham Əliyev Qarabağı azad edən, xalqımızı xəcalətdən qurtaran rəhbərdir. Mən oğul itirmişəm. Bu, ana üçün böyük dərddir. Amma təsəllimiz də böyükdür. 30 il erməni tapdağında olan Qarabağ indi bizimdir. Elə həmişəlik də bizim olacaq. Birinci vitse-prezident Mehriban xanım Əliyeva çətin günlərimdə mənimlə görüşüb təsəlli verib. Çox razıyam. İndi seçkilərə elə də çox vaxt qalmayıb. Xalqımızın tək bir seçimi var, o da İlham Əliyevdir. Çünki İlham Əliyev ölkəmizin qalib rəhbəri kimi alternativsiz liderdir.

***Lazım QULİYEV, "Azərbaycan"***

# Azərbaycan-İƏT əlaqələrinin perspektivləri müzakirə olunub



Dekabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibinin humanitar, mədəni və sosial məsələlər üzrə müavini, Baş katibin Əfqanıstan üzrə xüsusi nümayəndəsi Tariq Əli Baxit ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı Azərbaycan və İƏT arasında mövcud əməkdaşlıq gündəliyi və əlaqələrin perspektivləri, habelə İƏT-in Əfqanıstanda fəaliyyəti və bu istiqamətdə perspektivlər müzakirə olunub.

Nazir Ceyhun Bayramov təşkilatla qurulan sıx əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayıb. Bu il Bakıda İƏT-in Əmək Mərkəzinin açılışının təşkilat çərçivəsində münasibətləri daha da irəli aparacağı qeyd olunub. Görüləcək birgə işlərin əmək, məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı sahəsində üzv ölkələrin əməkdaşlığının genişləndirilməsinə xidmət edəcəyi diqqətə çatdırılıb.

Müzakirələr zamanı tərəflər Əfqanıstanda sülhün və sabitliyin əhəmiyyətini vurğulayıblar. İƏT Baş katibinin nümayəndəsi Əfqanıstan üzrə təmasları və görüşləri, eləcə də təşkilatın bölgədə planları barədə ətraflı məlumat verib.

Azərbaycanın bölgənin qonşuluğunda yerləşən dövlət olaraq, Əfqanıstandakı vəziyyəti yaxından izlədiyi vurğulanıb.

Tərəflər eyni zamanda ölkəmiz ilə İƏT arasında mövcud humanitar, sosial və mədəni əməkdaşlıqdan məmnun olduqlarını bildirib, birgə mədəni tədbirlər üzrə planları bölüşüblər.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Xarici işlər naziri Ceyhun Bayramov Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoyla görüşüb



Dekabrın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Prezidentinin beynəlxalq mədəniyyət əməkdaşlığı üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla Rusiya arasında humanitar və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri, habelə regional vəziyyət müzakirə olunub.

Xüsusi nümayəndə Mixail Şvıdkoy bu il qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin 100 illiyi ilə əlaqədar Rusiyada keçirilən tədbirlər barədə məlumat verib, növbəti ildə də mədəniyyət və humanitar sahələrdə iki ölkə arasında birgə tədbirlərin həyata keçirilməsi istiqamətində dəstək verməyə hazır olduğunu bildirib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# ATƏT-in DTİHB-in Ehtiyacların Qiymətləndirilməsi Missiyasının nümayəndələri Xarici İşlər Nazirliyində olublar

Dekabrın 19-da Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Ehtiyacların Qiymətləndirilməsi Missiyasının nümayəndələri Martina Barker-Çiqanikova və Qoran Petrov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə gələn il fevralın 7-nə təyin edilmiş növbədənkənar prezident seçkilərinə hazırlıq məsələləri və bu istiqamətdə beynəlxalq öhdəliklər müzakirə olunub.

Nazir müavini Elnur Məmmədovun qarşıdan gələn seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlar, eləcə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı, xaricdə yaşayan və ya müvəqqəti olaraq xarici ölkədə olan Azərbaycan vətəndaşlarının seçki hüququnun təmin edilməsi ilə bağlı tədbirlər barədə qarşı tərəfə ətraflı məlumat verib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycan və Uqanda XİN-ləri arasında məsləhətləşmələr keçirilib

Dekabrın 18-19-da Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Uqanda Respublikasına səfər edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan XİN-in nümayəndə heyəti Uqanda səfəri çərçivəsində Prezident Yoveri Kaquta Musevini tərəfindən qəbul edilib.

Səfər zamanı Azərbaycan və Uqanda Xarici İşlər nazirlikləri arasında ikitərəfli əsasda və çoxtərəfli formatlar çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər üzrə məsləhətləşmələr keçirilib.

Tərəflər iki dövlət arasında əlaqələrin inkişafından məmnunluq ifadə edib və onun daha da gücləndirilməsinin vacibliyini vurğulayıblar. Səfər çərçivəsində 2024-cü il yanvar ayının ortalarında Uqandanın paytaxtı Kampala şəhərində keçiriləcək Qoşulmama Hərəkatının 19-cu Zirvə görüşünə hazırlıq və orada sədrliyin Azərbaycandan Uqandaya təhvil verilməsi barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan nümayəndə heyəti Qoşulmama Hərəkatına sədrlik təcrübəsini bölüşüb, Zirvə görüşünün təşkili və gələcək fəaliyyətlərlə bağlı tövsiyələrini təqdim edib.

Qarşı tərəf həmçinin Azərbaycanı BMT sisteminin ən irimiqyaslı tədbiri olan COP29-a ev sahibi qismində seçilməsi münasibətilə təbrik edib, sıx iş birliyinə və əməkdaşlığa ümidvar olduğunu bildirib.




AZERBAIJAN COP29

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası



# Azərbaycana olan etimadın təzahürü

Bu gün dünyada söz sahiblərindən birinə çevrilən Azərbaycan həm də təşkil etdiyi beynəlxalq tədbirlərin möhtəşəmliyi ilə diqqət çəkir. Ölkəmiz istər beynəlxalq tədbirlərin təşkili, istərsə də belə tədbirlərdə iştirak baxımından fərqlənərək yadda qalır. Bu cür tədbirlərdən növbətisi isə gələn il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un ölkəmizdə keçirilməsidir.

Xüsusilə son illərdə beynəlxalq təşkilatlarda olduqca fəal iştirak edən və dünyada beynəlxalq təşəbbüslərin lideri olaraq tanınan Azərbaycanın belə bir mötəbər tədbirə evsahibliyi etməsi həm də ölkəmizin artan nüfuzunun göstəricisidir. Pandemiya dövründə peyvəndin bərabər bölünməsi və kasıb ölkələrin peyvəndə əlçatanlığının təmini barədə ölkəmizin çağırışları ilə əlaqədar BMT-nin xüsusi sessiyasının çağırılması, peyvənd millətçiliyinə son qoyulması və kasıb ölkələrin peyvəndə əlçatanlığının təmin olunması məsələsinə diqqət çəkilməsində Azərbaycanın oynadığı rolun böyük əhəmiyyəti oldu.

Qoşulmama Hərəkatı kimi 120-dən artıq ölkəni özündə birləşdirən bir təşkilata ölkəmizin uğurla rəhbərlik etməsi, məhz təşkilata üzv dövlətlərin birgə qərarı ilə Azərbaycanın sədrliyinin daha bir il uzadılması ölkəmizin beynəlxalq aləmdə qazandığı nüfuzun göstəricisidir. Məhz Azərbaycanın Qoşulmama Hərəkatına uğurla rəhbərlik etdiyi ötən 4 il hərəkatın işinə verdiyi xüsusi töhfə ilə yadda qalır. Dövlət başçısının təşəbbüsü ilə Hərəkatın Parlament Şəbəkəsinin yaradılması isə üzv dövlətlərin qanunverici hakimiyyətini öz çətiri altında birləşdirir.

Təşkilata üzv olan ölkələr COP29-un gələn il Azərbaycanda keçirilməsinə namizədliyimizi dəstəkləmiş və konfransın Azərbaycanda keçirilməsi qərara alınmışdır. Konfransın keçirilməsi üçün Azərbaycanın namizədliyinin dəstəklənməsi həm də ölkəmizin dünyada artan nüfuzunun əyani təzahürüdür.

3 il bundan əvvəl Azərbaycan tarixi torpaqlarını düşmən işğalından azad etməklə, 3 ay əvvəl isə ərazi bütövlüyünü və suverenliyini tam bərqərar etməklə ölkəmiz qüdrətini dünyaya göstərmişdir. Bu gün isə belə bir tədbirə ölkəmizin evsahibliyi etməsi həm də Azərbaycanın qazandığı qələbənin beynəlxalq aləm tərəfindən bir daha tanınması deməkdir.

Xüsusilə bir məqamı xatırlamaq yerinə düşər ki, Azərbaycanın COP29-a namizədliyi irəli sürülərkən Ermənistan ölkəmizin namizədliyi ilə barışmış, etiraz etməmişdir.

Ermənistanın bütün sahələrdə Azərbaycanın qələbəsi ilə barışması, regionda sülh müzakirələrinin gündəmdə olması təbii ki, bəzi Qərb dairələrini narahat edir. Belə ki, məhz Fransa hər vəchlə sülhə əngəl olmağa, əsassız bəyanatlarla sülh prosesinin qarşısını almağa çalışır.



Bu gün Ermənistanla ölkəmiz arasında sülh müqaviləsinin imzalanmasına yaxın olsaq da, Fransa kimi dövlətlərin məqsədi buna mane olmaqdır. Təbii ki, məsələnin əsas mahiyyəti Ermənistanın müqaviləni imzalaması deyil, çünki onlar üçün nə Ermənistan, nə də erməni xalqı maraqlıdır. Onların qısqanclığı özlərinə hər zaman Cənubi Qafqazda ehtiyacın olmasını hiss etdirməklə bağlıdır. Təbii ki, onların qərəzli mövqelərini beynəlxalq ictimaiyyət görür və baş verənlər hər kəsdə təəssüf hissi doğurur.

Məhz belə bir məqamda dünya birliyinin yekdil qərarı ilə İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının gələn il Bakıda keçirilməsi beynəlxalq ictimaiyyətin ölkəmizə verdiyi ən böyük dəstəkdir, Azərbaycanla həmrəyliyin əyani nümayişidir.

Qeyd etmək lazımdır ki, Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi etməkdə böyük təcrübəsi var. Daha əvvəl evsahibliyi etdiyi Beynəlxalq Astronavtika Konqresi, Qoşulmama Hərəkatının iclası, humanitar forumlar, I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər tədbirlər bu sahədə bizə zəngin təcrübə qazandırıb. Gələn il növbəti dəfə ölkəmiz dünyanın diqqətində olacaq. COP29-un yüksək səviyyədə təşkili həm də Azərbaycanın qüdrətini dünyaya nümayiş etdirəcək.

1995-ci ildə ilk dəfə Berlin şəhərində keçirilmiş konfransın 29-cusunun Bakı şəhərində keçirilməsi və Azərbaycanın bu mötəbər tədbirə evsahibliyi etməsi mövqeyimizin daha da gücləndirilməsinə xidmət edəcək. Eləcə də bu gün ölkəmizin gündəliyində olan "yaşıl enerji" siyasətinin dünyaya nümayiş etdirilməsində bu konfrans olduqca mühüm əhəmiyyət daşıyacaq.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini,***
***Gənclər və idman komitəsinin sədri***

# COP29 Azərbaycanın növbəti qlobal uğuru olacaq

Azərbaycan evsahibliyi etdiyi bütün beynəlxalq tədbirlər kimi, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını da (COP29) yüksək səviyyədə keçirəcək. Əlbəttə ki, ölkəmiz COP29-un Bakıda keçirilməsinə dəstəklə bağlı etimadı doğruldacaq. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində nail olduğumuz bu beynəlxalq etimad bizi növbəti uğura doğru aparacaq.



Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Kamilə Əliyeva deyib ki, dünya dövlətləri tərəfindən COP29-un gələn il Azərbaycanda keçirilməsinə dair qərar qəbul edilməsi ölkəmizə qarşı olan böyük hörmətin və etimadın göstəricisidir. Bu bir daha sübut edir ki, Prezident İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu günbəgün artır. Azərbaycanın müstəqil siyasət yürütməsi, beynəlxalq hüququn norma və prinsiplərinə daim hörmətlə yanaşması, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi bizə olan etimadı artırıb. Prezident İlham Əliyev COP29-la bağlı keçirilən müşavirədə son dövrlər Azərbaycanın qlobal nüfuzunun daha da artdığını, ölkəmizin ən mötəbər tədbirlərə uğurlu evsahibliyi etdiyini vurğulayıb.

Deputat qeyd edib ki, COP29-a Bakının evsahibliyi etməsinin böyük siyasi əhəmiyyəti var: "Qarabağda antiterror tədbirlərinin həyata keçirilməsindən qısa müddət sonra belə mötəbər tədbirin Bakıda keçirilməsi barədə qərar qəbul edilməsi dünya dövlətlərinin Azərbaycana dəstəyinin bariz nümunəsidir. Beynəlxalq ictimaiyyət Azərbaycanın qələbəsini qəbul edir, haqlı mövqeyini dəstəkləyir. Hətta Ermənistan da bu reallığı qəbul edərək COP29 konfransının Azərbaycanda keçirilməsinin lehinə səs verib".

Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə əsasən öz ərazisində antiterror tədbirləri keçirməklə separatizmin kökünü kəsməsinin hələ də bəzi Qərb dövlətlərini, xüsusən də Fransanı ciddi narahat etdiyini vurğulayan deputat əlavə edib: "Fransa ölkəmizə qarşı qərəzli bəyanatlar yayır, çirkin əməllərindən əl çəkmir. Bu gün Qərbdəki bəzi dövlətlər Azərbaycana qarşı "ikili standart" siyasəti həyata keçirirlər. Amma çirkin niyyətlərinə çata bilmirlər. Prezident İlham Əliyevin apardığı uğurlu siyasətin nəticəsidir ki, Azərbaycan Qoşulmama Hərəkatına artıq 4 ildir sədrlik edir. Qoşulmama Hərəkatına sədrliklə bağlı Azərbaycanı yekdilliklə dəstəkləyən dövlətlərin haqq işinə ölkəmiz yardımını əsirgəmir".

Kamilə Əliyeva onu da bildirib ki, Azərbaycan irimiqyaslı və nüfuzlu beynəlxalq tədbirləri hər zaman yüksək səviyyədə təşkil edib. Təsadüfi deyil ki, belə qlobal tədbirlərdə iştirak edən nümayəndələr Azərbaycanın təşkilatçılığını həmişə yüksək qiymətləndiriblər. Ona görə COP29 konfransının da ən yaxşı şəkildə təşkil olunacağına, ölkəmizə gələcək on minlərlə qonağın məmnun qalacağına şübhə yoxdur. Gələn il bütün dünyanın gözü Azərbaycanda olacaq.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# *BMT Baş katibinin sözçüsü:* "Biz Azərbaycanın COP29-a sədrliyini səbirsizliklə gözləyirik"



Azərbaycanın Birləşmiş Millətlər Təşkilatı (BMT) Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat - 120 dövlətin üzv olduğu, digər 17 ölkənin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda çıxış etdiyi Qoşulmama Hərəkatına ("Non-Aligned Movement - NAM") sədrliyi 2023-cü ilin sonunda başa çatır. Belə ki, 2019-cu ildə Qoşulmama Hərəkatı (QH) ölkələrinin yekdil qərarı ilə Hərəkata sədrliyi başlayan Azərbaycan qısa zaman ərzində beynəlxalq münasibətlərdə mühüm aktorlardan birinə çevrilib və bununla da əldə edilən uğurlar bütün üzv dövlətlər tərəfindən təqdir edilib. Azərbaycanın Hərəkata 3 il müddətinə nəzərdə tutulan sədrliyi yekdilliklə əlavə 1 il müddətinə - 2023-cü ilə qədər artırılmışdı.

BMT Baş katibinin sözçüsü Stefan Dujarrik Azərbaycanın sədrliyi dövründə gördüyü işlər, irəli sürdüyü təşəbbüslər və eyni zamanda Azərbaycanın BMT ilə birgə fəaliyyətləri barədə "Report"un ABŞ bürosunun suallarını cavablandırıb.

*- Hörmətli Stefan Dujarrik, bildiyiniz kimi, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyə bütün üzv dövlətlər üçün kritik bir dövrdə başladı və artıq dördillik liderlik yekunlaşmaq üzrədir. Sədrlik dövründə Azərbaycanın pandemiya ilə mübarizədəki rolunu necə qiymətləndirirsiniz?*

- İlk növbədə, mənə Azərbaycan xalqı ilə ünsiyyət imkanı yaratdığınız üçün sizə təşəkkür etmək istəyirəm. Həmçinin burada BMT-nin əsas qərargahında hər gün baş verənləri işıqlandırdığınız üçün sizə xüsusi təşəkkür edirəm. Hesab edirəm ki, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini alqışlamaq vacibdir. Qeyd etdiyiniz kimi, COVID-19 pandemiyası zamanı çox çətin bir dövr idi və Azərbaycan Qoşulmama Hərəkatı sədrliyi dövründə COVID-lə mübarizədə aparıcı rol oynadı.

Hazırda oturduğumuz bu məkandan bir neçə metr uzaqlıqda olan BMT Baş Assambleyasının nəhəng salonunda Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən çağırılan COVID-19-la bağlı xüsusi sessiya həqiqətən də pandemiya ilə mübarizədə qlobal həmrəyliyin möhkəmlənməsinə kömək etdi. Bu dövr ərzində öyrəndiyimiz ən önəmli məsələlərdən biri Şimal və Cənub, Şərq və Qərb arasında kifayət qədər həmrəyliyin olmaması idi. Düşünürəm ki, NAM həm üzvlüyü, həm də ideologiyası və inancları ilə, həqiqətən də, qlobal həmrəyliyin ola biləcəyini göstərdi və biz Azərbaycanın həm özünün, həm də maliyyə baxımından COVID-lə mübarizəyə nə qədər töhfə verdiyini bilirik.

*- Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatının gələcək institusional inkişafı üçün də mühüm addımlar atılıb. Belə ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin, Gənclər Təşkilatının və Qadınlar Platformasının yaradılması kimi təşəbbüslər Azərbaycanın fəaliyyətidir. BMT Baş katibi Azərbaycanın bu uğurlarını necə qiymətləndirir?*

- Qoşulmama Hərəkatına sədrliyi ərzində Azərbaycanın bütün qlobal çağırışları və təşəbbüsləri alqışa layiqdir. Baş katib üçün bu, Qoşulmama Hərəkatı və Birləşmiş Millətlər Təşkilatı arasında ortaq idealların simvolizmidir. Bütün bunlar multikulturalizmlə bağlı ideallar və təşəbbüslərdir ki, heç bir ölkə təkbaşına mövcud olan bütün qlobal problemlərlə mübarizə apara bilməz. Biz sadəcə qlobal həmrəylik, birlik, inam, çoxtərəfli qarşılıqlı münasibətlər sayəsində bu dünyada güclü ola bilərik. Qoşulmama Hərəkatı (QH) dünyada multikulturalizm nümunəsi kimi qəbul edilir və bu yanaşma QH tarixində çox mühüm rol oynayır. Soyuq müharibələr boyu həmişə belə olmuşdur və bu gün də son dərəcə etibarlılığını davam etdirir. Azərbaycan QH-yə sədrliyi ərzində bu missiyanı uğurla davam etdirdi.

*- Qadınların hüquqlarının müdafiəsi və onların səlahiyyətlərinin artırılması QH-nin gündəmində mühüm yer tutur və bu, qadın hüquqlarının qorunmasında mühüm rol oynayır. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bu baxımdan verdiyi töhfələrin əhəmiyyəti barədə nələr demək istərdiniz?*

- Qoşulmama Hərəkatı qadınların hüquqlarının müdafiəsi sahəsində vacib rol oynayır. Bu ilin noyabr ayında Bakıda QH-nin "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda keçirilən beynəlxalq konfransda BMT-nin ölkə ofisi Azərbaycanın bütün səylərini yüksək səviyyədə dəstəkləyərək gender bərabərliyinin təşviqi, qadınların cəmiyyətdə rolu və qadınların hüquqlarının müdafiəsinə marağı nümayiş etdirdi. Biz elə bir dövrdə yaşayırıq ki, xüsusilə COVID-19 zamanı qadınlarla bağlı olan bir çox Dayanıqlı İnkişaf Məqsədlərinin azaldığını gördük.

Çox vaxt evlərdə və cəmiyyətlərdə böhranlı vəziyyətlər yarandıqda əmək fəaliyyətində olan qadınlar işlərini dayandırmalı olurlar. Böhranlı şəraitlər zamanı qızlar çox vaxt məktəbə göndərilmir. Ona görə də mən hesab edirəm ki, indiki zamanda dünyanın bir çox yerində qadınların hamının yararlanmalı olduğu insan hüquqlarından məhrum edildiklərini xatırlatmaq vacibdir. Ona görə də QH-nin bunu diqqətdə saxlaması və bu istiqamətdə səylərini davam etdirməsi vacibdir.

*- Bundan əlavə, Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün böyük səylər göstərən ən zəhmətkeş ölkələr sırasındadır. Bunun tərkib hissəsi olaraq Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Qarabağda çoxlu infrastruktur, "yaşıl enerji" və s. layihələri həyata keçirilir. Baş katib Azərbaycanın DİM töhfələrini necə dəyərləndirir?*

- Azərbaycan, həqiqətən də, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində lider ölkədir. Azərbaycan DİM Sammiti öncəsində öz Könüllü Milli Planını təqdim edən ilk 32 ölkədən biri idi. Azərbaycan xüsusilə bu il yerli layihələrə xeyli sərmayə qoydu. Yenidən vurğulamaq yerinə düşər ki, əslində, bu, BMT-nin ölkə ofisinin Azərbaycandakı Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsini görmək üçün hökumətlə əməkdaşlıqda necə işləyə biləcəyinin bariz nümunəsi oldu.

*- Hazırda Azərbaycan əsrin ən böyük mina problemi ilə üzləşib. Təəssüflər olsun ki, Ermənistanın Azərbaycan torpaqlarında 30 illik işğal zamanı "miras" buraxdığı minaların partlaması nəticəsində, demək olar ki, hər gün həmin ərazilərdə bir çox mülki vətəndaş, o cümlədən hərbçilər həyatlarını itirirlər. Hətta bizim iki jurnalist həmkarımız Qarabağda öz vəzifə borclarını yerinə yetirərkən mina partlayışı zamanı həlak olublar. Ermənistan tərəfi Azərbaycanın işğaldan azad edilmiş rayonlarında basdırdıqları minaların xəritələrini paylaşmaqdan imtina edir və rəsmi açıqlamalara görə, Qarabağın minalardan tam təmizlənməsi üçün ən azı 10 il lazımdır. BMT niyə bu hərbi cinayəti pisləyən rəsmi açıqlama vermir?*

- Öncə mən BMT-nin Baş katibi Antoniu Quterreşin sözçüsü olaraq onun adından sizə və jurnalist həmkarlarınızın ailələrinə başsağlığı verirəm və xalqınızın kədərinə şərikik. Bu, əslində, jurnalistlərin dünyada necə çətin və təhlükəli bir işlə məşğul olduqlarının göstəricisidir. Şəxsən mən keçmiş bir jurnalist kimi 10 illik təcrübəmlə jurnalistlərin orada baş verənləri göstərmək üçün hansı riskləri göz önünə aldıqlarını bilirəm. Bilirsiniz, müharibələrdən sonra qalan minalar həqiqətən bu gün sahib olduğumuz ən məkrli və qəddar silahlardan biridir. Çünki onların tamamilə təmizlənməsi üçün bizə onilliklər lazımdır.

Biz dünyanın harasında olmasından asılı olmayaraq, həmişə minalara qarşı çıxış etmişik. Beləliklə, dünyanın hər yerində minalardan əziyyət çəkən üzv dövlətlərlə işləmək və minatəmizləmə səylərinə kömək etmək üçün BMT-nin Mina Fəaliyyəti Xidməti (UNMAS) aktiv şəkildə fəaliyyət göstərir. Mən bilirəm ki, BMT Mina Fəaliyyəti Xidməti vasitəsilə Azərbaycan hökumətinin minatəmizləmə fəaliyyətlərini uzun müddətdir dəstəkləyir və biz bunu bu və ya digər şəkildə bacardığımız qədər davam etdirəcəyik, çünki biz bu çox təhlükəli və məkrli silahdan qurtulmalıyıq. Sizin də söylədiyiniz kimi, ərazilərin minalardan təmizlənilməsi 5-10 ildən çox vaxt aparacaq. Biz bilmirik nə vaxt uşaqlar həmin yerlərdə oyun oynaya biləcək, fermerlər həmin torpaqlarda kənd təsərrüfatı işləri aparacaq. Bilirisiniz ki, BMT yaxın zamanda Qarabağ bölgəsinə xüsusi missiya göndərdi və oradakı vəziyyət həmin komanda vasitəsilə sənədləşdirildi. Əminəm ki, artıq bölgədəki vəziyyət bir qədər fərqlidir və yerdəki vəziyyətə yanaşma dəyişib. Əminəm ki, bundan sonra da bölgədə yaşayan insanların xeyrinə əlimizdən gələn köməyi edəcəyik.

*- BMT Baş katibi postunu tutan şəxslər bir çox münaqişə bölgəsində (Ukrayna, Əfqanıstan, Qəzza, Suriya, Sudan və s.) baş verənləri dərhal qınayaraq üzv dövlətlərə çağırışlar etsələr də, keçmiş Ermənistan-Azərbaycan münaqişəsində və postmünaqişə dövründə əsasən susmaqla kifayətləndilər. Onlar tez-tez digər münaqişəli bölgələri ziyarət edib vəziyyəti yerində öyrənməyə çalışsalar da, bunu 30 illik işğal altında qalan Qarabağa şamil edə bilmirik. Bu yanaşmanın səbəbi nə ola bilər?*

- Məncə, Baş katib onun orada olmasının vəziyyəti müsbət yöndə dəyişəcəyinə, faydalı olacağına inandığı münaqişəli bölgələrə səyahət edir və başqa sözlə, öz varlığını hiss etdiyi yerlərə gedir. Düşünürəm ki, başqa cür desək, Baş katibin ən mühüm vizyonlarından biri onun regional təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən multikulturalizm adlandırdığı şeydir. BMT bir çox halda regional təşkilatlar çərçivəsində (Məsələn, Venesuelada bu "Karib Hövzəsi ölkələri İcması və Ümumi Bazar (CARİCOM)", Sudanda İnkişaf üzrə Hökumətlərarası Aparat) hərəkət edir və sülhə dəstək verir. BMT-nin hər yerdə sülh və təhlükəsizliklə bağlı məsələlərin həllində lider olmasına ehtiyac yoxdur.

Beləliklə, biz bilirik ki, Azərbaycan və Ermənistan arasında olan məsələlərin həllində artıq başqa dövlətlər münaqişənin sülh yolu ilə həllini tapmasına çalışır və bu danışıqlara liderlik edirdilər. Yəni Baş katib sırf işə qarışmaq üçün prosesdə iştirak etmək və bəlkə də məsələləri çətinləşdirməmək xatirinə özünü bu işə cəlb etmək istəmir. Lakin biz həmişə mövcud olan çərçivəni dəstəkləmişik və bundan sonra da dəstəyimiz davam edəcək.

*- Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin perspektivlərini necə görürsünüz? Baş katib prosesi necə təşviq edə bilər?*

- Siz bu məsələdə məndən daha çox məlumatlısınız və son vaxtlar hər iki ölkə arasında münasibətlərin müsbət yöndə inkişafına dair hərəkətliliyi görürsünüz. Mənə elə gəlir ki, bu, son bir neçə həftə ərzində çox mühüm addımlar atıldı. Baş katib bununla bağlı bəyanat yayımladı və normallaşma prosesini alqışladı. Biz bundan sonra da Ermənistan və Azərbaycan normallaşma yolunda irəlilədikcə sülh quruculuğunu müşayiət etməyə çalışacağıq.

*- Bildiyiniz kimi, 2024-cü ildə Bakı BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) evsahibliyi edəcək. İqlim dəyişikliyi ilə mübarizədə Azərbaycanın rolunu necə qiymətləndirirsiniz? BMT Baş katibinin Azərbaycana səfəri nəzərdə tutulubmu və Azərbaycanda olduğu zaman onun işğaldan azad olunmuş bölgələrə səfəri ola bilərmi?*

- Son bir neçə həftə ərzində növbəti COP29-un harada keçiriləcəyi ilə bağlı çoxlu narahatlıq və gərginliklər vardı. Hesab edirəm ki, COP29-un Azərbaycanda keçirilməsi əlamətdar hadisədir və çox böyük əhəmiyyət kəsb edir. Bunun BMT üçün də çox böyük əhəmiyyəti var. Bir faktı xüsusilə qeyd etmək istərdim ki, biz ötən həftələrdə Azərbaycanın Ermənistanla razılaşma əldə etməsini, əsirlərin mübadiləsinin şahidi olduq ki, bu da müəyyən mənada münasibətlərin normallaşması və gərginliyin azalmasına gətirib çıxardı və eyni zamanda Azərbaycanın səriştəli və aydın bir ölkə kimi COP29-a evsahibliyi etmək üçün rəsmi namizəd olmasına imkan verdi.

Həmçinin biz Ermənistanın COP29-un evsahibliyinə namizədlikdə Azərbaycanı dəstəklədiyini gördük. Beləliklə, bu, gərginliyin azalmasının əlamətidir. Bu gün dünyanın bir çox yerində münaqişələr davam edir, yeni münaqişələrin alovlandığı (Sudan, Qayana və Venesuela) və çox çətin vəziyyətlərin olduğu bir dünyada yaşayırıq. Düşünürəm ki, ölkələr, nəhayət, münaqişələrin, gərginliklərin və problemlərin həllində yeganə yolun silahlarla deyil, dialoq yolu ilə olduğunu başa düşə biləcəklərini göstərə bilərlər.

Biz növbəti COP29 üçün önümüzdə sülhün və aydınlığın olduğunu görməkdən çox şadıq. Bildiyiniz kimi, iqlim dəyişikliyi hamımızın üzləşdiyi əsas qlobal problemdir və Qafqaz və Mərkəzi Asiya ölkələri də iqlim dəyişikliyindən əziyyət çəkib və əziyyət çəkməkdə davam edir. Ona görə də biz Azərbaycanın COP29-a sədrliyini çox səbirsizliklə gözləyirik. İqlim dəyişikliyi ilə mübarizə Baş katibin həqiqətən ürəyini ortaya qoyaraq davam etdirdiyi mübarizədir və düşünürəm ki, heç bir dünya lideri bu məsələdə onun qədər daha açıq və tutarlı olmayıb. Baş katib bu mübarizəni davam etdirəcək və o, növbəti dəfə Azərbaycan Prezidenti ilə əməkdaşlığı səbirsizliklə gözləyir. Bəli, heç şübhəsiz ki, Baş katib COP29-da Azərbaycanda olacaq və ümid edirəm ki, mən də onunla gedəcəm və Azərbaycanı görəcəm (gülür). Mən bunu səbirsizliklə gözləyirəm.

*- Azərbaycanın paytaxtı Bakıda həmçinin 2026-cı ildə Ümumdünya Şəhər Forumunun (WUF13) 13-cü sessiyası da keçiriləcək. Urbanizasiya sahəsində Azərbaycanla əməkdaşlığı necə qiymətləndirirsiniz? BMT-yə üzv ölkələr işğaldan azad edilmiş ərazilərin bərpasında Azərbaycana dəstək verməyə hazırdırmı?*

- BMT Azərbaycan hökuməti ilə yaxından işləyir və mövcud olan razılaşdırılmış çərçivələr vasitəsilə onlara hər cür dəstək verir. Biz oradayıq, BMT-nin ölkə ofisi Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq, xalqa və ölkə hökumətinə dəstək olmaqda davam edəcək.



# MÖHTƏŞƏM 20 İL

2003
2023




# Davamlı inkişaf ölkəmizin gücünü artırır

**20 il öncə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Prezident seçilən İlham Əliyev mətbuata ilk müsahibəsində müstəqilliyimizin qarantı, xalqımızın xilaskarı Ulu Öndər Heydər Əliyev siyasətinin davamçısı olacağına, Azərbaycanı daha da gücləndirəcəyinə, hərtərəfli inkişaf etdirəcəyinə, xalqın etimadını doğruldacağına söz vermişdi.**

20 ildəki reallıqlar göz qabağındadır. Qazanılan uğurlar, Azərbaycanın regionda lider dövlət kimi tanınması, Zəfər qələbəsi verilən vədlərin bariz nümunəsidir.

Azərbaycanın sürətli inkişafı, beynəlxalq müstəvidə nüfuzunun artması, ölkə daxilində sosial-iqtisadi və iri layihələrin həyata keçirilməsi, ən başlıcası 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsindəki tarixi Zəfər ictimaiyyətdə xüsusi ovqat yaradıb və Prezidentə olan inamı daha da artırıb. Dövlət başçısının qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti, xalqımızın Prezidentin ətrafında sıx birləşməsi sayəsində daşnak şovinistlərin 200 ildən artıq davam edən ərazi iddialarına son qoyulub. Ali Baş Komandana rəğbət və etimadın gücü ilə Azərbaycanın ərazi bütövlüyü təmin olunub.

Ölkədə bazar iqtisadiyyatı və özəl sektorun formalaşmasını, sosial məsələlərin həllini, ordu quruculuğunu, qaçqın və məcburi köçkünlərin həyat səviyyəsinin yaxşılaşdırılmasını təmin edən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafına nail olmuş, bütün sahələrdə geniş miqyasda islahatlar keçirmişdir. Texnoloji inkişafa böyük önəm verilmiş, qlobal enerji və nəqliyyat layihələri icra edilmiş, ən nəhayət, respublikamız qüdrətli ölkə kimi dünyanın enerji və nəqliyyat mərkəzinə çevrilmişdir. 2017-ci ildə "Yeni əsrin müqaviləsi" imzalanmış, 2018-ci ilin mayında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuş, həmin ilin iyun ayında TANAP istifadəyə verilmişdir. 2020-ci il dekabrın 31-də isə "Cənub qaz dəhlizi"nin digər seqmenti olan TAP işə düşmüşdür. 2021-ci ildə işğaldan azad edilmiş Füzulidə yeni beynəlxalq hava limanı açılmış, Qarabağ və Şərqi Zəngəzurda dünya standartlarına uyğun magistrallar salınmışdır. 2022-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə çoxsaylı iqtisadi layihələr reallaşmışdır. Həyata keçirilən bu layihələr nəticəsində ölkəmizin iqtisadiyyatı daha da inkişaf etmiş, əhalinin rifahı yaxşılaşmışdır. Eyni zamanda Qarabağ müharibəsi iştirakçılarına, əlillərə, habelə onların ailə üzvlərinə lazımi maddi dəstək göstərilmişdir.

Azərbaycan təşəbbüsləri gerçəkliyə çevirməklə regional inkişafın aparıcı qüvvəsinə və dünyanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmişdir. Prezidentimizin dediyi kimi, "Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var".

Azərbaycandan Avropaya yeni "yaşıl enerji" dəhlizi də açılacaq. Azərbaycan ötən ilin sonlarında Rumıniyada daha bir tarixi uğura imza atdı. Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilk növbədə Azərbaycanın iqtisadi qüdrətinin təntənəsi idi.

Prezident İlham Əliyev bu tarixi hadisəni dəyərləndirərkən demişdir: "Yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında imzalanan sazişin icrası Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verəcəyi ümumi töhfə olacaq. Bu saziş "yaşıl enerji" dəhlizinin yaradılması istiqamətində atılan mühüm addımdır". Artıq Azərbaycan İlham Əliyevin uzaqgörən enerji siyasəti sayəsində Avropanın etibarlı təchizatçılarından birinə çevrilməkdədir.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatında rol oynaması ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Məhz buna görədir ki, dünyanın ən qüdrətli dövlətləri belə enerji sahəsində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməklə yanaşı, bundan, sözün əsl mənasında, qürur hissi keçirdiklərini də açıqlayırlar.

Sosial rifahın ana xətti sabitlikdir. Azərbaycanda isə sabitliyin təminatçısı iqtidar-xalq birliyidir. "Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda dinlərarası münasibətlər də bizim gücümüzü artırır" söyləyən Prezident İlham Əliyev qətiyyətli dövlət başçısı kimi verdiyi vədlərə sadiq, siyasi iradəyə malik lider olduğunu təsdiqləmişdir.

Bütün bunları Sosial Tədqiqatlar Mərkəzinin "Prezidentin fəaliyyəti ictimai rəydə" sorğusunun nəticələrindən də aydın görmək olur. Dövlət başçısının müxtəlif istiqamətlərdəki fəaliyyəti respondentlər tərəfindən yüksək qiymətləndirilir. Sorğuya görə, Azərbaycanın Ermənistan üzərində qələbəsi ilə başa çatan Vətən müharibəsindən sonrakı dövrdə ölkəmizin siyasi-iqtisadi gücünün 70 faizə yaxın artacağı və regionda mövqeyinin 50 faizdən çox güclənəcəyi mümkündür. Əhalinin 82 faizdən çoxu postmüharibə dövrü üçün böyük qayıdış planlarını və verilən qərarları müsbət qiymətləndirir.

Prezident İlham Əliyevin bu il dekabrın 6-da keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda demişdir: "Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər, çünki onlar 30 il ərzində çətin şəraitdə yaşayıblar..." Cari ildə doğma ata-baba yurdlarına qayıdan Füzulidən, Zəngilanın Ağalı, Tərtərin Talış kəndlərindən, Laçın şəhərindən və rayonun Zabux kəndindən olan məcburi köçkünlər deyilənlərdən də yaxşı şəraitlə təmin olunduqlarını söyləyirlər. Elə ay, elə həftə olmur ki, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Bakı şəhərinin Qaradağ rayonundan yola salınan, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış insanların doğma yurd, el-oba həsrətinə son qoyulmasın.

Ötən üç il ərzində işğaldan azad edilmiş bütün ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkə üçün nümunə olan yeni mərhələyə qədəm qoyaraq rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı inkişaf aktivliyinin təmin olunmasına xidmət edən layihələrin icrası davam etdirilir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri, veteranları və iştirakçılarının mənzil-məişət şəraitinin yaxşılaşdırılması, həmin ailələr üçün aylıq təqaüdün miqdarının artırılması, sosial problemlərinin həll edilməsi, müharibədə yaralananların müalicə üçün xarici ölkələrə göndərilməsi, əlillik dərəcələrinin təyin edilməsi və vaxtında müəyyən olunması, milli dəyər və ənənələrimizə sadiqlik cəmiyyətdə məmnunluq yaratmışdır. İlham Əliyev ölkəmizdən kənarda yaşayan azərbaycanlıların da hamisidir.

Bütün bunlar onu deməyə əsas verir ki, reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi, işgüzarlığı, səmimiliyi, xalqına, millətinə, Vətəninə sevgisi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi Prezident İlham Əliyevə xalqın rəğbət hissini artıran ən mühüm mənəvi keyfiyyətlərdir. Cənab İlham Əliyevin yüksək intellekti, istedadı, şəxsiyyəti, dövlətçilik məharəti ümumi vəhdət təşkil edir. Dövlət başçısı həm də müasir dünyanın qloballaşma və yeni geosiyasi reallıqlardan irəli gələn siyasi mənzərəsini anlayan və fəaliyyətini milli mənafeyə uyğun quran siyasi liderdir.

Prezident İlham Əliyevin yaratdığı qüdrətli Azərbaycanın hər bir vətəndaşı yaxşı bilir ki, ölkəmizin ərazi bütövlüyünün tam bərpası, suverenliyimizin təmin edilməsi bizi istəməyən qüvvələri ciddi narahat etməkdədir. Onlar hər vəchlə çalışırlar ki, Azərbaycana, xüsusən də prezident seçkiləri ərəfəsində hansısa formada təzyiq etsinlər, ara qarışdırsınlar və regionda yaranmış sülh şəraitini pozsunlar. Amma nə uzaqgörən siyasəti ilə doğru qərarlar qəbul edən İlham Əliyev, nə də Vətən müharibəsində bu ölkəyə Zəfər qələbəsini yaşadan Prezidentini ürəkdən sevən xalqımız imkan verməz ki, yaranmış yeni reallıqlara kimsə müdaxilə etsin. Bu reallığın, ümummilli etimadın nəticəsini 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində tərəqqipərvər bəşəriyyət görəcək və biləcək ki, xalqımızın rəyi də, mövqeyi də, seçimi də dəyişməzdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*



# İslam maarifçiliyinə daha bir töhfə

## Azərbaycan İlahiyyat İnstitutu yanında Bakı İlahiyyat Kollecinin yaradılması dini təhsilin keyfiyyətini yüksəldəcək

Tarixən Azərbaycan müxtəlif dillərə, millətlərə, dinlərə məxsus insanların qarşılıqlı anlaşma, mehribanlıq şəraitində birgə yaşadığı ünvan olub. Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmiz hazırda da dünyada multikulturalizmin, tolerantlığın unikal məkanı kimi tanınır. Dövlətimiz tərəfindən islamla yanaşı, bütün dinlərə məxsus abidələr də qorunur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dövrdən etibarən ölkəmizdə dövlət-din münasibətləri yeni müstəviyə qədəm qoyub. Hər zaman azərbaycanlı, müsəlman olması ilə fəxr edən Ümummilli Lider Heydər Əliyev xüsusi vurğulayırdı ki, müasirlik və dini-mənəvi dəyərlər bir-biri ilə sıx bağlanmalıdır və bu dəyərlərdən biz müasir həyatımızın daha da genişlənməsi və inkişafı üçün istifadə etməliyik.

Ulu Öndər siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev xalqımızın milli dəyərlərinə böyük diqqət və qayğı göstərir, inkişafı üçün mühüm sərəncamlar verir. Dövlətimiz tərəfindən mütəmadi olaraq ölkəmizdəki məscidlərin, kilsələrin, sinaqoqların və digər ibadət evlərinin təmir-bərpa işləri həyata keçirilərək insanların istifadəsinə verilir. O cümlədən işğaldan azad edilən ərazilərdə məscidlər, alban irsinə məxsus kilsələr uğurla bərpa edilir.

Xüsusi vurğulayaq ki, ötən illərdə Prezident İlham Əliyevin din sahəsində apardığı mütərəqqi siyasət sayəsində Azərbaycanda mövhumatdan, xurafatdan uzaq tədris sistemi də qurulub.

Xatırladaq ki, 2018-ci ildə Prezidentin sərəncamı ilə yüksək dini, dünyəvi biliklərə, intellektual səviyyəyə malik din xadimlərinin, mütəxəssislərin yetişdirilməsi üçün Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) yaradılıb.

2023-cü ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə Aİİ yanında Bakı İlahiyyat Kollecinin (BİK) yaradılması da dövlətimizin islam maarifçiliyinə xüsusi diqqətinin təzahürüdür.

### Bu kollecdə həm dünyəvi, həm də dini fənlər tədris olunacaq

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı dini təhsil verəcək yeni kollecin yaradılmasının məqsədlərinə aydınlıq gətirərək söyləyib ki, Azərbaycanda dövlət ali təhsil müəssisəsi olsa da, orta ixtisas dini təhsili müəssisəsi fəaliyyət göstərmirdi deyə, dini təhsil ancaq ali təhsil pilləsində mövcud idi. Artıq Azərbaycanda dini təhsilin həm orta ixtisas, həm də ali təhsil pilləsi dövlət müəssisəsi tərəfindən həyata keçiriləcək.

Mübariz Qurbanlının sözlərinə görə, bəzi vəzifələr var ki, onların daşıyıcılarının dini orta ixtisas təhsili alması yetərlidir: "Məsələn, dini ayinlərin icraçısı, müəzzin kimi vəzifələri tutmaq üçün dini orta ixtisas təhsilin olması kifayətdir. Deməli, Bakı İlahiyyat Kollecinin məzunları gələcəkdə müəzzin, dini ayinlərin icraçıları olacaqlar. Bu məzunlardan kimsə imam olmaq istəsə, təbii ki, ali təhsil almaq üçün Azərbaycan İlahiyyat İnstitutuna müraciət edəcək".

Bakı İlahiyyat Kollecində həm dünyəvi, həm də dini fənlərin tədris olunacağını bildirən komitə sədri vurğulayıb ki, burada hər hansısa məzhəbə əsaslanan dini təhsil verilməyəcək.

"Təcrübə onu göstərir ki, ölkəmizdən kənarda dini təhsil alan şəxslərin böyük bir qismi məhz xaricdəki dini qrupların təsir dairəsinə düşüb. Təbii ki, bu fikri xaricdə dini təhsil almış hər kəsə aid etmək olmaz" deyən Mübariz Qurbanlı onu da bildirib ki, əsas məqsədlərdən biri Azərbaycanda dini təhsilin bütün pillələrini yaratmaq və onun keyfiyyətini qaldırmaqdır. Eyni zamanda dini təhsilin bütün pillələrini ödənişsiz həyata keçirməkdir.

### Din sahəsində daha savadlı kadrlar hazırlanacaq

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov "Azərbaycan" qəzetinə açıqlamasında söylədi ki, Prezident İlham Əliyevin 9 fevral 2018-ci il sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılmışdır. İnstitutun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdən ibarətdir.

Aqil Şirinov qeyd etdi ki, Aİİ yanında Bakı İlahiyyat Kollecinin yaradılması isə Azərbaycan dövlətinin keyfiyyətli dini təhsilə verdiyi əhəmiyyətin göstəricisidir. Kollec ilk növbədə Aİİ üçün baza olacaq: "Öz ölkəmizdə dini təhsil almaq üçün hər şərait mövcuddur. İnstitutda ali dini təhsil elmi əsaslarla həyata keçirilir. Kollecin yaranması ilə bu tədris orta ixtisas səviyyəsində həyata keçiriləcək, tədrisdə ardıcıllıq təmin olunacaqdır. Kolleci bitirənlər dünyəvi fənlərlə yanaşı, dini biliklərə də yiyələnəcəklər və bunun Aİİ-yə dini elmlər sahəsində daha savadlı abituriyentlərin qəbuluna gətirib çıxaracağını düşünürəm".

Rektor söylədi ki, gələcəkdə kollecdə təhsil alanların qida və yataqxana ehtiyaclarının qarşılanması nəzərdə tutulur. Bu da dini sahədə təhsil almaq istəyənlərin başqa ölkələrə yönəlməsinin qarşısını alacaqdır. Kollecdə verilən təhsil institut təhsili ilə tamamlanacaq, bununla da ölkəmiz üçün dini sahədə daha savadlı kadrların hazırlanması təmin ediləcəkdir. Kolleci bitirənlər məscidlərdə də çalışa biləcəklər.

Bakı İlahiyyat Kollecinə qəbulun Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən həyata keçiriləcəyi barədə məlumat verən Aqil Şirinov kollecə qəbulun hansı formada təşkil olunacağının isə DİM tərəfindən müəyyənləşdiriləcəyini bildirdi. Eyni zamanda Aİİ-yə kollecdən qəbulun forması da adıçəkilən qurum tərəfindən elan olunacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Heydər Əliyev İli 2023

## Bakı Şəhər İcra Hakimiyyətində "Heydər Əliyev" kitabının təqdimatı keçirilib






Bakı Şəhər İcra Hakimiyyətində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr edilən tədbirlər çərçivəsində Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun yeni layihəsi - Ulu Öndərin həyat və ictimai-siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən elmi məqalələr toplusu olan "Heydər Əliyev" kitabının təqdimatı keçirilib.

Tədbirdə tanınmış tarixçilər, tədqiqatçı-alimlər, elm və mədəniyyət xadimləri, millət vəkilləri, dövlət qurumlarının və ölkə ictimaiyyətinin, KİV-in nümayəndələri, Vətən müharibəsi veteranları və qazilər, din xadimləri iştirak ediblər.

Tədbirin əvvəlində Ulu Öndər Heydər Əliyevin və vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş soydaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub və kitabla bağlı videoçarx nümayiş etdirilib.

Təqdimat mərasimində çıxış edənlər Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilən iki fəsildən ibarət akademik xarakterli bu kitab Bakı Şəhər İcra Hakimiyyəti və Tarix İnstitutunun yeni layihəsidir. Eldar Əzizov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsinin və dövlət başçısı İlham Əliyevin siyasətinin yaxından öyrənilməsi və təbliği Azərbaycanda sabitliyin qorunmasına və ölkəmizin gələcək inkişafına təminat verir.

Təqdimat mərasimində çıxış edənlər Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən söz açaraq vətənini hədsiz dərəcədə sevən bu dahi insanın ölkəmizin tarixinə, xalqımıza son dərəcə böyük sevgi və hörmətlə yanaşmasından danışıb və bu kitabın Ulu Öndərin zəngin irsinin öyrənilməsi və təbliği işində mühüm rol oynayacağını vurğulayıblar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Meksikanın tanınmış jurnalı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı geniş material dərc edib




Meksikanın dövlət və hökumət qurumları, parlament, akademik çevrələr və ölkədə akkreditə olunmuş diplomatik korpus üzvləri arasında geniş yayılan "Mundo Internacional" jurnalında "Hər bir xalqın lideri ona layiq olur" başlıqlı iri həcmli yazı dərc olunub.

Ölkəmizin Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, məqalədə Heydər Əliyevin Azərbaycan xalqı üçün milli qürur mənbəyi olduğu, görkəmli siyasətçi və dövlət xadiminin adının ölkə tarixinə qızıl hərflərlə yazıldığı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edildiyi qeyd olunur.

Yazıda Ümummilli Liderin keçdiyi şərəfli həyat yoluna qısa nəzər salınır, onun Sovet İttifaqı dövründə və müstəqillik illərində Azərbaycanın dövlətçiliyi və xalqın tərəqqisi istiqamətindəki müstəsna xidmətləri haqda məlumat verilir, məhz Ulu Öndərin Azərbaycanı xaos və dərin böhrandan çıxardığı, xalqımızın taleyində misilsiz xilaskar missiyasını şərəflə yerinə yetirdiyi bildirilir.

Həmçinin 1990-cı ilin yanvar ayının 20-də paytaxt Bakı sakinlərinin üzərinə qoşun göndərilərək çoxlu sayda mülki azərbaycanlının qətlə yetirilməsindən sonra Ümummilli Lider Heydər Əliyevin bu cinayəti kəskin şəkildə pisləyən, xalqımıza qarşı törədilmiş qırğına siyasi qiymət verilməsi və günahkarların cəzalandırılmasını tələb edən ilk dövlət xadimi olduğu vurğulanır.

Müəllif qonşu Ermənistan tərəfindən təcavüzə məruz qalmış və SSRİ-nin süqutu ilə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası üçün ağır sınaq dövründə Ulu Öndər Heydər Əliyevin xalqın israrlı çağırışı ilə hakimiyyətə qayıtdığını və bu qayıdışla ölkədə sabitliyin təmin olunması, həmrəyliyin möhkəmləndirilməsi, inkişaf üçün ilkin şərtlərin təmin olunması istiqamətində çox təsirli addımların atıldığını qeyd edir.

Qeyd olunur ki, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü və daxili çəkişmələrlə əlaqədar dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşdığı bir vaxtda Heydər Əliyev ölkədə müşahidə olunan dərin tənəzzülün qarşısını alıb, dövlətin dayanıqlı inkişaf yolunu müəyyən edib.

Yazıda Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanılmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində əvəzsiz rolundan bəhs edilir, onun təşəbbüsü ilə reallaşan dünya miqyaslı iqtisadi layihələr nəticəsində Azərbaycan iqtisadiyyatının böhrandan qurtulduğu, ölkədə yoxsulluq səviyyəsinin kəskin şəkildə azaldığı bildirilir. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və "Cənub qaz dəhlizi" kimi dünyamiqyaslı layihələr sayəsində bu gün Avrasiyanın enerji və nəqliyyat xəritələrinin tamamilə dəyişdiyi, bu sahələrdə qitə miqyasında yeni reallıq yaratdığı vurğulanır.

Məqalədə Heydər Əliyevin uzaqgörən siyasətinin, hadisələrə baxışının və zəngin ideyalarının bu gün üçün də aktuallığını qoruyub saxladığı, məhz bu sayədə bu gün Azərbaycanın böyük coğrafiyaları birləşdirən nəqliyyat-energetika şəbəkələrində əsas aktor rolunu oynadığı bildirilir.

Yazıda bu gün Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın dünyada nüfuzunun gündən-günə artdığı, 2020-ci ildə otuz illik həsrətə son qoyularaq işğal altında olan torpaqların azad olunduğu və 44 günlük Vətən müharibəsində qazanılan Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpa edildiyi, bu gün Azərbaycan tarixində yeni səhifənin yazıldığı, hazırda regionda yeni reallıqların yarandığı, azərbaycanlı məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıdışının təmin olunması üçün işğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən yenidənqurma və bərpa işlərinin aparıldığı qeyd olunur.

Məqalədə həmçinin bu ilin aprel ayında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Meksika Deputatlar Palatasında fəaliyyət göstərən Meksika-Azərbaycan Dostluq Qrupunun xüsusi iclası barədə məlumat verilir.

Qeyd edək ki, jurnalın üz qabığında da Ulu Öndərin şəkli əks olunub.

## "Azərbaycan Könüllülük Həftəsi 2023" başa çatıb



Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, "ASAN xidmət"in dəstəyi, Azərbaycan Könüllü Təşkilatları İttifaqının təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "Azərbaycan Könüllülük Həftəsi 2023" başa çatıb.

Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, on dörd gün davam edən və respublikamızın müxtəlif regionlarını əhatə edərək 15 minə yaxın könüllünü bir çətir altında birləşdirən Könüllülük Həftəsi, hər il olduğu kimi, bu il də bir-birindən fərqli və maraqlı layihələrlə yadda qaldı.

Dekabrın 5-də Beynəlxalq Könüllülər Günü ilə əlaqədar olaraq başlayan Könüllülük Həftəsi, Ümummilli Lider Heydər Əliyevin gənclərə ünvanladığı tövsiyələrə əsaslanan "Vətənpərvərlik", "Təhsil və elm", "İdman və sağlamlıq", "Mədəniyyət", "Mənəvi tərbiyə" kimi istiqamətlər aid edilib. Bundan əlavə, həftə çərçivəsində "100 Könüllü Əməl", "Ulu Öndər hər addımımda fotomüsabiqə", "MədəniyyətimİZ", "Heydər Əliyev mənim üçün...", "Könüllünün Günü", "Könüllü Ol" kimi tədbirlər, eyni zamanda "Azərbaycan Könüllülərinin VI Həmrəylik Forumu", "Dəmir Yumruq! Könüllülərin Həmrəylik düşərgəsi" və "Türk Dövlətləri Könüllü Təşkilatlarının Əlaqələndirmə görüşü" keçirilib.

Ölkəmizdə 2016-cı ildən etibarən həyata keçirilərək gənclər üçün unudulmaz xatirələrlə yadda qalan, eyni zamanda minlərlə Azərbaycan könüllüsünü birləşdirən Könüllülük Həftəsinin bu il Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması könüllülərimiz üçün xüsusi önəm daşıyıb.

Ölkə rəhbərliyinin könüllülük fəaliyyətinə və könüllülərə daima diqqət və qayğısı nəticəsində Azərbaycanda geniş vüsət almış könüllülük hərəkatının bu gün daha geniş imkanlara sahib olduğunu deyə bilərik.

Məhz buna görə də əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsində Azərbaycan gəncləri bütün sahələrdə, eyni zamanda könüllü sıralarına qoşularaq özlərini doğruldurlar.



## Londonda Heydər Əliyevin 100 illik yubileyi qeyd edilib



London şəhərində yerləşən məşhur "Chelsea Old Town Hall" bələdiyyə binasında müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş tədbir keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Britaniya Azərbaycanlıları Cəmiyyətinin təşkilatçılığı ilə baş tutan tədbir Azərbaycanın və Birləşmiş Krallığın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Tədbirdə Ulu Öndərin London səfərini, Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışlarından fikirlərini əks etdirən videoçarx və Azərbaycan Diasporuna Dəstək Fondunun dahi şəxsiyyətə həsr etdiyi "Böyük sənət hamisi" adlı sənədli film nümayiş etdirilib. Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahova xatırladıb ki, 1994-cü ildə Azərbaycan icması ilə ölkəmizin Böyük Britaniyadakı səfirliyində görüşü zamanı Heydər Əliyev soydaşlarımızı öz övladlarına dilimizi, tariximizi, musiqimizi, Azərbaycan laylalarını öyrətməyə çağırıb. F.Pənahova tədbirin Heydər Əliyevin dəyərli tövsiyəsini əks etdirdiyini söyləyib. Dünya Azərbaycanlılarının I Qurultayında Ümummilli Lider Heydər Əliyevin səsləndirdiyi "Qoy, çaylarımız qurumasın, ağaclarımız kəsilməsin, çırağımız sönməsin! Yaşasın müstəqil Azərbaycan!" arzusunun Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirildiyi diqqətə çatdırılıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Səlhət Abbasova bildirib ki, Azərbaycanda və dünyanın müxtəlif ölkələrində Ulu Öndərin 100 illik yubileyi böyük qürurla və təntənə ilə qeyd edilir. Heydər Əliyevin həyata keçirdiyi azərbaycançılıq ideologiyasının xalqın milli mənsubiyyətinə, mədəni dəyərlərinə söykəndiyi, soydaşlarımızın birləşmək əzmini gücləndirdiyi, "Mən fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlməsinin bütün azərbaycanlıların qəlbini fəth etdiyi vurğulanıb: "Biz xatırlamalıyıq ki, "Qarabağ" məktəbinin istedadlı övladlarını böyüdən valideynlər və müəllimlər bir vaxtlar Heydər Əliyev dövrünün gənc nəslini təşkil ediblər. O, məhz öz mədəniyyətinə sadiq, xalqımızın multikultural ənənələri ilə formalaşan gənclərə inanırdı".

Azərbaycanın Birləşmiş Krallıqdakı səfirliyinin əməkdaşı Rəşad Vahabzadə dahi şəxsiyyət Heydər Əliyevin ömür yolu və siyasi fəaliyyətindən danışıb.

Sonra "Qarabağ" məktəbinin şagirdləri və Xalq artisti Gülyanaq Məmmədovanın ifasında rəngarəng konsert proqramı təqdim edilib. Ulu Öndərin arzusunu və ona həsr olunmuş fikirləri Azərbaycan və ingiliscə səsləndirən məktəblilərin ifasında "Can Azərbaycan", "Azərbaycan", "Dostluq himni", "Əsgər marşı", Gülyanaq Məmmədovanın ifasında isə "Ucal həmişə", "Yaşa mənim xalqım", "Azərbaycanım", "Mən bu millətə bağlıyam", "Şən Azərbaycan" mahnıları səsləndirilib.

Tədbirin sonunda xalqımızı və dünya azərbaycanlılarını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edən məktəblilərə sertifikatlar təqdim edilib.

## Sarayevoda "Heydər Əliyev İli" çərçivəsində fotosərgi açılıb






AZƏRTAC-ın təşəbbüsü ilə Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilən fotosərgi açılıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Bosniya və Herseqovinadakı səfirliyində təşkil olunan sərginin açılışında bu ölkədə yaşayan, çalışan və təhsil alan soydaşlarımız, eləcə də səfirliyin əməkdaşları iştirak ediblər.

Əvvəlcə səfirlikdə Heydər Əliyevin büstü önünə əklil qoyulub, Ulu Öndərin xatirəsi birdəqiqəlik sükutla anılıb.

Ölkəmizin Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev müasir müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin dövlətçilik tariximizdəki müstəsna rolundan danışıb. O, bu il dahi şəxsiyyətin 100 illik yubileyinin qeyd olunduğunu, 2023-cü ilin Azərbaycanda "Heydər Əliyev İli" elan edildiyini bildirib. Diplomat bu çərçivədə Bosniya və Herseqovina mətbuatında Ulu Öndərlə bağlı silsilə məqalələrin dərc olunduğunu, səfirlikdə Heydər Əliyevin büstünün açıldığını, Heydər Əliyev haqqında boşnak dilində kitabın nəşr edildiyini xatırladıb.

Vilayət Quliyev AZƏRTAC-ın təşəbbüsü ilə müxtəlif ölkələrdə Ümummilli Liderin 100 illik yubileyi münasibətilə sərgilərin keçirildiyini qeyd edib. Diplomat AZƏRTAC-ın son illərdə informasiya mühitinin yaradılmasında çox mühüm rol oynadığını, agentliyin müxtəlif dillərdə yaydığı xəbərlərin ölkəmizin dünya miqyasında tanınmasına töhfəsini verdiyini vurğulayıb.

Səfir qeyd edib ki, bu sərginin təşkili də AZƏRTAC-ın yaratdığı informasiya ab-havasının daha bir təzahürüdür. Bildirilib ki, sərgidə nümayiş olunan şəkillər Ulu Öndərin keçdiyi böyük həyat yolunun müxtəlif mərhələlərini əks etdirir, fenomenal şəxsiyyətin ölkəmizin tərəqqisi və rifahı naminə gördüyü işlərin miqyasını göstərir.

Ulu Öndərin həyat yolunu əks etdirən sərgidə AZƏRTAC-ın fotoxronikasında saxlanılan və Heydər Əliyevin həyatının müxtəlif dövrlərinə aid, dahi şəxsiyyətin həm Azərbaycana birinci rəhbərliyi dövründə, həm müstəqil Azərbaycanın Prezidenti kimi ölkədaxili, həm də müxtəlif xarici səfərlər zamanı çəkilmiş fotoşəkilləri nümayiş olunub.

# Bakıda Türkiyənin vitse-prezidentinin iştirakı ilə "İş dünyasının görüşü" adlı tədbir keçirilib





Dekabrın 19-da Bakıda Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın iştirakı ilə "İş dünyasının görüşü" adlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, "Türkiyə Yüz İli Birlik və Həmrəylik Platforması Azərbaycan" tərəfindən təşkil olunan tədbirdə Azərbaycanda fəaliyyət göstərən iş adamları iştirak ediblər.

Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz bildirib ki, Azərbaycan ilə Türkiyə arasında münasibətlər çox dərindir. Bunun bariz nümunəsi iki ölkə arasında siyasi səfərlərin sıxlığıdır. Son bir ay ərzində Azərbaycan və Türkiyə prezidentləri bir neçə dəfə görüşüblər. Ölkələrimiz arasında münasibətlər digər dövlətlər üçün nümunədir, çox güclü siyasi əlaqələrimiz var.

"Biz istəyirik ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı ilə inkişaf edən bu əməkdaşlıq iqtisadi sahədə də özünü büruzə versin və iş adamları ilə birlikdə daha da irəli gedəcəyik. Dostluq münasibətlərinə əsaslanan əlaqələr digər qardaş ölkələri də əhatə edərək çoxtərəfli format alıb və biz bölgədə də rifah əldə etmək üçün birlikdə fəaliyyət göstəririk. İnanırıq ki, Azərbaycanla Türkiyənin birgə inkişaf etdirdiyi bu münasibətlər bütün Qafqazda sabitliyə gətirib çıxaracaq", - deyə Cevdet Yılmaz bildirib.

Türkiyə bütün təcrübələri ilə Azərbaycanın yanında olduğunu, Türkiyə-Azərbaycan əlaqələrinin hər sahədə inkişaf etdirilməsi üçün səy göstərdiklərini vurğulayan səfir Cahit Bağcı deyib: "Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilən 15 milyard dollarlıq ticarət dövriyyəsi hədəfinə çatmağa çalışırıq. Bu çərçivədə ticarətimiz 2023-cü ilin ilk on ayında altı milyard dollardan çox olub. Hazırda Türkiyə Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır".

Qeyd edək ki, Cevdet Yılmazın ölkəmizə səfəri çərçivəsində bir sıra görüşlər keçiriləcək.

# *Türkiyənin vitse-prezidenti:* "Azərbaycanla ticarət dövriyyəmizin həcminin daha da artacağına əminəm"

"Azərbaycan ilə Türkiyə arasında münasibətlər çox dərindir. Bunun bariz nümunəsi iki ölkə arasında siyasi səfərlərin sıxlığıdır. Son bir ay ərzində Azərbaycan və Türkiyə prezidentləri bir neçə dəfə görüşüblər. Ölkələrimiz arasında münasibətlər digər dövlətlər üçün nümunədir, çox güclü siyasi əlaqələrimiz var".

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz dekabrın 19-da Bakıda keçirilən "İş dünyasının görüşü" adlı tədbirdə deyib.

"Biz istəyirik ki, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı ilə inkişaf edən bu əməkdaşlıq iqtisadi sahədə də özünü büruzə versin və iş adamları ilə birlikdə daha da irəli gedəcəyik. Dostluq münasibətlərinə əsaslanan əlaqələr digər qardaş ölkələri də əhatə edərək çoxtərəfli format alıb və biz bölgədə də rifah əldə etmək üçün birlikdə fəaliyyət göstəririk. İnanırıq ki, Azərbaycanla Türkiyənin birgə inkişaf etdirdiyi bu münasibətlər bütün Qafqazda sabitliyə gətirib çıxaracaq.

2022-ci ildə Türkiyə ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 6 milyard ABŞ dolları olub. Bu ilin ilk on bir ayında bu rəqəm 6,7 milyard ABŞ dolları səviyyəsinə çatıb. Bu göstəricilərin ilin sonunadək daha da artacağına əminəm", - deyə Cevdet Yılmaz bildirib.

# AKTA-nın 2024-cü il üzrə fəaliyyətinə dair hədəflər açıqlanıb

Dekabrın 19-da Bakıda Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) 2023-cü il üzrə fəaliyyətinə dair hesabat tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, hesabat tədbirində AKTA ümumi yığıncağının üzvü olan hüquqi şəxslərin, eləcə də AKTA tərəfdaşı olan qurum və təşkilatların, o cümlədən ali təhsil müəssisələri və şirkətlərin rəhbər və nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan AKTA İdarə heyətinin sədri Elvin Balacanov assosiasiya tərəfindən 2023-cü il ərzində həyata keçirilmiş fəaliyyətə dair hesabatı təqdim edib. 2022-ci il aprelin 19-da dövlət qeydiyyatına alınmış və Azərbaycan Respublikasının kibertəhlükəsizlik ekosisteminin gücləndirilməsinə dəstək vermək məqsədilə fəaliyyət göstərən AKTA-nın üzvlüyünə il ərzində ümumilikdə 178 müraciətin ünvanlandığı və 86 subyektin AKTA üzvlüyünə qəbul edildiyi bildirilib. Həmçinin hazırda 50-si hüquqi şəxs olmaqla, AKTA üzvlərinin sayının 110 olduğu vurğulanıb.

Eyni zamanda cari ildə AKTA tərəfindən 30-dan çox müxtəlif tədbirin, kibertəhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi məqsədilə 90-dan çox müxtəlif şirkət və təşkilatla görüş və müzakirələrin keçirildiyi qeyd edilib. AKTA-nın İslam Əməkdaşlıq Təşkilatının Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzləri (OICCERT) əməkdaşlıq platformasına üzv seçildiyi, eləcə də ölkənin 14 ali təhsil müəssisəsində kiberklubların yaradılmasına dəstək verildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, 161 ölkənin yer aldığı "Milli Kibertəhlükəsizlik İndeksi"nin reytinq cədvəlində Azərbaycanın 36 pillə irəliləməsi təmin olunub.

Fasilədən sonra AKTA sədri assosiasiyanın 2024-cü il üzrə Tədbirlər Planının layihəsini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Növbəti il ərzində AKTA tərəfindən fəaliyyət istiqamətləri üzrə mütəmadi tədbirlərlə yanaşı, bir sıra yeni və spesifik tədbirlərin həyata keçirilməsinin planlaşdırıldığı bildirilib.

Tədbirdə həmçinin AKTA-nın yenilənmiş veb-saytı (www.akta.az) təqdim edilib. AKTA sədrinin müavini Rauf Cabarov assosiasiyanın yenilənmiş veb-saytı barədə məlumat verib.

Ümumi yığıncağın üzvləri, o cümlədən tərəfdaş qurum və təşkilatların nümayəndələri çıxış edərək AKTA-nın 2023-cü il üzrə fəaliyyətini uğurlu hesab ediblər. 2024-cü il ərzində AKTA tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərə dair rəy və təkliflər səsləndirilib. Xüsusilə Azərbaycan Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Strategiyanın Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin icra olunmasına dəstək verilməsinin xüsusi önəmi vurğulanıb.

Tədbirdə həmçinin AKTA üzvlüyünə yeni qəbul olunmuş hüquqi şəxslərə müvafiq sertifikatlar təqdim olunub.

# "Yüksəliş" müsabiqəsinin qalibi tələbələrlə Mentorluq proqramı çərçivəsində görüş keçirib

"Yüksəliş" müsabiqəsi qalibinin Mentorluq proqramı çərçivəsində tələbələrlə növbəti görüşü keçirilib.

Müsabiqənin İşçi Qrupundan AZƏRTAC-a bildirilib ki, birinci "Yüksəliş" müsabiqəsinin qalibi Orxan Quliyev proqrama qəbul olunan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri Səriyyə Əliyeva, Mədinə Abbasova, Nərmin Zeynallı ilə tanışlıq görüşü keçirib. Mentor Orxan Quliyev əmək bazarında güclü kadr olmaq üçün müxtəlif sahələrdə iş təcrübələrini artırmaq məqsədilə atılacaq addımlardan danışıb. Müasir texnologiya sahəsinin inkişafı nəticəsində əldə edilən bilik və bacarıqların karyera üçün önəmli perspektivləri barədə müzakirələr aparılıb. O, Mentorluq proqramının gələcək gedişatı ilə bağlı atılacaq addımları bölüşüb. Tələbələr isə ixtisas artımı istiqamətində yararlı olacaq layihələrdə iştirak etməkdə




maraqlı olduqlarını qeyd edib, Mentorluq proqramı çərçivəsində yaradılan imkana və səmimi görüşə görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Mentorluq proqramının əsas məqsədi III və IV kurs tələbələrinin "Yüksəliş" müsabiqəsinin qaliblərinin idarəçilik təcrübəsindən yararlanmasını və gələcək karyera fəaliyyəti ilə bağlı tövsiyələr almasını təmin etməkdir. Proqramın sonunda "Yüksəliş" müsabiqəsinin qalibləri tərəfindən tələbələrə tövsiyə məktubu təqdim ediləcək.

"Yüksəliş" müsabiqəsinin təşəbbüsü ilə start götürən proqrama 65 tələbə qəbul olunub. Seçim tələbələrin bioqrafiyası və motivasiya məktublarına əsasən həyata keçirilib. Proqramın 2024-cü ilin iyun ayının sonunadək davam etməsi gözlənilir.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxiledilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

# "Mədəni irs" Forumu: Postkonflikt dövründə Azərbaycanın tarixi-mədəni və təbii irsinin qorunması

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Mədəni irs" Forumunun V paneli "Postkonflikt dövründə Azərbaycanın tarixi-mədəni və təbii irsinin qorunması" mövzusuna həsr olunub.



AZƏRTAC xəbər verir ki, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin icraçı direktoru Tural Novruzovun moderatorluğu ilə keçirilən paneldə "Qarabağ və Şərqi Zəngəzurun tarixi-mədəni irsi işğaldan əvvəl və sonra", "Qarabağ və Şərqi Zəngəzur ərazisində yerləşən abidələrin monitorinqi və bununla bağlı çətinliklər", "Qərbi Azərbaycan ərazisində xalqımızın tarixi və mədəni irsinin qorunması, tədqiqi və mühafizəyə götürülməsinin təmin edilməsi" və "Mədəni sərvətlərin qorunması haqqında beynəlxalq konvensiyaların tətbiqi məsələləri" mövzularında çıxışlar dinlənilib.

Əvvəlcə Mədəniyyət Nazirliyi tərəfindən hazırlanmış panelin mövzu ilə bağlı videoçarxı nümayiş etdirilib.

Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev ölkəmizlə təşkilat arasında əlaqələrdən danışıb, bu münasibətlərin əsasında Ulu Öndər Heydər Əliyevin uzaqgörən fəaliyyətinin dayandığını qeyd edib. Bildirilib ki, UNESCO-da Azərbaycanın səsinin eşidilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük rolu olub. Diplomat deyib ki, mədəni mirasımıza qarşı erməni vandallarının törətdikləri vəhşilikləri, haqq səsimizi dünyaya çatdırmaq üçün sistemli addımlar atılmalıdır.

Dövlət tərəfindən mühafizə olunan ərazilər barədə danışan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Aytən Seyidova Azərbaycanın zəngin flora və faunası ilə yanaşı, böyük tarixə malik təbiət abidələrinin olduğunu diqqətə çatdırıb: "Azərbaycanda ümumi sahəsi 893 min hektar olan xüsusi mühafizə olunan təbiət əraziləri ölkənin 10,31 faizini təşkil edir. İşğaldan azad edilmiş ərazilərdə ümumi sahəsi 42,9 min hektar olan 6 ədəd xüsusi mühafizə olunan təbiət ərazisi mövcuddur. Həmin ərazilərin meşə ilə örtülü 18,2 min hektardan 6,3 min hektarı işğal dövründə məhv edilib. Tərəfimizdən aparılmış monitorinqlər zamanı təbiət abidəsi statuslu 152 ədəd qədim ağacdan 135-nin məhv edildiyi məlum olub. Eyni zamanda Zəngilan rayonu ərazisində təbii halda yayılmış və təbiət abidəsi statuslu 10 min hektar xüsusi qiymətli "Araz palıdı" meşəsinin 287,5 hektarının məhv edildiyi aşkar edilib".

AMEA Tarix İnstitutunun əməkdaşı, tarixçi alim Nazim Mustafa vurğulayıb ki, 1827-ci ildə İrəvan və Naxçıvan xanlıqlarının Rusiya tərəfindən işğalından sonra süni surətdə "Erməni vilayəti" yaradılıb. Həmin ərazidə mövcud olmuş 1111 yaşayış məntəqəsindən cəmi 62 kənddə erməni kilsələrinin ətrafında ermənilər yaşayıblar.

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun baş direktoru vəzifəsini icra edən Fərhad Quliyev erməni işğalçılarının Qarabağ və Şərqi Zəngəzurda törədikləri vandalizm aktları barədə danışıb. Deyib ki, işğal dövründə ermənilər hətta qəbiristanlıqları belə məhv ediblər.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və kommunikasiya şöbəsinin müdiri Pərvin Bağırova fondun missiyası, fəaliyyəti haqqında məlumat verib, mədəni irsimizin qorunmasının vacibliyindən danışıb. Qeyd edib ki, bir ölkənin mədəni irsi o ölkənin tarixidir. Hansısa ölkəyə səyahət edərkən, ilk növbədə, həmin ölkənin tarixi-mədəni abidələrini araşdırırıq. Ona görə də maddi-mədəni irsimizin qorunması böyük əhəmiyyət daşıyır.

Azad olan ərazilərdə aparılan çəkilişlərdə iştirak edən Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın fotomüxbiri Azər İbrahimov şahidi olduğu, lentə aldığı yurd yerlərimizdən danışıb: "Əslən Kəlbəcər rayonundanam. Apardığım çəkilişlər zamanı doğma Kəlbəcərimi, həmçinin kənd və qəsəbələrimizi darmadağın, yerlə yeksan edilmiş vəziyyətdə görmək mənim də qəlbimdə dərin və kədərli iz qoyub. Həmin anlarda yaşadığım, sözlə ifadə edilməsi mümkün olmayan duyğularımı ömrüm boyu unuda bilməyəcəyəm".

A.İbrahimov AZƏRTAC-ın əməkdaşlarından ibarət çəkiliş qruplarının Vətən müharibəsi başa çatdıqdan dərhal sonra azad edilmiş ərazilərə yollandığını bildirib: "İşimiz ağır, məsuliyyətli və təhlükəli idi. Buna baxmayaraq, doğma torpaqlarımızın azad olunmasının sevinci bizi həvəslə və əzmlə çalışmağa sövq edirdi. Şəhid jurnalistlərimiz - AZƏRTAC-ın müxbiri Məhərrəm İbrahimov və Azərbaycan Televiziyasının operatoru Sirac Abışov məhz bu missiyanın yerinə yetirilməsi zamanı şəhidlik zirvəsinə ucaldılar".

Sonra AZƏRTAC-ın işğaldan azad edilmiş ərazilərdə ermənilərin törətdiyi cinayətləri əks etdirən kadrları nümayiş olunub.

Çıxışlardan sonra səsləndirilən təkliflərlə bağlı müzakirələr aparılıb, suallar cavablandırılıb.

# "Mədəni irs" Forumu başa çatıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Mədəni irs" Forumunun dekabrın 19-da sonuncu panel sessiyası "Mədəni irs və müasir memarlıq-şəhərsalma prinsipləri" mövzusuna həsr olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini, Əməkdar memar İlqar İsbatovun moderatorluğu ilə keçirilən panel sessiyada ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə Qazax Müəllimlər Seminariyasında keçirilən təmir-bərpa işləri haqqında ətraflı məlumat verib: "Seminariyanın binası acınacaqlı vəziyyətdə olub. 2018-ci ildə ölkə başçısının tapşırığından sonra orada təmir-bərpa işləri görülüb. Tarixi binanın orijinal strukturu saxlanılıb".

Onun sözlərinə görə, bərpa olunmuş seminariya Qazaxda təhsil sektorunun inkişafına təkan verəcək, həmçinin rayonun arxitekturasına xüsusi görünüş qatacaq.

Eyni layihəni Azərbaycanın digər bölgələrində də tətbiq etməyi düşündüklərini diqqətə çatdıran universitetin icraçı prorektoru, həmçinin gələcəkdə Şəki, Gəncə və azad olunmuş rayonların birində təhsil mərkəzi yaratmağı planlaşdırdıqlarını bildirib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin məsləhətçisi Faiq Hacıyev Ağdamda inşa ediləcək İşğal və Zəfər Muzey Komplekslərində xüsusi tağvari hasar tikiləcəyini söyləyib. O, tağvari hasarın inşasında Ağdamda dağıdılmış binaların daşlarından istifadə olunacağını bildirib: "Bunun da, aydın məsələdir ki, mənəvi əhəmiyyəti var. Bu daşlar tarixin yaddaşını yaşadan daşlardır".

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Tarixi-mədəni irsin idarə olunması və qorunması şöbəsinin müdiri Müslim İmranlı qarşıda duran çağırışlardan bəhs edib: "Şuşa şəhəri üçün layihələndirilmiş Baş plan bütün mövcud olan abidələri əhatə edir. Abidələrin mühafizəsi zonası hələ həllini tapmayıb. Abidənin yanında inşaat işləri gedirsə, bu binanın estetik vizual obrazını aşağı salır. Gələcəkdəki əsas məsələ şəhərin obrazını saxlamaqdır. Bunun üçün Konservasiya planı mövcuddur. Konservasiya planı abidə və ya ərazinin mədəni dəyərlərini təyin edir".

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Tarixi-mədəni irsin idarə olunması və qorunması şöbəsinin müdiri müasir şəhərlər və urbanizasiya məsələləri haqqında məlumat verib.

Bununla da "Mədəni irs" Forumu başa çatıb.

# Azərbaycanın bir sıra qeyri-maddi mədəni irs nümunələri İslam Dünyası İrs Siyahısına daxil edilib

Dekabrın 18-19-da Mərakeşin paytaxtı Rabat şəhərində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının - ICESCO-nun nəzdində fəaliyyət göstərən İslam Dünyası İrs Komitəsinin (IWHC) 11-ci iclası keçirilib.

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, komitə üzvlərinin qərarı ilə ölkəmizin zəngin mədəniyyətini əks etdirən 10 qeyri-maddi mədəni irs nümunəsi İslam Dünyası İrs Siyahısına daxil edilib:

1. Yallı (köçəri, tənzərə) Naxçıvanın ənənəvi qrup rəqsləri;
2. Dolma hazırlanması və paylaşılması ənənəsi, mədəni kimliyin göstəricisi;
3. Pəhləvanlıq mədəniyyəti, ənənəvi zorxana oyunları, idman növləri və güləş;
4. Azərbaycan muğamı;
5. Lahıc misgərlik sənəti;
6. Çövkən - ənənəvi Qarabağ atüstü oyunu;
7. Azərbaycan aşıq sənəti;
8. Kəlağayı düzəldilməsi və geyinməsi ənənəvi incəsənəti və onun simvolizmi;
9. Tar ifaçılıq sənəti və onun hazırlanma ustalığı;
10. Azərbaycanda xalça toxuculuğu ənənəvi sənəti.

Dekabrın 19-da ICESCO-nun qərargahında Mərakeş rəsmiləri, təşkilata üzv ölkələrin diplomatik nümayəndəlikləri və İslam Dünyası İrs Komitəsi üzvlərinin də iştirak etdiyi mərasimdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin hazırladığı namizədlik faylları əsasında qeyd olunan elementlərin İslam Dünyası İrs Siyahısına daxil edilməsini təsdiq edən sertifikat ICESCO-nun



baş direktoru Salim əl-Malik tərəfindən Azərbaycanın bu qurumdakı daimi nümayəndəsi Nazim Səmədova təqdim edilib. İslam Dünyası İrs Komitəsinin sözügedən qərarı ilə Azərbaycan xalqına məxsus bu qeyri-maddi mədəni irs elementlərinin mühüm dəyəri vurğulanıb, mədəni irsin qorunmasının, mühafizəsinin və davamlılığının təmin edilməsinin vacibliyi diqqətə çatdırılıb.

Qeyd edək ki, Azərbaycanın üzvü olduğu ICESCO ilə əməkdaşlığında mədəni irsin qorunması mövzusu mühüm yerlərdən birini tutur.

Xatırladaq ki, 2019-cu ildə Azərbaycandan İçərişəhər (Qız qalası və Şirvanşahlar saray kompleksi ilə birlikdə), Şəkinin tarixi mərkəzi (Xan sarayı ilə birlikdə) və Qobustan qayaüstü rəsmləri də İslam Dünyası İrs Siyahısına daxil edilib.

Bununla da Azərbaycanın İslam Dünyası İrs Siyahısındakı mədəni irs nümunələrinin sayı 15-ə çatıb.

# Ermənistanın regionun lider dövləti ilə razılaşmaqdan savayı yolu yoxdur

## Bunu dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri deyirlər



Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun erməni işğalçıları üzərində çaldığı əfsanəvi qələbə bütün xalqımıza möhtəşəm ucalıq bəxş etdi. Bu qələbənin sayəsində biz kimliyimizi, güc və qüdrətimizi dərk etdik, müasir dünya düzənində layiqli yerimizi tutduq və həm də düşmənin mifik qələbələrin uçurumlarına çöküşlərinin şahidi olduq.

Təkcə biz və ağır cəzasını alan düşmən deyil, bütün dünya dövlətləri də "erməni döyüşkənliyi"nin fantastik uydurmalar səviyyəsində olduğunu aydın gördülər. Yanını qucaqdan-qucağa dəyişməklə heç bir dövlət qüdrət sahibi ola bilməz. Erməni separatçıları da bunu faciəvi məğlubiyyətlərinin sonunda anladılar. Onlar uzun illər idi ki, qalib duruşunda poz verməyə, özlərini döyüşkən xalq kimi təqdim etməyə adətkar olmuşdular. Azərbaycan Ordusu möhtəşəm döyüşlə bütün erməni əfsanələrini sabun köpüyü kimi partlatdı, onların bütün təbliğatının romantik şişirtmələrdən artıq bir şey olmadığını üzə çıxardı. O da birmənalı şəkildə təsdiq olundu ki, Qarabağ və Zəngəzur ərazilərinin bir qarışının belə erməni işğalçılarına dəxli yoxdur. Bunu özləri də bilirdilər, yoxsa vuruşardılar və 10 mindən çox fərari ilə dabanlarına tüpürüb qaçmazdılar.

Məlum olduğu kimi, bu yaxınlarda ADA Universitetində "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" adı altında forum keçirilmişdir. Tədbirdə Prezident İlham Əliyevə verilən suallarda da son illər dövlət başçısının və ölkəmizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması aydın müşahidə olundu. Onlar mühüm əhəmiyyət kəsb edir, ölkəmizin beynəlxalq aləmdə yüksəldiyi yeni mövqelərə işıq salırdı.

Forum bir daha dünyanın aparıcı beyin mərkəzlərinin mütəxəssislərinin ölkəmizdəki dəyişikliklərə sərgilədikləri fərqli münasibətlərin şahidi olmağa imkan yaratdı. Yaxşı tanıdığımız səfir Metyu Brayza sualında əvvəlcə onu qeyd etdi ki, dünyanın heç yerində darmadağın edilmiş geniş bir ərazinin yenidən qurulmasını təsdiq edən ikinci belə məkan yoxdur: "Bu, görünməmiş haldır və biz bunun şahidi oluruq, buna görə də Sizə təşəkkür edirik". Ceymstaun Fondunun sabiq prezidenti Qlen Hovard isə Azərbaycanın Türk Dövlətləri Təşkilatı ilə bağlı baxışlarının nədən ibarət olduğunu soruşdu: "...Prezident olaraq Siz noyabr ayında Astanada Türk Dövlətləri Təşkilatının Zirvə toplantısında iştirak etdiniz və orada çıxışınızda bildirdiniz ki, müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq genişləndirilməlidir. Siz hesab edirsinizmi ki, xarici qüvvələrə qarşı Türk Dövlətləri Təşkilatı bir təhlükəsizlik ittifaqına, dövlətlər blokuna, bir növ türk dövlətlərinin NATO-suna çevrilə bilər? Türk Dövlətləri Təşkilatının gələcəyini necə görürsünüz?" Belə bir sualın verilməsi Azərbaycanın xarici siyasətinin dünya çapında daha yüksək mövqelərə yüksəlməsi ilə bağlı idi.

Links Avropa Fondunun direktoru Denis Sammut (Niderland) Azərbaycan Prezidentinin tarixin yaddaşına 2020-ci il Qarabağ müharibəsinin qalib sərkərdəsi kimi həkk edildiyini bildirdi. Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun prezidenti Ekaterine Metreveli də İlham Əliyevə Zəngilana səfərinin oyatdığı təəssüratlara görə təşəkkürünü bildirdi, arzularını dilə gətirdi: "Məcburi köçkünlərin problemi başa düşdüyümüz kimi asan proses deyil və biz bu işdə, regionun gələcək inkişafı yolunda şəxsən Sizə və Azərbaycana uğurlar arzu edirik". Özbəkistandan Əzizə Umarova isə Füzulidə Özbəkistandan hədiyyə kimi tikilən məktəbi xatırlatdı və Qarabağa qayıdış fonunda konkret olaraq Trans-Xəzər dəhlizinin Mərkəzi Asiya üçün əlavə imkanlar yaradacağını qeyd etdi: "Eyni zamanda Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun inkişafı üçün milli prioritetimiz var ki, bu, Orta dəhlizlə birləşdirilsə, Cənubi Asiyanı Avropaya qədər birləşdirən bütün Mərkəzi Asiya ölkələri üçün faydalı olan bir layihə olacaq". Sonra söz alan beynəlxalq əlaqələr üzrə professor, İspaniya Parlamentinin və AŞ PA-nın sabiq üzvü Çorduşu Pla Azərbaycanın bu işğala son qoymasını tarixi bir məqam kimi qiymətləndirdi: "Digər tərəfdən, Avropa Parlamenti və AŞ PA-nın müxtəlif qurumları beynəlxalq əlaqələrdə sıfır səviyyəsində olan sərištəsi ilə çox asanlıqla digər siyasi səviyyədə olan bəyanatlar verir. Sanki Avropa Şurası və Avropa Komissiyası real yanaşmadan irəli gələrək bir səviyyədə fəaliyyət göstərir, digərləri isə başqa səviyyədə".

Bütün bunlar bir daha onu təsdiq edir ki, Azərbaycan son 20 ildə böyük inkişaf yolu keçmiş, daha güclü nüfuz sahibinə çevrilmişdir. Ermənistanın isə Cənubi Qafqazın lider ölkəsi ilə razılaşmaqdan başqa yolu yoxdur.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcması Luis Okamponun növbəti qondarma hesabatına cavab verib

Erməni diasporunun əlində oyuncağa çevrilmiş Luis Okampo Azərbaycanı "soyqırımı"nda ittiham edən növbəti qondarma hesabatla çıxış edib.

Xocalı qatillərinin tutulmasına gözyaşı tökən səlibçi mentalitetli L.Okampo bunu "erməni soyqırımının tərkib hissəsi" kimi qələmə verir. O, daha doğrusu, bu cızma-qaranı onun adından yazmış şəxslər "Dağlıq Qarabağ etnik qrupu" kimi "dahiyanə elmi kəşf" edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının L.Okamponun qondarma hesabatı ilə bağlı bəyanatında bildirilib.

"Cızma-qarada 2017-ci ildə "İvanyan (ermənilərin Xocalıya verdiyi eybəcər ad) Artsaxın Azərbaycan işğalından azad edilmiş inkişaf edən kəndidir" deməklə Azərbaycan xalqını təhqir edən Artak Beqlaryan kimi irqçi klounun ifadəsi yer alıb. Hesabatda bu il Azərbaycan əleyhinə təşkil edilmiş BMT Təhlükəsizlik Şurasının iclaslarına, ABŞ senatında dinləmələrə, "Nyu York Tayms", "Vaşinqton Post" kimi qəzetlərdə ölkəmizə qarşı yer almış şər-böhtan yazılara toxunan L.Okampo əslində özünün də cəlb edildiyi kampaniya barədə aydın ipucuları verir", - deyə Qərbi Azərbaycan İcmasının bəyanatında vurğulanıb.

Bəyanatda həmçinin bildirilib ki, Azərbaycan və Ermənistan arasında əldə edilməiş 7 dekabr anlaşması fonunda belə əməllərin məqsədi sülh prosesinə mane olmaqdır. Bir sıra regiondankənar dairələr Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında maraqlı deyil. Belə kağız parçaları bu ilin yay aylarında olduğu kimi Ermənistana boş ümid verməməlidir.

# İƏGF Avrasiya Regional Mərkəzi M.Rəbbaninin qeyri-qanuni saxlanılmasını pisləyib

İslam Əməkdaşlıq Gənclər Forumu (İƏGF) Avrasiya Regional Mərkəzinin beynəlxalq idarə heyətinin sədri Elçin Əsgərov idarə heyətinin üzvləri adından CAGE qeyri-hökumət təşkilatının rəhbəri Məhəmməd Rəbbaninin qeyri-qanuni saxlanılmasını pisləyən bəyanatla çıxış edib.

E.Əsgərov Böyük Britaniya vətəndaşı, CAGE QHT-sinin rəhbəri M.Rəbbaninin Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə BMT-nin Cenevrə ofisində keçirilən "Neokolonializm: İnsan haqları, sülh və təhlükəsizlik" konfransına buraxılmamasını pisləyib.

İƏGF Avrasiya Regional Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda insan haqlarının müdafiəsi uğrunda, eləcə də islamofobiyaya qarşı uzun müddət mübarizə aparan M.Rəbbani ilə həmrəylik ifadə olunub və onun bu sahədə həyata keçirdiyi fəaliyyətə yüksək dəyər verilib. Onun səfərinin qanuni olmasına baxmayaraq, İsveçrə polisi tərəfindən saxlanılması insan haqlarının fundamental prinsiplərinin pozulması və sözügedən konfransın məqsədi olan ideyaların azad mübadiləsinə və dialoqa manea kimi xüsusi vurğulanıb.

Bəyanatda həmçinin Fransa hökumətinə bu hadisənin hərtərəfli araşdırılması, başqa dövlətlərin daxili işlərinə qarışmaması, suverenlik və beynəlxalq əməkdaşlıq prinsiplərinə hörmət edilməsi və belə halların gələcəkdə baş verməməsi, xüsusilə insan haqlarının və sülhün qorunması sahəsində çalışan şəxslər üçün hərəkət və ifadə azadlığının təmin edilməsi ilə bağlı fikirlər səsləndirilib.

Eyni zamanda beynəlxalq təşkilatlara bu təşəbbüsə qoşulmaq və hüquq müdafiəçisi M.Rəbbaninin hüquqlarının qorunmasına dəstəklə bağlı çağırış edilib.

"İƏGF Avrasiya Regional Mərkəzinin idarə heyəti ədalət, insan haqları və beynəlxalq əməkdaşlığı pozan hallara qarşıdır. Bu hadisə ilə bağlı monitorinq aparacaq, insan haqları və ədalət prinsiplərinin müdafiəsini davam etdirəcəyik", - deyə bəyanatda bildirilib.

# Paris riyakarlığından əl çəkmir

30 illik Qarabağ münaqişəsi zamanı tərəflər arasında "vasitəçilik" edib, 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsindən sonra ofsayta düşən Fransa Cənubi Qafqaz siyasətində varlığını sübut etmək üçün hər cür riyakarlıq etməkdən çəkinmir. Əgər 2020-ci ilə qədər rəsmi Paris bunu maskalanaraq edirdisə, 2020-ci ilin sentyabr ayından başlayaraq öz xislətini açıq şəkildə ortaya qoydu.



Sülh danışıqları prosesinə vasitəçi kimi yenidən can atan, müzakirə masasına Ermənistanın baş naziri Nikol Paşinyanı tək buraxmaq istəməyən Emmanuel Makronun məqsədi, əslində, Cənubi Qafqaza sülh gətirmək olmayıb. Fransada yaxşı anlayırlar ki, onların Cənubi Qafqazda varlığı Ermənistan-Azərbaycan münaqişəsindən keçir. Yelisey sarayında da bilirlər ki, tərəflər arasında vasitəçisiz sülh protokolu imzalandıqdan sonra Fransanın Cənubi Qafqazda yeri olmayacaq.

Dünyada gedən qlobal geosiyasi oyunlarda "mən də varam" demək istəyən Fransa Rusiyanı hazırkı məqamda Cənubi Qafqazdan sıxışdırıb çıxarmağın yolunu Ermənistanla "dostluqda" görür. Özünü Ermənistana hami kimi göstərib, indiyə kimi bu ölkənin başına gələn bəlaların əsl səbəbkarı olan rəsmi Paris Ermənistanın yaxasından heç cür əl çəkmək istəmir. 2020-ci ilin müharibəsindən sonra yeni yaranan reallıqları az-çox dərk etmək istəyən, Qarabağın Azərbaycan ərazisi olduğunu, regionda sülhün alternativi olmadığını Ermənistanın da anladığı bir vaxtda Parisin bu ölkəyə silah, döyüş texnikası göndərməsinin bir adı var: nadanlıq!

2020-ci ildən sonra Cənubi Qafqazda yaranmış yeni geosiyasi reallığı həzm edə bilməyən Paris Ermənistana 24 ədəd "Bastion" zirehli avtomobil verərək Yerevanla olan dostluğunu isbatlamağa çalışıb. Daha 26 "Bastion"un da veriləcəyini vəd edən Paris 3 ədəd "GM200" radarı satmasına və "Mistral" yaxınmənzilli hava hücumundan müdafiə sistemlərinin tədarükünə dair anlaşma memorandumu da imzalayıb. Fransa, əslində, bu hərəkətləri ilə Ermənistanı pislik edib. 30 illik münaqişə dövründə təpədən-dırnağa qədər silahlanan Ermənistan ordusu cəmi 44 günə darmadağın olunubsa, bundan sonra Ermənistanın silah gücünə, müharibə yolu ilə nəyə isə nail ola biləcəyini düşünmək ağılsızlıqdan başqa bir şey deyildir. Nə yazıq ki, Fransada bu cür mərəzə tutulanlar heç də az deyil. Onlardan biri də 62 yaşlı Paris meri Ann İdalqodur.

2024-cü ildə BMT-nin İqlim sammitinin (COP29) Azərbaycanda keçirilməsi üçün öz namizədliyini ölkəmizin xeyrinə geri götürən Ermənistandan fərqli olaraq Paris merinin Azərbaycan əleyhinə kampaniya aparanlar sırasında yer alması heç də təəccüblü görünmür. Fransada seçkilər yaxınlaşanda erməni lobbisindən maliyyə dəstəyi və səs almaq istəyən siyasilərin erməni sevgisi "fontan" vurmağa başlayır.

Bu xanımın Azərbaycana olan münasibətini başa düşmək o qədər də çətin deyil. Xatırladaq ki, müavinlərindən biri, milliyyətcə erməni, Fransadakı erməni təşkilatlarının koordinasiya şurasının rəhbəri Ara Toronyanın qızı Anuş Toronyandır.

Fransada ermənilərin təşkil etdiyi tədbirlərin fəal iştirakçısı kimi tanınan Paris merinin 2015-2018-ci illərdə Ermənistanın sabiq prezidenti Serj Sarkisyanla da sıcaq münasibətlərinin olması sirr deyil. Serjlə yaxınlığı ilə seçilən Paris merinin onun hakimiyyətdə olduğu illərdə dörd dəfə rəsmi şəkildə görüşü olub.

Bu ilin avqustunda Azərbaycanla razılaşdırılmadan Qarabağda yaşayan ermənilərə "humanitar yardım" etmək həvəsinə düşən Paris meri arzusunu yerinə yetirə bilmədən, ərazilərimizə binoklla baxıb geri qayıtmaq məcburiyyətində qalmışdı...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Sorosçular Rusiyapərəstləri hədəfə alıb

## Paşinyandan bəzi nazirlərin istefası tələb edilir

Hayastanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Nikol Paşinyan hakimiyyətinin Rusiyaya qarşı əks mövqe sərgiləməsi zaman ötdükcə daha gərgin mərhələyə qədəm qoyur. Bütün bunların fonunda Soros Fondunun son vaxtlarda İrəvanın daxili siyasətində aparıcı qüvvəyə çevrilməsi diqqət çəkir. Belə ki, fondun Ermənistan hakimiyyətindəki payçıları təkcə daxili işlər naziri Vahe Kazaryanı deyil, həm də iqtisadiyyat naziri Vahan Kerobyanı hədəf alıb.




"4rd.am" nəşrinin yazdığına görə, sorosçular indi də Nikol Paşinyanın iqtisadiyyat nazirini işdən çıxarmasını tələb edirlər. Soros üzvləri Vahan Kerobyanı rus casusu hesab edirlər. Onların fikrincə, Kerobyan Qərbin sanksiyalarına məhəl qoymayaraq Hayastan ərazisindən Rusiyaya ixracatı yasaqlanan malların ötürülməsinə imkan yaradır. Hakimiyyətdəki mənbələrin bildirdiyinə əsasən, Soros çoxdan Paşinyandan Kerobyanı istefaya göndərməsini tələb edir. Lakin nazir hələ də Paşinyanın himayəsində sayılır.

Qeyd edək ki, 2018-ci ildə Hayastanda baş vermiş "məxməri inqilab" nəticəsində Nikol Paşinyanın baş nazir postuna yiyələnməsi ilə ölkədə Soros Fondunun mövqeləri sürətlə möhkəmlənməyə başladı. Hələ 1997-ci ildə Hayastanda fəaliyyətə başlayan "Açıq Cəmiyyət Fondu - Ermənistan", deməl olar ki, 2018-ci ildə qarşısına qoyduğu əsas məqsədə çataraq bu kasıb postsovet ölkəsində hakimiyyətə nəzarət imkanları qazanıb. Hayastan hakimiyyətinin Soros Fondunun təsir dairəsində olduğu heç kimə sirr deyil. Paşinyanın verdiyi qərarlar və kadr təyinatları da bunun əyani sübutudur. Paşinyan hakimiyyəti hələ də bütün mənada Soros Fonduna bağlıdır.

Təsadüfi deyildir ki, onun hakimiyyətə gəlişindən sonra Soros bu ölkəyə daha çox vəsait ayırmağa başlayıb. Təhlillər göstərir ki, fond bir çox postsovet ölkəsində "məxməri inqilab" etmək üçün səy göstərib, amma onun ən uğurlu olduğu ölkə Hayastandır. Görünən həm də odur ki, Sorosun idarəsində olan Paşinyan və komandası artıq demokratiya adı altında ölkədə avtoritar rejim yaradıb.

Hayastanda baş nazir Nikol Paşinyanın parlamentdə təmsil olunan tərəfdarlarının arasında uzun illərboyu birbaşa Soros Fondunun maliyyəsi ilə yaşayan, fəaliyyət göstərən deputatlar var. Fondla dolayısı ilə əlaqəsi olan deputatların sayı 50-yə yaxındır. Soros Fondu tərəfindən Hayastanda fəaliyyət göstərən 200-dən çox təşkilata 1997-ci ildən 2018-ci il inqilabına qədər 48 milyon dollardan artıq vəsait ayrılıb. Fondun maliyyələşdirdiyi təşkilatların çoxsaylı nümayəndələri hazırda Hayastanda yüksək dövlət vəzifələrində təmsil olunurlar.

Kremlin isə Paşinyan hakimiyyətinin Qərbin xeyrinə seçimi ilə barışacağı qətiyyən inandırıcı görünmür. Böyük ehtimalla Rusiyanın yaxın vaxtlarda Hayastana təzyiq prosesi intensiv xarakter almağa başlaya bilər. Çünki Qərbin Hayastanda peyda olması Rusiyanın geopolitik maraqları ilə yanaşı, hərbi mənafelərinə sarsıdıcı zərbə vəd edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# PUA bölmələri ilə təlim-məşq uçuşları icra edilib

Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrində (HHQ) pilotsuz uçuş aparatları (PUA) bölmələri ilə təlim-məşq uçuşları yerinə yetirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, PUA heyətləri müəyyən edilmiş marşrutlar üzrə hava kəşfiyyatının aparılması, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin olunaraq dəqiq aviasiya zərbələri ilə məhv edilməsi, eləcə də digər fəaliyyətləri yerinə yetiriblər.



Təlimdə qarşıya qoyulan bütün tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Azərbaycan qlobal enerji keçidi çağırışlarına cavab olaraq uğurla "yaşıl enerji" layihələri həyata keçirir. Abşeronun və bir çox digər bölgələrin bol günəşi, şıltaq Xəzərin və yüksək zirvəli dağların küləkləri ölkəmizə bu sahədə də nailiyyətlər qazanmağa imkan verir. Prezident İlham Əliyevin yaratdığı beynəlxalq tərəfdaşlıq platforması, xarici investorlarla əməkdaşlıq sayəsində həmin imkanlardan səmərəli istifadə olunmağa başlanıb və ilk nəticələr fərəhlidir.**



## Qədim "qara qızıl" diyarı müasir "yaşıl enerji" ölkəsinə çevrilir

### Azərbaycan bu sahədə də önə çıxır

Bir neçə ay əvvəl Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən "Qaradağ" Günəş-Elektrik Stansiyası müvəffəqiyyətlə istifadəyə verildi. Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti ilə külək enerjisi layihəsinin icrası davam edir. İşğaldan azad olunmuş Cəbrayıl rayonunda bp şirkəti ilə birlikdə 240 meqavatlıq günəş-elektrik stansiyasının tikintisi planlaşdırılır. Digər bir sıra enerji şirkətləri ilə birgə həm quruda, həm də dənizdə günəş və külək enerjisi istehsalı layihələri nəzərdə tutulur.

Dövlətimizin başçısı işğaldan azad olunmuş əraziləri "yaşıl enerji" zonası elan edib. Naxçıvan Muxtar Respublikasında da bərpaolunan enerji layihələri həyata keçirmək üçün geniş imkanlar var. Bu baxımdan Xəzərin küləyi də çox dəyərlidir. Prezident növbəti 5-6 ildə 10 qiqavat həcmində günəş və külək enerjisi istehsal etməyin planlaşdırıldığını bildirib. Artıq külək və günəş enerjisi layihələrinə dair müqavilə və anlaşma memorandumları imzalanıb. Bu, Azərbaycana yanacaq enerjisindən bərpaolunan enerjiyə rahat keçid imkanı verəcək. Beləliklə, Avropadakı istehlakçılar "yaşıl enerji" ilə də təmin ediləcək.

Xatırladaq ki, keçən il dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Prezident İlham Əliyevin sözləri ilə desək, bu, Gürcüstanı, Azərbaycanı, Rumıniyanı və Macarıstanı daha sıx bağlayan bir layihə olacaq.

Bu il noyabrın 21-də isə Macarıstanın paytaxtı Budapeşt şəhərində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin beşinci iclası keçirilib. Tədbirdə Azərbaycan energetika naziri Pərviz Şahbazov, Macarıstan xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstan Baş nazirin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniya energetika naziri Sebastian Burduja tərəfindən təmsil olunub. Görüşdə eləcə də Bolqarıstanın, Avropa Komissiyasının, 4 ölkənin ötürücü sistem operatorlarının və "CESI" şirkətinin nümayəndələri də iştirak ediblər.

İclasda Azərbaycanda bərpaolunan enerji potensialının reallaşdırılması və "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin inkişafının cari vəziyyətindən geniş bəhs olunub. Bir neçə ölkəni, iki dənizi birləşdirən marşrutlarla Xəzərin "yaşıl enerji" potensialını Avropada təchizatın təhlükəsizliyinin gücləndirilməsinə və təmiz enerji keçidinə yönəldən bu strateji layihənin icrasının sürətləndirməyin əhəmiyyəti vurğulanıb. Bildirilib ki, təxminən bir il əvvəl sözügedən ölkələr vahid məvqedən çıxış edərək "yaşıl enerji" dəhlizi təşəbbüsü üzrə sıx əməkdaşlığa hazır olduqlarını Avropa İttifaqının hər yüksək səviyyədə təsdiqləyiblər.

Budapeştdə həmçinin növbəti addım olaraq Bakıda ötürücü qurumların arasında Birgə Müəssisənin yaradılması məqsədilə görüşün keçirilməsi razılaşdırılmışdı. Bu xüsusda dekabrın 18-də "Azərenerji"nin təşkilatçılığı ilə düzənlənən tədbirin məqsədi tərəflərin məsul qurumları arasında ilk işçi görüşün keçirilməsi və layihənin icrası ilə bağlı hüquqi və digər praktiki aspektlərin müzakirəsi olub. Görüşdə birgə müəssisənin yaradılması və layihənin davamı üçün yol xəritəsi ətrafında geniş fikir mübadiləsi aparıldı. Bu formatda növbəti görüşün Gürcüstanda keçirilməsi razılaşdırıldı.

Bütün bunlar Azərbaycanın "yaşıl enerji"nin təchizatçısına çevrilmək planlarının tərkib hissəsidir. Belə ki, planlar geniş, işlər çoxşaxəlidir. Cari il dekabrın 15-də Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistanın müvafiq nazirliklərinin rəhbərlərinin görüşündə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, o cümlədən "yaşıl enerji"nin ixracı sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tutan Birgə Kommünike qəbul edilib.

Birgə Kommünike bu il noyabrın 14-də paytaxtımızda Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında Mərkəzi Asiya ölkələrindən respublikamızın ərazisi vasitəsilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirəsi aparılmış üçtərəfli görüşün nəticəsi olaraq qəbul edilib. Sənəddə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl hidrogen" və "yaşıl ammonyak"ın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olunub. Sənədə əsasən, tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin icrası ilə əsaslandırılmasına hazırlıqla bağlı razılığa gəliblər. Birgə Kommünikeyə uyğun olaraq regionda üçüncü ölkələr bu layihədə iştirak edə bilərlər.

Bakıda bu il dekabrın 15-də "Yaşıl enerji məkanı" İşçi qrupunun növbəti iclası da keçirilib. İclasda paylayıcı şəbəkədə elektrik təchizatının yaxşılaşdırılması, elektroenergetika sistemində müstəqil təchizatçıların fəaliyyətinin təşviq edilməsi, bərpaolunan enerji infrastrukturunun genişləndirilməsi, bu sahədə informasiya sisteminin yaradılması, hidrogenin istehsalı sahəsi, istixana effekti yaradan qazların inventarlaşdırılması, energetika sektorunda karbon tutulması, enerji səmərəliliyinin təmin edilməsi və digər tədbirlərlə bağlı İşçi qrupu üzvlərinin rəy və təklifləri dinlənilib. Eləcə də strategiya sənədi üzrə növbəti illərdə icra ediləcək tədbirlər və hədəflər, onların həlli yolları ətrafında müzakirələr aparılıb.

Beləliklə, indi Azərbaycan Avropaya "yaşıl enerji" körpüsü salmağa başlayır. Görülən işlər, gerçəkləşən tədbirlər də ölkəmizin inamlı addımlarla bu məqsədə doğru irəlilədiyini göstərir. Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə Prezident İlham Əliyev demişdir: "Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ağdamda Avtomatika və Telemexanika İstehsalı Zavodu gələn il işə salınacaq

**Ağdam Sənaye Parkında qeydiyyatdan keçən 25 rezidentin 10-dan çoxu tikinti-quraşdırma işlərinə başlayıb. 2024-cü il yaz aylarının sonuna bir sıra müəssisələrin açılışı gözlənilir. Onlardan biri də "Rail Trans Service" MMC tərəfindən inşa olunan Avtomatika və Telemexanika İstehsalı Zavodudur.**

Zavodun tikintisi üçün Ağdam Sənaye Parkı ərazisində 0,90 hektar torpaq sahəsi ayrılıb. Müəssisənin tikinti sahəsi 2738,9 kvadratmetrdir.

Layihə rəhbəri Seymur Qəhrəmanov bildirib ki, Avtomatika və Telemexanika İstehsalı Zavodunun tikintisinə cari ilin oktyabr ayında başlanılıb. AZƏRTAC xəbər verir ki, 2024-cü ilin may ayında inşaat işlərinin başa çatdırılaraq zavodun işə salınması nəzərdə tutulur. Zavodda dəmir yolu siqnal sahəsi üçün avadanlıqlar istehsal olunacaq. Müəssisədə 45 nəfərin işlə təmin olunması planlaşdırılır.



Qeyd edək ki, Ağdam Sənaye Parkına investorlar tərəfindən 175 milyon manatdan çox investisiyanın yatırılması, 1600-dən artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hazırda 10-dan çox sahibkarlıq subyekti aktiv tikinti-quraşdırma, digərləri isə layihələndirmə və ərazinin topoqrafik işlərini həyata keçirir.

## 153,2 min pensiya, müavinət və təqaüd proaktiv təyin olunub

**Cari ilin yanvar-noyabr ayları ərzində 153,2 min pensiya, müavinət, təqaüd təyinatı elektron sistem üzərindən proaktiv qaydada aparılıb. Onlardan 28,2 mini pensiya, 125 mini müavinət və təqaüd təyinatı olub.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ilin əvvəlindən başlayaraq pensiyaların, sonralar müavinət və təqaüdlərin təyinatı elektronlaşdırılıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, həmin e-təyinat sistemləri vətəndaşlara hüquqları yarandığı halda müraciət olunmadan və sənəd tələb edilmədən qeyd olunan sosial ödənişlərin e-sistem üzərindən təyinatının aparılmasını təmin edir.

Ümumilikdə ötən dövrdə 153,2 min pensiya, müavinət, təqaüd proaktiv təyin olunub.

## Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçiriləcək

**Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif istiqamətlər üzrə genişləndirilməsi imkanları nəzərdən keçiriləcək, investisiya üzrə əməkdaşlıq sazişi və müqavilələri imzalanacaq.**

Dekabrın 21-də Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Türkiyə Respublikası Prezidentinin Maliyyə ofisinin, Türkiyənin Ticarət Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin birgə təşkilatçılığı ilə Bakıda Ulu Öndər Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümünə həsr olunmuş Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçiriləcək.

Tədbirdə hər iki ölkədən dövlət qurumları və özəl sektoru təmsil edən 600-dən çox nümayəndə iştirak edəcək. Azərbaycan-Türkiyə əməkdaşlığının müxtəlif istiqamətlər üzrə genişləndirilməsi imkanları nəzərdən keçiriləcək, investisiya üzrə əməkdaşlıq sazişi və müqavilələri imzalanacaq.

Forum çərçivəsində investisiya, ticarət, kənd təsərrüfatı, müdafiə sənayesi, "yaşıl" enerji, sağlamlıq turizmi sektorlarını əhatə edən panel sessiyalar keçiriləcək. Bununla yanaşı, sahibkarlar arasında B2B görüşlər təşkil olunacaq.

## Qazaxıstanın Aktau limanı Azərbaycan üzərindən neft ixracı sayəsində yük dövriyyəsini artırıb

**Aktau-Bakı-Aktau marşrutu üzrə yük dövriyyəsinin həcmi 2023-cü ilin yanvar-oktyabr ayları ərzində 1,728 milyon ton olub. Bu barədə Trend-ə Aktau limanındakı mənbədən bildiriblər.**

Yük dövriyyəsinin əsas hissəsini 1,311 milyon ton olmaqla neft təşkil edib. Həmçinin 114 min ton metal, 59 min ton neft koksu və 13 581 TEU konteyner daşınıb.

Mənbənin sözlərinə görə, qeyd olunan dövrdə Aktau limanının ümumi yük dövriyyəsi 3,785 milyon ton olub ki, bu da 2022-ci ilin analoji dövrü ilə müqayisədə (3,109 milyon ton) 22 faiz çoxdur. Belə ki, bu ilin ilk 10 ayı ərzində 3,012 milyon ton neft aşırılıb ki, bu da 2022-ci ilin analoji dövrü ilə müqayisədə (1,957 milyon ton) 54 faiz çoxdur.

Qeyd edək ki, Aktau limanı Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (TBNM və ya Orta dəhliz) tərkib hissəsidir.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) və "KazMunayQaz" Milli Şirkəti Tengiz yatağından Bakı-Tbilisi-Ceyhan istiqamətində ildə 1,5 milyon ton neftin nəqlini nəzərdə tutan saziş imzalayıb.

Orta dəhliz Çin və Aİ ölkələrinin konteynerlərlə dəmir yolu yükdaşımaları şəbəkələrini Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa ölkələri vasitəsilə birləşdirir.

Çoxtərəfli, multimodal nəqliyyat infrastrukturu Xəzər dənizi və Qara dənizin bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu sistemləri ilə birləşdirir.



Orta dəhliz Çindən Türkiyəyə, eləcə də Avropa ölkələrinə və əks istiqamətdə yük axınının artmasına səbəb olur. Bu dəhlizlə hərəkət edən qatarlar yükləri Çindən Avropaya orta hesabla 20-25 gün ərzində çatdırır və bu, qeyd olunan nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

## "Yenilikləri fürsətə çevir!"

### Azərbaycan Karyera İnkişaf Forumunun 3-cü iclası bu şüar altında baş tutub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə növbəti dəfə Azərbaycan Karyera İnkişaf Forumu keçirilib.**

Forumda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, elm və təhsil nazirinin müavini İdris İsayev, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Milli Məclisin deputatları, dövlət və özəl qurumların nümayəndələri, karyera məsləhətçiləri, yerli və xarici spikerlər, insan resursları mütəxəssisləri, top menecerlər, təhsil ekspertləri və inkişaf mentorları iştirak edir.

"Yenilikləri fürsətə çevir!" devizi ilə təşkil olunan builki forumun məqsədi karyera inkişafı üzrə yerli və qlobal nailiyyətləri, müasir yanaşmaları, rəqabətli mühitdə kadr ehtiyatının formalaşdırılması üçün effektiv ali təhsil strukturunun qurulması mexanizmlərini, daim dəyişən dünyada tələb olunan bacarıqları və karyera sahəsində müasir tələb-təklif trendlərini analiz edərək düzgün nəticə çıxarmağa imkan yaratmaqdır.

Forumda çıxış edən Anar Əliyev Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq ölkəmizdə son illər aparılan sosial islahatlar, əmək bazarının inkişafı, aktiv məşğulluq proqramlarının genişləndirilməsi üçün atılan addımları diqqətə çatdırıb. O, gənclərin daim yenilənən əmək bazarının tələblərinə uyğun peşə və ixtisaslara yiyələnməsinin, ixtisaslı işçi qüvvəsinin artırılmasının məşğulluq sahəsində mühüm hədəflərdən olduğunu qeyd edib.

Forumda məşğulluq xidmətləri sahəsində innovativ həllərin tətbiqi və rəqəmsallaşdırma işlərindən bəhs olunub. Son 5 ildə məşğulluq orqanları tərəfindən 1 milyondan çox şəxslə müxtəlif istiqamətlər üzrə iş aparıldığı, peşə hazırlığı sisteminin təkmilləşdirilməsi və şəbəkəsinin genişləndirilməsi üçün aparılan işlər qeyd edilib. Peşəyönümü məsləhət xidməti sahəsində görülən tədbirlər diqqətə çatdırılıb.

Peşəyönümü məsləhət xidməti sahəsində bir sıra yeni layihələrin - "Alo Karyera", "CV yarat" platformalarının önəmi vurğulanıb. Peşəyönümü məsləhət xidməti və karyera planlamasının rolunun artırılması istiqamətində işlərin də davam etdirildiyi bildirilib.



Qeyd olunub ki, bu forum əmək bazarının mövcud vəziyyəti, gələcəyin ən vacib əmək bacarıqları və onlara yiyələnmək yolları barədə məlumatlığı artırmağa, bu mövzuda dövlət, biznes və qeyri-hökumət sektorları üçün ortaq müzakirə platforması yaratmağa imkan verir.

İştirakçılara Azərbaycan Karyera İnkişaf Forumunun təşkilatçılığının əhəmiyyətli mərhələləri və forumun əmək bazarındakı gələcək inkişaf üçün mühüm rola sahib olması ətraflı şəkildə nümayiş etdirilib, forumun hesabat videosu yayımlanıb.

Bildirilib ki, indiyədək təşkil edilən forumlar zamanı iştirakçılar arasında keçirilən sorğuların statistikasına əsasən, ümumi məmnuniyyət göstəricisi 88 faiz olub. İştirakçılar forumda müzakirə edilən mövzuların məzmununun 95 faizini iş mühitində tətbiq edə biləcəkləri bilik, bacarıq və həll üsullarından ibarət olduğu üçün faydalı hesab ediblər.

Daha sonra forumun birinci panelinə - "Müasir dövrün dəyişən əmək bazarında universitetlərin rolu" panelinə start verilib. "Effektiv Universitet mexanizminin qurulmasına təsir edən amillər" mövzusu ilə Nişantaşı Təhsil İdarə Heyətinin üzvü Burak Kılanç, "Sosial tərəfdaş - universitet əməkdaşlığının qarşılıqlı faydaları" mövzusu ilə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, "Tələbə və məzunların əmək bazarına çıxışını necə asanlaşdıraq?" mövzusunda isə Malayziya Sabah Fondu Universitetinin rektoru Rafiq İdris təqdimatlarla çıxış ediblər, panel üzrə müzakirələr və qiymətləndirmə keçirilib.

Tədbirin davamında "Dəyişən dünyada necə sağ qalaq?", "İş dünyasının gələcəyi və dəyişən tələblər" adlı panellər üzrə yerli və xarici spikerlərin iştirakı ilə müzakirələr keçiriləcək.

Qeyd edək ki, forumda müzakirə olunan mövzular üzrə tövsiyə sənədi hazırlanaraq universitetlərə, dövlət və özəl qurumlara təqdim olunacaq.





# Mədəniyyət





Tarixi keçmişimiz

## "Mədəni irs" Forumu maddi və mənəvi dəyərlərimizin təbliğinə təkan verəcək

Ölkəmizdə mədəni irsin qorunmasına və təbliğinə daim böyük diqqət və qayğı göstərilir. Bu məqsədlə müvafiq tədbirlər həyata keçirilir. Elə bu diqqət və qayğının nəticəsidir ki, şərəfli tarixi keçmişimizi özündə yaşadan maddi və mənəvi dəyərlərimiz etibarlı şəkildə qorunub saxlanılır. Dekabrın 18-də Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Mədəni irs" mövzusunda forumun keçirilməsi də bu sahəyə olan diqqət və qayğının bariz nümunəsidir.



"Mədəni irs" Forumu Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində təşkil olunub. Forumda dövlət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, mədəni irs üzrə mütəxəssislər iştirak edirdilər.

Mədəni irsimizin qorunmasına, təbliğinə həsr olunmuş forum "Gülüstan" sarayında öz işinə başlayıb. Mərasim başlamazdan əvvəl iştirakçılar sarayın foyesində milli tətbiqi-dekorativ sənət nümunələri - misgərlik, xalçaçılıq, kəlağayı sənəti və təkəlduz örnəklərindən ibarət sərgi ilə tanış olublar. Sərgidə işğaldan azad olunmuş Qarabağa Mədəniyyət Nazirliyinin dəstəyi ilə təşkil edilən səfərlər zamanı sənətkarların ərsəyə gətirdikləri əl işləri yer alıb. Ekspozisiyada həmçinin Heydər Əliyev Fondu tərəfindən nəşr edilən, Qarabağdakı mədəni irsimizi əks etdirən kitab-albom da nümayiş olunub. İngilis dilində çap olunan kitab-albomda işğaldan azad edilmiş ərazilərimizdəki sənət nümunələrimiz, onların real təsvirləri verilib.

Rəssamların işləri arasında Cavanşir Məmmədovun "Qarabağ, əziz Şuşa, sən azadsan!", Samir Səmədovun "Xəzinə yüklü Qarabağ gözəli", Kamran Əsədovun "Zəfər" və digər müəlliflərin rəngkarlıq və heykəltaraşlıq nümunələri iştirakçılarda böyük maraq doğurub. Sərgidə həmçinin iştirakçılara qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılmağa cəhd göstərilən əşyalar - maddi-mədəniyyət nümunələri də təqdim edilib. Burada zinət əşyalarından silah növlərinə, qiymətli əlyazmalardan musiqi alətlərinə qədər nümayiş olunan müxtəlif əsərlər maraqla qarşılanıb. Sərgidə həmçinin təkəlduz tətbiqi sənət növü, misgərlik, zərgərlik, quramalar, təzhib, balaban və sədəfdüzmə nümunələri də nümayiş etdirilib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova forumda çıxış edərək bildirib ki, Azərbaycanda mədəni irsin qorunması Ümummilli Lider Heydər Əliyevin ən çox diqqət göstərdiyi sahələrdən biri olub: "Ulu Öndər deyirdi ki, istənilən xalqı dünyada tanıdan ən önəmli xüsusiyyət onun mədəniyyətidir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir. Mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib".

Nazir müavini 30 ilə yaxın erməni işğalında qalmış ərazilərdəki mədəniyyət abidələrindən də söz açaraq qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. İşğal dövründə mədəniyyət abidələri məqsədli şəkildə dağıdılıb, vandalizmə məruz qalıb, 47 abidə Yer üzündən tamamilə silinib. 2020-2022-ci illərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən 433 tarix-mədəniyyət abidəsinə baxış keçirilib, eləcə də həmin ərazilərdə yerləşən, dövlət qeydiyyatında olmayan tarixi, memarlıq, arxeoloji əlamət daşıyan 182 obyektin - yeni aşkar olunmuş abidənin monitorinqi aparılıb. Hazırda Azərbaycanda dövlət mühafizəsinə götürülmüş 6 min 308 abidə mövcuddur.

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadənin də çıxışı forum iştirakçılarının diqqətini çəkib. Mədəni irsimizdən söz açan görkəmli memar bildirib ki, Azərbaycan xalqının tarixi irsi dəryalar qədər hədsiz və sərhədsizdir. "Tarixi irsimiz təkcə bu torpaqlarda yox, dünyanın bir çox ölkəsində mövcuddur. Bu, azərbaycanlılar üçün çox qürurverici bir haldır", - deyə o, fikirlərini tədbir iştirakçılarına çatdırıb. Tarixi irsimizin öyrənilməsinin qarşımıza böyük məqsədlər qoyduğunu qeyd edən Memarlar İttifaqı İdarə Heyətinin sədri bunların reallaşmasında Ümummilli Lider Heydər Əliyevin böyük rolu olduğunu xüsusi vurğulayıb: "Bu gün bu işi Prezident İlham Əliyev uğurla davam etdirir. Mədəni irsimizin qorunmasında Mehriban xanım Əliyevanın və onun başçılıq etdiyi Heydər Əliyev Fondunun da böyük rolu var".

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov "Mədəni irs" Forumunda iştirakın hər kəs üçün vacib məsələ olduğunu bildirib: "Tədbirin Ulu Öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində keçirilməsi xüsusi məna daşıyır. Ulu Öndərin sənətə, yaradıcılığa olan marağını, rəssamlara göstərdiyi diqqəti xüsusi qeyd etmək lazımdır. Hazırda isə Prezident İlham Əliyev Azərbaycanı bütün platformalarda yüksək zirvələrə qaldırıb. Bizim də üzərimizə düşən vəzifə öz sənətimizi daha da inkişaf etdirməkdir".

Forumda "Azərbaycanın daşınmaz tarixi-mədəni irsinin tədqiqi və mühafizəsi problemləri", "Postkonflikt dövründə Azərbaycanın tarixi-mədəni və təbii irsinin qorunması məsələləri", "Azərbaycanda daşınar mədəni irs: muzey işi və müasir çağırışlar", "Qeyri-maddi mədəni irsin mühafizəsi və müasir çağırışlar", "Təsviri sənət və müasir çağırışlar", "Mədəni irs və müasir memarlıq - Şəhərsalma prinsipləri" və sair mövzular üzrə panellər təşkil olunub. Panellər zamanı müvafiq sahələrin mövcud vəziyyəti və perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb, qərarlar qəbul olunub.

Ölkəmizdə ilk dəfə keçirilən "Mədəni irs" Forumu mədəniyyətimizin inkişafına müsbət təsir göstərəcək. Forumda mütəxəssislər tərəfindən irəli sürülmüş ideyalar, verilən təkliflər, söylənilən fikirlər əlaqədar təşkilatlar tərəfindən dərindən öyrəniləcək və layiqincə qiymətləndiriləcək. Deməli, maddi və mənəvi dəyərlərimiz bundan sonra daha da etibarlı şəkildə qorunacaq, daha da geniş təblig olunacaq. Dünya ictimaiyyəti mədəni irsimizi, xalqımızın mədəni tarixi keçmişini dərindən öyrənəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Səhnə xadimlərimiz

## "Mənim ən böyük mükafatım Qarabağın azadlığa qovuşmasıdır"

Onu teatr sənətinin ləyaqət kodeksi adlandıranlar da, dostluğun simvolu hesab edənlər də var...

Dostları, yaxından tanıyanlar ilk növbədə "sözünün ağası, qədirbilən, dəyər verməyi bacaran, təmənnasız adam" kimi xarakterizə edib, "gözütox kişidir" fikri ilə sözlərini tamamlayırlar ...



Qarabağlılarsa onun haqqında söz düşəndə "Azad müəllim Qarabağın kövrək ruhudur" ifadəsini daha çox işlədirlər... Söhbət Azərbaycan Respublikasının Əməkdar artisti, bədii qiraət ustası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru Azad Şükürovdan gedir.

Azad Hətəm oğlu Şükürov 1959-cu il fevralın 11-də Ağdam rayonunun Muğanlı kəndində anadan olub. Onunla redaksiyamızda görüşüb ömrün geridə qalan illərinə birgə nəzər yetirdik. Deyir ki, hələ orta məktəbdə oxuduğu illərdə bədii özfəaliyyət dərnəyinin fəal üzvlərindən olub. "Aktyorluq sənətinin taleyi də belədir, əvvəl valideynlərin sənin bu sənətə gedən yolunu bağlamaq istəyirlər, sonra da səninlə, sənətinlə fəxr edir, qürurla "o, mənim oğlumdur" deyirlər. Bu da səbəbsiz deyil. Günahı özümüzdə axtarmalıyıq. Açıq danışacağam, bəzi aktyorlar, ümumiyyətlə, sənət adamları özlərini cəmiyyətə, xalqa, onları səhnədən, ekrandan tanıyan, sevən adamlara layiqincə təqdim edə bilmirlər. Özlərini, bu müqəddəs peşəni gözdən salırlar. Səhnədə böyük obrazlar yaradan və bununla xalqın sevimlisi olanlar bir də görürsən ki, real həyatda ona olan sevgiyə, hörmətə, ən başlıcası isə özünə dəyər verə bilmir. Bu səbəbdən də bəzən valideynlər bu cür qeyri-ciddi sənət sahiblərini görüb, incəsənət sahəsinə üz tutmaq istəyən övladlarına mane olmağa çalışırlar.

### Aktyorluq fədakarlıq tələb edir

Azad müəllim deyir ki, indiki zamanda aktyorluq sənəti maraqlı olsa da, pul gətirən iş deyil. İnsanlar daha çox gəlirli sahəyə üz tutur, daha yaxşı, qayğısız yaşamaq istəyirlər. Aktyorluq sənəti fədakarlıq tələb edir. Aktyor olmaq istəyən bilməlidir ki, şöhrətdən, tanınmaqdan başqa, maddi çətinliklər, digər görünməyən problem və qayğılarla da üzləşəcəklər. Bu sənəti seçən səbirli olmalı, tələsməməlidir. Həqiqi istedadın varsa, zamanla hər şeyə nail olacaqsan...

Aktyorluq arzusunu gerçəkləşdirmək üçün Bakıya gələn Azad Şükürov Xətai adına Mədəniyyət Sarayının nəzdində fəaliyyət göstərən Azərbaycan Xalq Teatrına üzv yazılıb. 1977-1981-ci illərdə isə Azərbaycan Dövlət İncəsənət İnstitutunun Aktyorluq fakültəsində - Rza Təhmasibin kursunda təhsil alıb. İnstitutu fərqlənmə diplomu ilə bitirən aktyor bir müddət Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında çalışıb. 1984-1990-cı illərdə isə Tədris Teatrında fəaliyyət göstərən aktyorun taleyinə Şuşa Dövlət Musiqili Dram Teatrında çalışmaq nəsib olub. 1992-2009-cu illərdə Bakı Bələdiyyə Teatrında fəaliyyət göstərən aktyor bu illəri aktyorluq fəaliyyətinin ən məhsuldar dövrü hesab edir:

- Şuşa Teatrında işləyərkən 1990-cı ildə Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasından iş təklifi aldım. O zaman heç ağlıma da gəlmirdi ki, həyatımı bu təhsil ocağında keçirməli olacağam. 1992-ci ildə respublikanın Xalq artisti, görkəmli səhnə ustası Amaliya Pənahova məni Bakı Bələdiyyə Teatrında işə dəvət etdi. Təbii ki, bu, mənim universitetdə işləməyimə mane olmurdu...

### Bəxti gətirən aktyor

Azad Şükurov deyir ki, o, özünü bəxtli aktyor hesab edir. Bələdiyyə Teatrında bir aktyor kimi istedadını göstərmək üçün çox gözəl şərait var idi. Teatrın rəhbərliyi, rejissorları xarakterinə, aktyorluq potensialına uyğun rolları ona tapşırırdılar. Aktyor üçün rolun böyüyü, kiçiyi olmur. Gərək obraza həyat verməyi bacarasan: "Yaratdığım bütün obrazların üzərində çalışıb əziyyət çəkmişəm. Amma Nəriman Nərimanovun "Nadir şah" əsərindəki Nadir şah obrazının mənim üçün bir ayrı özəlliyi var. Bu tarixi qəhrəmanımıza səhnə həyatı verərkən Qarabağ illər idi ki, işğal altındaydı. Hər dəfə qılıncın qəbzəsindən tutanda gözümün önünə Qarabağ, işğal olunmuş ərazilərimiz gəlirdi. Nadir şah hakimiyyətə çətin bir vaxtda, dövlət təhlükədə olanda gəlmişdi. Bu tarixi qəhrəmanımız həm dövləti xilas edə, həm güclü ordu, donanma yarada bilmiş, həm də Azərbaycanı qüdrətləndirmişdir...

Şükürlər olsun ki, Azərbaycan qəhrəmanlıq tarixini bərpa etdi. Qarabağı xilas edən Müzəffər Ali Baş Komandanımız İlham Əliyev daha böyük bir tarixi qəhrəmanlığa imza atan sərkərdə olduğunu təsdiqlədi. Güclü ordu yaradıb Qarabağı düşməndən təmizlədi, bütün ərazilərimizdə suverenliyimizi bərpa etməklə, dünyanın böyük dövlətlərinin bu torpaqlarda həyata keçirmək istədikləri çoxəsrlik bir layihəni tarixin arxivinə atdı. İlham Əliyev bu günün böyük qəhrəmanıdır".

Azərbaycan İncəsənət Universitetinin Musiqili teatr aktyoru kafedrasının müdiri professor Azad Şükürov bir sıra ədəbi-dram verilişlərində, dublyaj redaksiyasında fəaliyyət göstərir, o, qiraət ustasıdır. 2003-cü ildə İranda keçirilən I Tehran Beynəlxalq Komediya Festivalında qızıl medala layiq görülüb. 2023-cü ilin 13 dekabrında isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi münasibətilə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif edilib.

Azad müəllim deyir ki, o, hələ aktyorluq imkanlarından tam istifadə etməyib: "Son rolum Şuşada Vaqif Poeziya Günlərində İlqar Fəhminin "Vaqif dünyası" əsərində Vaqif obrazı olub. Canlandırmaq istədiyim obrazlar var".

### Yaradıcı təşkilatlar qələbəmizi layiqincə təqdim edə bilmirlər

Söhbət zamanı professor çox ehtiyatla vacib bir məqama da toxundu. Qarabağda qazanılan böyük qələbə, müharibə zamanı göstərilən böyük qəhrəmanlıqlar haqqında daha sanballı, ciddi bədii sənət əsərlərinin yaranmasına ehtiyac var.

Azad müəllim deyir ki, etiraf etməliyik ki, Azərbaycan mədəniyyəti, incəsənəti, yazıçılarımız, aktyorlarımız Qarabağı, torpaqlarımızı işğaldan azad edən, bu yolda canını, sağlamlığını qoyan qəhrəmanlarımıza borcludur. Onların göstərdiyi əfsanəvi şücaətləri layiqincə əks etdirən əsərə rast gəlmirik. Azərbaycanda yaradıcılıq imkanları geniş olan, istedadları ilə dünyada tanınan bacarıqlı söz, qələm adamları çoxdur. Güman edirəm ki, zaman keçdikcə yaradıcı insanlarımızın təfəkkürü, düşüncəsi Qarabağı xilas edənlərin qəhrəmanlığına qiymət vermək gücündə də olacaq.

Azad müəllim söhbət əsnasında xüsusi vurğuladı ki, ömründə çox şad xəbərlər eşidib, çox mükafatlar, fəxri adlar alıb: "Həyatımda eşitdiyim ən gözəl xəbər Şuşanın azad olunması, aldığım ən müqəddəs mükafat isə Qarabağın düşməndən xilası idi. Bir qarabağlı kimi bundan böyük mükafat tanımıram. Müzəffər bir xalqın oğlu olmaq adından da böyük fəxri ad olar?"

Azad Şükürov teatr sənətinin özəlliklərindən danışarkən dedi ki, teatr düşünmək, tərbiyə etmək sənətidir. Təsadüfi deyil ki, bir zamanlar televiziyalara "telegüzgü" də deyilirdi. İndi televiziyaya çıxanlar, bəzi aparıcılar, aktyorlar ekrana çıxmamışdan hazırlaşmaq, tamaşaçıya nə deyəcəyini, nə verəcəyini öyrənmək, yaddaşlarını təzələmək əvəzinə yalnız güzgü qarşısında durub nə geyinəcəklərini düşünürlər. Təəssüf ki, bu cür adamların geyimləri də bəzən utandırıcı olur. Özünü sənətə, səhnəyə, tamaşaçıya həsr edən adamın gərək ilk növbədə sənəti, yüksək mədəniyyəti olsun. İnsanlar ciddi sənəti daha yaxşı qəbul edirlər: "Universitetimizdə 1968-ci ildə məhz Səhnə danışığı kafedrası yaradılıb. Bunu niyə deyirəm? Öyrənmək heç vaxt gec deyil. Öyrənmək istəyənlər nə zaman müraciət etsələr, qapımız hər zaman üzlərinə açıqdır. Gəlsinlər, müraciət etsinlər... Belələrinə həm özlərini necə aparmaq lazım olduğunu, həm də səhnə danışığını öyrədək".

Professor Azad Şükürovla söhbət zamanı bir daha əmin olduq ki, şəxsiyyəti, ziyalılığı ilə seçilən insanlar sənətlərini, peşələrini də ucalda bilirlər. Azad Şükürov kimi...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

Ustad sənətkarlarımız

## Musiqidə yaşanan ömür

Xalqımızın minillik mənəvi yaddaşının yadigarı olan muğam qədim və zəngin tariximizin bizə gəlib çatan ən nadir incilərindəndir. İnsana qəhrəmanlıq, vətənpərvərlik, özünüdərk hisslərini aşılayan, ruhən saflaşdıraraq mənəvi zənginlik dünyasına aparan muğam fəlsəfəsi xalqımızın dünya mədəni irsinə bəxş etdiyi sonsuz bir xəzinədir.

Şübhəsiz ki, xalqımızın ruhunda, qan yaddaşında, mənəvi dünyasında əbədiyaşarlıq ömrü qazanaraq əsrlərdən-əsrlərə yol açan muğam sənətinin bizə qədər gəlib çıxmasında mahir muğam ifaçılarının, xanəndələrin xidmətləri danılmazdır. Musiqi ifaçılığı sənətinin zirvəsi hesab edilən xanəndəlik xüsusi istedad, səs, ifa tərzi tələb edən sənət növüdür. Özünəməxsus ifa tərzi, səs diapazonu, səhnə mədəniyyəti ilə seçilən, adı mədəniyyət tariximizin qızıl səhifəsinə əbədi olaraq həkk olunan professional muğam ifaçısı Tükəzban İsmayılova məhz belə bir sənətin daşıyıcısı olmuşdur.

1923-cü ilin dekabrında Bakıda dünyaya gələn Tükəzban İsmayılova erkən yaşlarından həyatını muğam sənətinə bağlamışdır. Ömrünün yeniyetmə və gənclik çağları müharibə illərinə düşən gənc istedad 1939-1944-cü illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda təhsil almaqla bərabər, Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi əmək fəaliyyətinə başlamışdır. O, əyninə əsgər paltarı geyərək İkinci Dünya müharibəsi illərində təşviqat briqadasının tərkibində cəbhə bölgələrində rəngarəng mahnılar, təsniflər, muğamlar ifa etmişdir.

1944-cü ildə Azərbaycan Radio Komitəsinin xor kollektivində müğənni kimi işə başlayan Tükəzban İsmayılova sonralar uzun illər ifaçılıq sənətini Azərbaycan Dövlət Filarmoniyasında solist kimi davam etdirmişdir. Xanəndə 1978-ci ildən ömrünün sonunadək Azərbaycan Dövlət Qastrol-Konsert Birliyinin solisti olmuşdur.

Tükəzban İsmayılova yalnız ifaçılıqla məşğul olan sənətkarlardan deyildi. Onun musiqi, muğam sənətinin gənc nəslə ötürülməsində də bir pedaqoq-xanəndə kimi müstəsna xidmətləri vardı. Ömrünün 60 ildən artıq bir dövrünü muğama həsr edən Tükəzban İsmayılova musiqimizin inkişafı naminə böyük əmək sərf edən nadir sənətkarlardandır. 1994-2004-cü illərdə İncəsənət Gimnaziyasında pedaqoji fəaliyyət göstərən Tükəzban xanım istedadlı xanəndə nəslinin yetişməsində böyük əmək sərf etmişdir.

Müğənni oxuduğu klassik Azərbaycan muğamlarına və xalq mahnılarına öz möhrünü vururdu. İfa etdiyi muğam və təsniflər, mahnılar xalq arasında Tükəzban İsmayılovanın mahnısı kimi tanınaraq həyata vəsiqə alırdı. Onun özünəməxsus üslubda ifa etdiyi "Qatar", "Xaric segah", "Şahnaz" və digər muğam və mahnılar milli musiqi xəzinəmizi daha da zənginləşdirmişdir.

Tükəzban İsmayılova mədəniyyətimizdə öz dəstxəti ilə seçilən sənətkarlardandır. Bir çox mahnı və təsnif məhz onun təkrarsız ifası ilə tanınaraq geniş yayılmışdır. Xanəndə repertuarında Azərbaycan bəstəkarlarının mahnılarına da geniş yer verirdi. Özünəməxsus ifa tərzi ilə seçilən müğənninin ifa etdiyi "Kürdün gözəli", "Yeri, dam üstə yeri", "Qarabağ şikəstəsi", "Qaragöz" və digər adını çəkmədiyimiz mahnılar bu gün də yaşlı nəslin yaddaşında Tükəzban İsmayılovanın mahnıları kimi yaşayır.

O həm də Azərbaycanı dünyada təbliğ edən, bənzərsiz ifa tərzi ilə sevdirən azsaylı müğənnilərimizdən olmuşdur. Almaniya, Polşa, İraq, İran, Türkiyə, Misir, Əlcəzair və dünyanın müxtəlif ölkələrinə qastrol səfərləri zamanı Azərbaycan mədəniyyətini layiqincə təmsil edən sənətkar yüksək səhnə mədəniyyəti ilə seçilirdi.

1993-cü ildə Azərbaycan Respublikasının Xalq artisti adına layiq görülən xanəndə musiqi mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 1998-ci ildə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif edilmişdir.



Tükəzban xanımın Azərbaycan incəsənətinə göstərdiyi bənzərsiz xidmətlərindən bəhs edərkən onun Azərbaycan musiqisinin bənzərsiz ifaçılarından olan Xalq artisti İlhamə Quliyevanın anası olmasını da unutmaq olmaz. Bütün ömürlərini incəsənətimizin, musiqimizin inkişafına həsr edən bu ailənin mədəniyyət tariximizdəki yeri inkarolunmazdır.

Gözəl insan, sədaqətli ömür-gün yoldaşı olan Tükəzban İsmayılova bütün mənalı ömrünü sərf etdiyi səhnə həyatını həmişə onu tarda müşayiət etmiş Xalq artisti Həbib Bayramovun ölümündən sonra dayandırmışdır.

Tükəzban İsmayılova 2008-ci il martın 24-də vəfat etmişdir. Məzarı İkinci Fəxri xiyabandadır.

***E.SOLTANOĞLU,***
***"Azərbaycan"***

# Rusiyanın Samara Vilayətində Azərbaycan Mədəniyyəti Günləri keçirilib

Rusiyanın Samara vilayətində Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Tədbir Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə və "Samara Vilayətinin Azərbaycanlılar Liqası" İctimai Birliyinin 20 illiyinə həsr olunub.



AZƏRTAC vilayət hökumətinin saytına istinadla xəbər verir ki, Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində "Rusiya-Azərbaycan: dünən, bu gün, sabah" mövzusunda "dəyirmi masa" təşkil olunub, taleyi Rusiya ilə sıx bağlı olmuş Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında filmin təqdimatı keçirilib.

Samara Vilayətində 120-dən çox millətin nümayəndəsi yaşayır. Xalqların dostluğunun möhkəmlənməsində ictimai təşkilatlar və birliklər böyük rol oynayır. Azərbaycanlılar regionun ictimai həyatında fəal iştirak edir, onun mədəni ənənələrini zənginləşdirirlər. Belə ki, Azərbaycan Mədəniyyət Günlərinin Samarada əsas təşkilatçısı qismində çıxış edən "Samara Vilayətinin Azərbaycanlılar Liqası" İctimai Birliyi nəzdində "Xəyal" və "Alpan" peşəkar yaradıcılıq kollektivləri formalaşıb. Bu kollektivlər şəhərin və vilayətin mədəni tədbirlərində tez-tez iştirak edirlər.

Tədbirdə qonaq qismində Azərbaycandan və Samara ilə qonşu regionlardan olan təmsilçilər, İctimai Palatanın üzvləri, ictimai xadimlər, alimlər, yerli milli ictimai təşkilatların liderləri, Privoljye Federal Dairəsi regionlarının, Dağıstan Respublikası və Moskva şəhərinin Azərbaycan ictimai birliklərinin rəhbərləri iştirak ediblər.

Samara Vilayətinin qubernatoru Dmitri Azarovun adından tədbir iştirakçılarını qubernatorun birinci müavini - Samara vilayəti hökumətinin sədrinin vəzifəsinin icra edən Natalya Katina salamlayıb.

"Bizim regionda yaşayan azərbaycanlılar öz əcdadlarının mənəvi ənənələrinə əsaslanaraq, çoxmillətli quberniyamızın digər xalqlarının nümayəndələri ilə bu günün ən mühüm məsələlərini birgə həll edirlər. Siz öz tarixi Vətəninizlə möhkəm əlaqəni qoruyub saxlayaraq, ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin inkişafı üçün çox iş görürsünüz. Siz digər milli ictimai təşkilatlarla birgə böyük maarifləndirici işlər aparırsınız. Əminəm ki, irəlidə Samara vilayəti ilə Azərbaycan arasında millətlərarası sülhün qorunub saxlanılması, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi naminə birgə səmərəli fəaliyyətimizin böyük perspektivləri var", - deyə region rəhbərinin müraciətində bildirilir.

N.Katina "Samara Vilayətinin Azərbaycanlılar Liqası" İctimai Birliyinin sədri Şirvan Kərimova xalqlar arasında dostluq əlaqələrinin möhkəmlənməsinə verilən böyük töhfəyə görə minnətdarlığını bildirib. Samara şəhər dairəsinin başçısı Yelena Lapuşkina "Samara Vilayətinin Azərbaycanlılar Liqası" İctimai Birliyinin üzvlərinə təşəkkürnamələr təqdim edib.

Həmin gün qala-konsert təşkil olunub. Konsertin proqramına virtuoz skripkaçı, Azərbaycanın Əməkdar artisti Ceyhun İsmayılovun dirijor, Samara Vilayətinin Əməkdar artisti Mark Koqanın rəhbərlik etdiyi Samara şəhər dairəsinin nəfəs alətləri orkestrinin birgə çıxışı, Rusiyanın Xalq artisti Mark Levyantın, kamançaçalan, Azərbaycanın Xalq artisti Elşən Mansurov və tarçalan İntiqam Oqtaylının müşayiəti ilə Xalq artisti Nəzakət Teymurovanın, Ümumrusiya və beynəlxalq müsabiqələr laureatı Vadim Zubkovun, "Samara Vilayətinin Azərbaycanlılar Liqası"nın "Xəyal" və "Alpan" rəqs kollektivlərinin, Ümumrusiya musiqi müsabiqələrinin laureatı Aida Əkbərovanın çıxışları daxil idi.

Tədbirin ikinci günü qonaqlar Samara Vilayətinin Xalqlar dostluğu evində olublar. Müəssisənin direktoru İqor Burov təşkilatın tarixi və fəaliyyəti, milli mədəni mərkəzlər barədə, eləcə də vilayətdə keçirilən millətlərarası və milli tədbirlərdən söhbət açıb. Azərbaycan təmsilçiləri Xalqlar dostluğu evinin fəaliyyətinin mühümlüyünü dəyərləndirib, eləcə də "Samara Vilayətinin Azərbaycanlılar Liqası"na göstərilən dəstəyə görə minnətdarlıqlarını bildiriblər.


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2024-cü il üçün abunə yazılışına başlanılır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Güclənən mövqe, artan nüfuz, yüksələn etimad
Azərbaycan COP29 beynəlxalq konfransına layiqli şəkildə evsahibliyi edəcək
Azərbaycan-Qətər əlaqələri xoş ənənələrə əsaslanır
Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə
Dost ölkə və etibarlı tərəfdaşımız olan Serbiya ilə əlaqələrimiz bizim üçün xüsusi əhəmiyyət daşıyır
Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə
YAP Mərkəzi Seçki Qərargahının iclası keçirilib
Yeni böyük hədəflərə hesablanmış addım
YAP-ın qərarı xalqın mövqeyinin göstəricisidir
Fransa Azərbaycana qarşı qərəzli mövqe tutub
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bu il Azərbaycanda 4548 zəlzələ qeydə alınıb

Son həftələr ölkəmizin paytaxt və regionlarında ardıcıl olaraq zəlzələlər müşahidə olunur. Bu zəlzələlər dağıdıcı gücə sahib olmasalar da, irəliləyən zamanda daha güclü təkanların ola biləcəyi ehtimalı insanlarda təşviş yaradır. Bunda dezinformasiya tipli məlumatların da rolu böyükdür.



Respublika Seysmoloji Xidmət Mərkəzinin məlumatına görə, ilin əvvəlindən bu vaxta qədər 84 seysmik stansiya vasitəsilə Azərbaycan və ona bitişik ərazilərdə 9702 zəlzələ qeydə alınıb, onlardan 37-si hiss olunub. Ölkə ərazisində isə 4548 zəlzələ qeydə alınıb ki, onlardan 83-nün maqnitudası 3-dən böyükdür.

Azərbaycan ərazisində bu il baş verən ən yüksək maqnitudalı zəlzələ Xəzər dənizində qeydə alınıb. Bunlar 4 iyul və 7 dekabr tarixlərdə maqnitudası 5,6 olan zəlzələlərdir.

## Dekabrın 7-dəki zəlzələdən sonra Kardiologiya İnstitutuna çox sayda müraciət daxil olub

Zəlzələlər əhalinin ümumi əhvali-ruhiyyəsinə ciddi təsir göstərərək bir sıra sağlamlıq problemləri yaradır. Təbii fəlakətlərdən doğan ekstremal vəziyyətlər həmin situasiyanı yaşayan, həm də kənardan seyr edən insanların psixologiyasına böyük ölçüdə mənfi təsir göstərir.

Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Kardiologiyada yeni çağırışlar - 2023" adlı beynəlxalq elmi konqresdə Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru, professor Gülnaz Dadaşova deyib ki, dekabrın 7-də baş vermiş zəlzələdən sonra Kardiologiya İnstitutuna çox sayda müraciət daxil olub. O bildirib ki, bu cür hallarda hipertanik kriz, fobiyalardan qaynaqlanan qəfləti, miokard infarkta səbəb olacaq spazmalar müşahidə edilir.

G.Dadaşova qeyd edib ki, müraciət edənlər müxtəlif yaş qruplarından olan şəxslərdir: "Tələbələrdən, eləcə də yaşlı şəxslərdən müraciətlər oldu. Beyin, ürək patologiyası olan, indiyəcən yüksək təzyiqdən şikayətlənməyən insanlarda təzyiqin yüksəlməsi müşahidə olundu, bir sıra insanlarda isə qəfil şəkər yaranma riskinin ortaya çıxması kimi hallar qeydə alındı".

Həkim onu da vurğulayıb ki, ürək xəstəliklərinin artmasında stress, zərərli vərdişlər, energetik içkilər ciddi rol oynayır. O, həmçinin vətəndaşlara çağırış edərək ürəklərinə qarşı daha diqqətli olmalarını tövsiyə edib.

## Zəlzələ zamanı hansı tədbirlər görülməlidir?

Çox təəssüf ki, zəlzələlərin dəqiq yerini və vaxtını öncədən müəyyən etmək üçün xüsusi cihaz yoxdur. Sadəcə olaraq, uzunmüddətli proqnozlar vermək, aktivliklərin olduğu yerləri və zəlzələ gözlənildiyini demək mümkündür. Buna görə də onun dağıdıcı təsirlərini azaltmaq imkanları mövcuddur. Belə ki, bu təbii fəlakət zamanı əsas təhlükə onun özü yox, fəsadlarıdır: bina və tikililərin dağılması, mebel və digər ev avadanlıqlarının aşması, şüşə qırıntıları, sel və qaz sızıntısı və sairə.

Mütəxəssislər zəlzələ zamanı sakit davranmağı və düzgün qərarlar qəbul etməyi tövsiyə edirlər. Belə ki, bu zaman insanların düşünülməmiş davranışları həm özləri, həm də ətrafdakılar üçün təhlükə yarada bilər.

Yeraltı təkanları hiss etdikdə binaları tərk etmək, çıxarkən liftdən yox, pilləkənlərdən istifadə etmək lazımdır. Çölə çıxan kimi boş ərazilərə gedilməli, tikili və naqillərdən uzaq durulmalıdır.

Yaşayış yerini tərk edə bilməyənlər isə daxili divarın yanında, otaqların künclərində dayanmalı, stol və ya yataqaltı kimi təhlükəsiz yerlərdə yumaq formasında uzanaraq əlləri ilə başlarını örtməlidirlər. Qaz sızıntısı ehtimalını nəzərə alıb kibrit yandırılmamalıdır. Təhlükəli miqdarda toz udmamaq üçün yalnız əlacsız qaldıqda qışqırmalı, ağız nahiyəsini əl dəsmalı və ya geyimlə bağlamalıdırlar.

Yeraltı təkanlara yolda yaxalandıqda isə zəlzələ bitməyincə nəqliyyatı tərk etmək məsləhət görülmür. Nəqliyyat vasitələri binaların, ağacların, estakadaların və elektrik naqillərinin yanında saxlanılmamalı, zədəli olan yollardan, körpülərdən və maili enişlərdən istifadə edilməməlidir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# III Azərbaycan Beynəlxalq Vokalçılar Festivalında yeni əsərlər təqdim olunub





III Azərbaycan Beynəlxalq Vokalçılar Festivalı çərçivəsində müasir Azərbaycan bəstəkarlarının vokal əsərlərindən ibarət konsert olub. Bu əsərlərin bir çoxu ilk dəfə ifa edilib.

AZƏRTAC xəbər verir ki, III Azərbaycan Beynəlxalq Vokalçılar Festivalının dördüncü gününün proqramı Bülbülün Xatirə Muzeyində "Şuşadan İtaliyaya" adlı konsert proqramı ilə başlayıb. Bülbül adına vokal məktəbinin tələbələri dünya və Azərbaycan bəstəkarlarının əsərlərini ifa ediblər.

Festivalın növbəti gününün proqramına Beynəlxalq Muğam Mərkəzində yekun vurulub. Azərbaycanın Xalq artisti, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru Azər Dadaşovun, Üzeyir bəy Hacıbəylinin Ev-Muzeyinin direktoru, bəstəkar, Xalq artisti Sərdar Fərəcovun, gənc bəstəkarlar Tahir İbişov, Tural Məmmədli, Elvin Quliyev, Elnara Dadaşova, Qumru İmamverdiyeva, Toğrul Salmanovun əsərlərini Əməkdar artist Səidə Şərifəliyeva və gənc vokalçılar Şaban Cəfərov, İsmayıl Zeynalov, Şəfa Qəhrəmanova, Katibə Mehdiyeva, Atəş Qarayev, Mələk İsrafilova ifa ediblər.

Xalq artisti Samir Cəfərovun ifa etdiyi və musiqisi Tural Məmmədliyə aid olan "Günəşim" əsəri tamaşaçılar tərəfindən gurultulu alqışlarla qarşılanıb.

Festivalın dördüncü gününə yekun vuran Əməkdar artist, III Beynəlxalq Azərbaycan Vokalçılar Festivalının ideya müəllifi və bədii rəhbəri Ramil Qasımov festival çərçivəsində keçirilən bu tədbirin ən əlamətdar gecələrdən biri olduğunu vurğulayıb. O qeyd edib ki, bu layihə yeni əsərlərin yaranmasına öz töhfəsini verir.

"Yeni bəstəkarlar varsa, yeni ifaçılar da var. Yeni ifaçılar varsa, yeni bəstəkarlar da var. Bəstəkar və ifaçı bir-birini tamamlayır", - deyə Ramil Qasımov vurğulayıb.

Əməkdar artist həmçinin Mədəniyyət Nazirliyinə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının rəhbərliyinə, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə başda olmaqla bütün Azərbaycan bəstəkarlarına minnətdarlığını bildirib.

# Bakıətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var

Azərbaycanda dekabrın 20-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi şəhərətrafı ərazilərdə çiskinli yağış yağacağı ehtimalı var. Gecə və səhər duman olacaq. Cənub küləyi əsəcək. Havanın temperaturu gecə 2-5°, gündüz 7-12° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 771 millimetr civə sütunundan 769 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2-7° şaxta, gündüz 5-10° isti olacağı ehtimal edilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8° şaxta, gündüz 2-7° isti olacağı ehtimalı var.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, yüksək dağlıq ərazilərdə 8-13° şaxta, gündüz 0-5° isti, bəzi yerlərdə 8°-dək isti olacağı proqnozlaşdırılır.

Gəncə şəhərində, Qazax, Samux, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacağı bildirilir.

Mingəçevir şəhərində, Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Ağdaş, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək isti, gündüz 5-10° isti, dağlarda gecə 3-8°, yüksək dağlıq ərazilərdə 10-15° şaxta, gündüz 0-5° isti olacaq.

Şirvan şəhərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-12° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 6-11° isti, dağlarda gecə 2-4°, yüksək dağlıq ərazilərdə 8°-dək şaxta, gündüz 0-4° isti olacağı proqnozlaşdırılır.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5270**
**Sifariş 3330**

**Qiyməti 40 qəpik**